

Feyruz Bağırov

TALE YOLLARI

"İnsanın elə bir dövrü olub keçmişdir ki,
o, xatırlanmağa layiq bir şey olmamışdır."
(İnsan surəsi, 1)

Naxçıvan – 2016

FEYRUZ BAĞIROV

TALE YOLLARI

“İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır.”

(İnsan surəsi, 1)

NAXÇIVAN — 2016

Feyruz Abdulla oğlu Bağırovun 70 illiyinə həsr olunur.

Tale yolları

Дороги судьбы

طلح يلّر

“Dünyada qalacaq ayaq izlərim, bir də ürəyimdən gələn sözlərim
Qəlbimdə sönəcək xatirələrim, sədası qalacaq mən olmayanda.”

“Tale yolları” kitabında müəllif, 70 illik həyat və Tale hadisələrini həqiqətə uyğun şəkildə qələmə almışdır. Müəllif uşaqlıq illərindən ahıl yaşadək olmuş həqiqətləri yaddaşın köməyi ilə qələmə alaraq və özünə təskinlik vermişdir.

Qurani-kərimi mükəmməl bilən din, təbiyyat, tibb, anatomiya, astronomiya və hikmət elmlərindən xəbəri olan oxucular, kitabdan faydalana bilərlər.

MÜNDƏRİCAT

1) Yaradılmış dünya, insan və tale. 5
2) Taleyimdə ailə düşüncələri. 8
3) Həyatdakı tale yüküm. 10
4) Taleyimin uşaqlıq illəri. 13
5) Yer üzünün "əşrəfi" insan. 16
6) Sünnət adətində kirvə qohumluğu. 18
7) Atam taleyimin xatirələrində. 21
8) "Köhnə səbət" haqqında rəvayət. 23
9) Uşaqlıqda tale yollarım. 26
10) Xəbis insan gözündə "nəzər". 28
11) Uşaqlıq illərinin şıltaqlığı. (Birinci inadkarlıq). 29
12) Uşaqlıq illərinin şıltaqlığı. (İkinci inadkarlıq). 30
13) Uşaqlıq illərinin şıltaqlığı. (Üçüncü inadkarlıq). 31
14) Uşaqlıq illərinin şıltaqlığı. (Dördüncü inadkarlıq) 32
15) Mamasının gül balası. 33
16) Halallığın haramla əvəz olması. 35
17) Taleyimdə həbi xidmət. 37
18) Taleyimdə Texnikum tələbəsi. 41
19) Rəssamlıq sənətinə həvəs. 43
20) "Sən saydığını say..." 48
21) Taleyimdə sinkoqraf ustası. 50
22) Texnikum kəndə köçürülür... 52
23) Riyakar qəzet redaktoru. 54
24) Taleyimdə "mədəni həyat". 55
25) Kankanlıq çətin sənətdir. 62
26) Taleyimdə müəllim peşəsi. 65
27) Taleyimdə mənəviyyata həvəs. 71
28) Mənəviyyatdan uzaq düşənlər. 76
29) Sabirabadlı dostlarım. 79
30) "Balıq başdan iylənər..." 83
31) Taleyimdəki gizli iztirab. 86
32) Taleyimdəki stress və depressiya. 93
33) Arxiv- keçmiş tarix deməkdir. 96
34) Quran möcüzələri. 100
35) Riyazi rəqəmlərdə "tapmaca". 103
36) Şirk ən böyük günahdır. 105
37) Mən bu Dünyanın qonağıyam. 107
39) İstifadə olunmuş mənbələr. 113

Yaradılmış dünya, insan və tale

Kainatın başlanğıcının olmasını XXI əsrin əvvəllərində müasir fizika və astronomiya elmi müxtəlif müşahidə və təcrübələrlə sübut etmişdir. Qurani-kərimdə kainatın yaranması ilə bağlı ayələr vardır ki, onlardan biri də *"Ənam" (6/101)* surəsində belə deyilir: *"O göyləri və yeri (yoxdan) yaradandır..."*

Müasir elm tərəfindən sübut olunmuşdur ki, dünyanın yaradılması 15 milyard il əvvəl *"Böyük partlayış" (buna Biq bənq" də deyirlər)* nəticəsində bir nöqtədən partlayışla olmuşdur. Müasir texnologiyalar, tədqiqat və hesablamalar kainatın bir başlanğıcının olması və onun hər an genişlənməsi göstərilir. Bu barədə Qurani-kərimin *"Zariyat" (51/47)* surəsində deyilir ki; *"Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik."*

Fiziklər müşahidə aparıblar ki, yaxın gələcəkdə dünya büzülərək çökəcəkdir. Yaradılmış dünyanın sonu da baş verəcək ki, buna elmdə *"Biq krənç"* deyilir. Bu barədə Qurani-kərimin *"Ənbiya" (21/104)* surəsində belə deyilir: *"Göyü ... İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq."*

Allah ilk insanı *(Adəmlə Həvvanı)* Yerin palçığından yaradaraq və ona Ağıl ilə Ruh vermişdir. Qurani-kərimdə insanların yaradılması bu cür izah olunmuşdur: 1) *İnsan ana bətninə tökülmüş çox kiçik bir parçadan (spermadan) yaradılır.* 2) *Ana bətnindəki dölün cinsiyyəti kişidən asılıdır.* 3) *İnsan embrionu ana bətninə bir zəli kimi yapışar.* 4) *Ana bətnindəki uşaq üç mərhələdə inkişaf edər.*

> *"Biz həqiqətən insanı süzülmüş palçıqdan yaratdıq."*
>
> **(Muminun surəsi, 12)**

İnsanın alın yazısı Allah tərəfindən (buna tale, qismət və qədər də deyilər) hələ ana bətnində olarkən *"Lövhi-məhvuz"* da yazılar. Alimlərin fikrincə tale ancaq və ancaq Allahın istəyi ilə mövcuddur. Qurani-kərimin *"İnsan" (Dəhr) (76/30)* surəsində tale haqqında deyilir ki; *"Allah istəməsə, siz istəyə bilməzsiniz."*

Tale- zaman və məkanı yoxdan yaradan Allahdır. Zamanı Allah yaratdığından O, zamandan asılı deyil. İnsan taleyini dəyişdirə bilməz.

> *"İnsanları xarici görünüşləriylə deyil, əxlaqlarıyla qiymətləndirmək əsasdır." (bax: H.Yəhya, "Quran möcüzələri"*
>
> **(İstanbul-2009))**

Yeni yazdığım ***"Tale yolları"*** adlı sonuncu kitab, çox maraqlı faktlarla doludur. Oxucu bu kitabı nəzərdən keçirərkən, elə bilməsin ki, ədəbi-bədii kitabdır. Həyatımda uşaqlıqdan başlayaraq ahıl *(70)* yaşa kimi başıma nə gəlibsə o, hadisələri olduğu kimi qələmə almışam.

Kitabdakı hadisələr və deyimlərlə bağlı olan yerlərdə isə, şair və elm adamlarının şeir və hikmətli sözlərindən, habelə Qurani-kərimin ayələrindən də istifadə etmişəm. Bunların arasında ən çox Ordubadlı ziyalı mərhum, *Adil Qasımovun "Həyata baxış"* adlı kitabındakı deyimlərdir.

Rəhmətlik gəncliyində atamı tanıyanlardan olmuş, həyat yoldaşı vaxtsız dünyadan köçdüyündən, tənha qalaraq və ürək sözlərini qələm-kağız vasitəsilə nəzmə çəkmişdir. Haqq ədalət tərəfdarı və *Əmək Veteranı* olan, *Adil* müəllim, ömrü boyu ağa dara deyənlərdən olmamışdır.

O, *"Xatırlanan ömür"* kitabıma ön söz yazmış və ölümündən qabaq mənimlə yaxından görüşmək istəmişdir. Lakin tale yollarım həmin vaxt bağlı oldu və xəstəliyimə görə şairlə görüşə bilmədim. Allah *Adil* müəllimin ruhuna rəhmət etsin və onu tanıyanlara bu yazımla baş sağlığı deyərək, özümə təskinlik verirəm.

Kitabdakı yazdığım şəxs adları ilə olmuş hadisələr olduğu kimi qələmə almışam. Çünki yalan danışmaq qəbahətdir və yalançı isə Allahın düşmənidir. Yaşlı bir dindar kimi, Allahın qəzəbindən qorxub və tale yollarındakı olmuş hadisələri fakt kimi yaddaşımda saxlamışam.

> *"... Şübhəsiz ki, Allah həddi aşanı, yalançını doğru yola müvəffəq etməz."*
>
> **(Mumin surəsi, 28)**

Hər kəsə Allah bir ömür və bu həyatda tale yazısı vermişdir. Mənim həyatımda başıma gələn əhvalatları oxuculara doğru-dürüst yazmaya da bilərdim. Lakin o zaman insanın bu dünyadakı həyatı nağıl kimi sayılardı. İstəmişəm ki, həyatımın izlərini gələcək nəsillərə (nəvələrimə) reallıqla tanıtdıram. Çünki keçmişini bilməyən bu gün və gələcəkdən danışa bilməz.

“... Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapmışdır.”

(Rəd surəsi, 28)

Taleyimdə ailə düşüncələri

Mən Naxçıvan şəhərində ziyalı və dövlət qulluqçusu ailəsində dünyaya gəlmişəm. 1946-cı ilin 8 may günü doğulsam da, kimlik sənədlərində səhvən 16 may tarixi yazılmışdır. Ailəmizin son beşiyi sayılaraq, on beşinci uşağa görə anama ikinci dəfə ***"Qəhrəman ana"*** fəxri adını vermişlər.

Atam *Abdulla Hacı Məhəmməd oğlu* mənim doğum günü münasibətilə bir həftədən sonra mənə ad qoymaq niyyəti ilə, həyətimizdə süfrə açdırmış, qurbanlıq heyvan kəsdirərək və ehtiyaclı adamlara ehsan vermişdir. (Bütün bunları mənə sonradan *Püstə* nənəm söyləmişdir).

> *"Allahdan öz bəndələri içərisində ancaq elm adamları qorxar."*
>
> (Fatir surəsi, 28).

Anam *Nərgiz Kərbəlayı Əli qızı* məni digər uşaqlarından çox istəyərdi. O, mənə söyləmişdir ki, doğum günü tikilməkdə olan indiki evimiz hələ tam hazır olmadığından, buzxanaçı qonşu *Rübabə Süleyman* qızının evində kirayə qalırdıq. *(Onun əri Həsən müharibədən geri qayıtmamışdır).* Həmin gün bərk yağış yağırdı. (Bu əlamət xeyir və aydınlıq nişanəsi idi).

Atan sənə ad qoyanda Quran oxuyub ölənlərin ruhuna dua etdi və sənin sağ və sol qulaqlarına *"əzan"* və *"iqamə"* dualarını oxuyaraq, Allahdan taleyinin və sağlamlığının xeyirli olmasını arzuladı. *Püstə* nənən bir neçə ad qoyulmasını təklif etsə belə, o, isə Gəncədə yaşayarkən qapı qonşusu olmuş Təbrizli demokrat *Firuzun* adını qoyulmasını bildirdi. Sonradan öyrəndim ki, *Firuz şah* Fars dövlətinin hakimi olmuş və İslam dinində *"Şiə"* təriqətinin banisi kimi tarixdə iz qoymuşdur.

> *"Amma (insanlar) İslam dinini aralarında parçalayaraq firqələrə böləndülər. Dində hər firqə öz təriqətinə sevinir."*
>
> (Ənbiya surəsi ayə 93; Muminun surəsi, 53)

İslam dinini firqələrə bölməklə müsəlmanları biri-birindən incik salmaq nə qədər pis olsa belə, Allah qarşısında da günah qazanmaq kimidir. Həzrəti ***Məhəmməd*** *(s)* Peyğəmbərdən soruşduqda ki, hansı dindəsən? Həzrət *(s)* Quranda deyildiyi kimi;- ***"Mən babamız Həzrət İbrahim*** *(ə)* ***peyğəmbərin "hənif" dinindəyəm."***

"İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif müsəlman idi və (Allaha) şərik qoşanlardan deyildi."

(İmran ailəsi surəsi, 67)

Anam mənə qoyulmuş *"Firuz"* adından xoşlanmadığından və yağış-yağmur olan günü doğulduğum üçün mənası xeyir-bərəkət və ruzulu olan *Feyruz* adı ilə əvəz etmişdir. Qəribədir ki, hər ayın səkkizi günü mənim həyatımda dəyişiklik olmuş *(indi də olmaqdadır)* və həmin gündə heç də sevinməmişəm. Hər ayın səkkizinci günündə başıma bəlalar gəlmiş, taleyimin uğursuzluğuna acıyaraq kədərlənmişəm. Bütün bunlar Allahın insana verdiyi tale yazısından irəli gələn əməllərdəndir.

Mən dünyada var-dövlətə həris olmamışam, başqalarına xəsislik də etməmişəm, fikrim-zikrim yalnız oxuyub nəyi isə öyrənmək və səliqə sahman sahibi olmuşam. Bütün bu dediklərimi ailəm, qonşularım, dost-tanışlarım və iş yoldaşlarım da bilirlər.

İlahi, dünyaya sənsən padşah, biz kiçik bəndəyik, sən böyük Allah.
Sənə sığınır hər yüksək, alçaq, varlıq yoxluqdur, Sən varsan ancaq.
Yuxarı, aşağı- hər gözə çarpan, nə varsa, onları Sənsən yardan.
Sənsən hər biliyi bizə öyrədən, torpağın köksündə qələm işlədən.
Sənin varlığına tapınca bürhan, ağıl ilk inandı Sənə, yaradan.
Sən ağlın gözünü işıqlandırdın, Sən doğru yollarda çıraq yandırdın.
Göyləri Sən qurdun, ucaltdın, Allah, ona yer üzünü etdin düzəngah.
Sənsən bu aləmdə bir damcı sudan, günəşdən işıqlı gövhər yaradan.
Yağmur yağmaz, deməsən ki; "yağ", "bitir" desən, bitirər torpaq.
Özün də kimsədən kömək almadan yaratdın nə gözəl, səfalı aləm.
(N.Gəncəvi, "Şərəfnamə)

"Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü açıq kitab kimi qarşısına qoyarıq."

(İsra surəsi, 15)

Həyatdakı tale yüküm

Hər bir canlıya Allah tərəfindən hələ doğulacağı bətndə ona dünyadakı tale yükü verilər. İnsan oğlu nə qədər ki, ana bətnində mərhələlərlə inkişafdadır, bütün bunlara sevinər. İnsan Dünya həyatına gələrkən onun müxtəlif çətinliklərini görüb və qəmgin olar. Elə ki, inkişaf mərhələləri başa çatdı və bətndən qoparaq dünyaya gəldi, həmin anda o, qışqıraraq ağlayar.

> *"And olsun axşam çağına ki, insan (ömrünü bihudə işlərə sərf etməklə) ziyan içindədir."*
>
> **(Əsr surəsi, 1-2)**

İstərdim soruşam Pərvərdigardan, *görəsən dünyaya niyə gəlib insan?*

Hər yeri, hər tərəfi biz dolanmışıq, yağışda islanmış, odda yanmışıq.

Həvva ilə Adəmdən biz yaranmışıq, bunu təsdiq edir, müqəddəs Quran,

Gəzərdim bağ-bağçada gözəl yar ilə, ömrüm-günüm keçib kitablar ilə,

Hərdən baxaraq o, mənə intizar ilə söylədi bir sual o, mənə yavaşdan.

Görəsən dünyaya niyə gəlib insan?, ölçülər qaməti, ölçülər boyu,

Qızın eldə olar sözü-söhbəti, hər bir cavan üçün edərlər toyu.

Xonçalar əllərdə parlayar əlvan, hər bir daş üstündə qurular soba,

Ocaqları qoruyar bizim el-oba, bir ata qocalarsa, xoş olar ona.

Nəvələr söylər "baba can" ona, görəsən dünyaya niyə gəlib insan?

Biri nökər gəlib, digəri isə ağa, biri dərəyə enər, digəri qalxar dağa.

Torpaqdan yaranan gedər torpağa, bunu bax seyr edir, tarixi dövran

Görəsən dünyaya niyə gəlib insan?, görəsən dünyaya niyə gəlib insan?

İnsanın bir də Dünya həyatından köçəndə üzü gülümsəyər və həmin anda şad görünər. Əgər soruşan olsa onda belə deyər; "Nə qədər ki, ana bətnində idim, yeyib-içib şıllaq atardım, elə ki, Dünyaya gəldim, dünyadakı çətinlikləri göz qabağıma gətirib ağlayaram. Elə ki, bu Dünyadan köçməli oldum, buna sevinib və Ruhumu Bərzəxə aparana "sağ ol deyərəm""

“Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz.”

(Nur surəsi, 40).

Kimlər gəlib, kimlər gedib bu dünyadan, biri gəlib soyur gedir, biri varın qoyur gedir,

Kim ömürdən doyub gedir, bu dünyadan kimi ömrü xoş gedir, kimi canına xoş gedir.

Gedənlər əliboş gedir, bu dünyadan, alim də, nadan da gedir, qoca da cavan da gedir,

Hərə bir zamanda gedir, bu dünyadan, şirindir, acıdır, baldır, zəhərdir

Körpədir, cahildir, ahıldır dünya, əvvəli bilinməz, sonu bilinməz

Təpədən dırnağa nağıldır dünya, kimsəyə sevincdir, kimsəyə dərddir

Kiməsə namərddir, kiməsə mərddir, kiməsə həlimdir, kiməsə sərtdir

Kiməsə şəkərdir, noğuldur dünya, nə gəda tanıyar, nə də ki, bir şah

Ölmək qurtulmaqdır, yaşamaq günah, zülm asimana dirənsə vallah

Bir də görərsən ki, dağıldı dünya, dağıldı dünya, dağıldı dünya.

“... nəfs (insana) pis işlər görməyi əmr edər.”

(Yusif surəsi, 53).

Dünya nə şirinsən sənin dadını, bilməyəndə yazıq, biləndə yazıq,

Razı buraxmırsan bir övladını, ölməyəndə yazıq, öləndə yazıq.

Bəzənib zülfünü ləl eyləyirsən, nazlı bir qız kimi əl eyləyirsən,

Açırsan boynunu gəl, eyləyirsən, gəlməyəndə yazıq, gələndə yazıq.

Kimisinin bəndə düşür gəmisi, kimisinin məhsul vermir zəmisi,

Kimisi ağlayır, kimisi gülür, ağlayan da yazıq, gülən də yazıq.

Feyruzun taleyi çox kütəmlidir, dodağı gülsə də, ah, gözü nəmlidir,

Zəmanənin sazı, zili bəllidir, onu çalmayan da yazıq, çalan da yazıq.

“İnsana bir sıxıntı üz verən zaman uzananda da, oturanda da, ayaq üstə duranda da Bizə dua edər. Lakin onu sıxıntıdan qurtardıqda ondan ötrü bizə heç dua etməmiş çıxıb gedər.”

(Yunus surəsi, 12).

Taleyimin uşaqlıq illəri

Ağlayırdın ey insan, sən dünyaya gələndə,
Gülüb sevinirdilər, insanlar yan-yörəndə.
Özünə bir gün ağla, elə işlər gör ki, sən
Onlar ağlayan zaman sevinəsən, güləsən.
(İmam Şafii)

Mənim dünya həyatımın tale yollarında bir neçə dəfə çətinliklərlə qarşılaşmalı olmuşam. Allah heç kəsin başına və tale yollarına bu cür çətinliklər verməsin. Lakin nə etmək olar hər bir olacaq və olub keçmiş çətinliklər hər kəsin tale yazısındadır. Onu nə pozmaq olar və nədə ki, əvəz etmək.

Uşaqlıq illərinin acı tale yollarından biri də belə olmuşdur. Mən uşaqlıqdan hər axşam həyətimizin dövrəsindən axıb keçən "Bazar çayı"nın şırıltılı suyunda çimər və sonra gəlib paltarımı çıxarıb yerimdə yatardım.

Paltarlarım göy rəngli anamın iynə-sap ilə tikdiyi finka və ağ qollu köynəkdən ibarət idi. Adət üzrə yatanda finkamı çıxarıb və qəhvəxanadakı kiçik qapı yerinə qoyardım.

Səhər durub finkamı tələsik geyərkən, birdən buduma sərin bir şey dəydiyini hiss etdim. Həmin sərinlik hərəkət etməyə başladı. Əlimi finkamın üstündən qoyub sıxanda məni sanki ilan sancdığını duydum.

Qışqırıb anamı səslədim və tələsik finkamı aşağa sıyırdım. Budlarımın ikisindən də iynə batırılmış kimi ağrılar yarandı. Anamın köməyi ilə finkamı çıxaranda. Yerə sarı rəngli yekə əqrəb düşdüyünü gördük. Anam başmaq tayının altı ilə əqrəbi öldürdü. Mən isə ağrıdan və qorxudan çığırmaqda idim.

Anam məni çaya qaçmağımı dedi və əli ilə məni darta-darta çaya tərəf apardı. Çayda suya girib bir müddət ağlaya- ağlaya otursam da, əqrəbin quyruğundakı iynə yerləri şişərək qızardı. Anam qızarmış şiş yerlərini əli ilə ovsa da ağrı hələ də kəsmirdi.

Axşam atam işdən evə gəldikdə məni əqrəb vurmasını eşidərək gülümsəyərək dedi: "Qorxma əqrəb zəhəri faydalıdır, bədən əzələlərini möhkəmləndirir. Eşitdiyimə görə pəhləvanlar güləşdən əvvəl ayaq və əllərinə əqrəb zəhəri sürtərlər ki, güclü olsunlar. Bundan sonra paltar və başmaqlarını geyməmişdən əvvəl silkələ."

Həmin hadisəni dostlarıma danışdıqda, mənə gülərək dedilər ki; "Sən hər şeyi bizə deyib öyrədənsən, özün isə səbirsizsən." Doğrudan da, səbirsizlik insanın başına bəlalar gətirər. Hörmətli şairimiz hər işdə səbirli olmaq haqqında belə faydalı sözləri nəzmə çəkmişdir;

Düşünmə ki, səbr insanı yorar,
Səbir hər bir şeyin başında durar,
Tələsmək işinə şeytan qarışar,
Gördüyün işlər də, faydasız olar.
Səbirlə yaranıb səma, kainat,
Səbirlə verilmiş aləmə həyat,
Səbirsiz olanın taleyi gülməz,
Yaradan günəşi heç vaxt söndürməz.

(A.Qasım, "Həyata baxış")

> *"İnsan, ağlı, şüuru və ən əhəmiyyətlisi də, Allahın öyrətdiyi əxlaqla, Allah qorxusu və sevgisi ilə doğrunu yalandan ayıran və insan xüsusiyyətini daşıyan bir varlıqdır."*
>
> **(Harun Yəhya)**

Taleyimin yazısına görə yaddaşımda qalan uşaqlıq illərinin "xoş günləri" ilə yanaşı, acılı günləri də olmuşdur. Beş yaşım olardı. Payız ayı olduğundan havalar soyumuşdur. Ata evi iki pəncərəli kiçik otaqla kiçik dəhlizdən (qəhvəxanadan) ibrət idi.

Otağın arxa divarında (atamın yataq yerinin yanında) kiçik taxçada atama məxsus kitab, qəzet və qovluqlarda müxtəlif sənədlər qoyulmuşdur. Atam hərdən həmin sənədlərə baxarkən mən də diqqət edib görmüşdüm ki, sənədlərdəki möhürlü yazılar rus və farsca yazılmışdır.

Otağın qapı ilə üzbəüz divar hissəsində qapı yerinə oxşar böyük taxçada anam bizim yatacaq paltarlarını səliqə ilə büküb saxlayırdı.

Otağın orta hissəsində isə torpaqdan olan döşəmədə kiçik təndir, onun üstündə isə 2x2 m ölçüsündə olan taxta kürsü qoyulmuşdur. Qış aylarında evin uşaqları isti olsun deyə həmin kürsünün üstündə yorğan altında yatardıq.

Dəhlizdə həyətə çıxmaq üçün ön divarda ikitağlı taxta qapı ilə yanında da divar ocağı var idi. Arxa divarda iki kiçik qab yığmaq üçün taxçalar və digər divarda isə otağa girmək üçün ikitağlı taxta qapı var idi. (Həmin divarla üz-üzə də evdən tövləyə girmək üçün kiçik qapıdan ibarət ev idi).

Anam adət üzrə otaqdakı sağ pəncərə önündə neftlə yanan üç piltəli "soba" (maşınka) üzərinə alüminim qabda su qaynadırdı ki, axşamdan qalmış çirkli qabları yusun. Mən ayaqyolundan tələsik gələrək və qızınmaq üçün maşınkanın yanında çömbəldim. Bir az canıma isti keçəndən sonra tələsik yerimdən qalxmaq istədim.

Köynəyimin ətəyi qaynar qazanın qulpuna toxunmaqla üstü su qurşaqdan aşağıya tökülərək və mənim önümü yandırdı. Qorxudanmı və ya dərimin yanmasından olan ağrıdanmı bərk çığırdım. Səsimə anam özünü yetirdi və məni qucaqlayaraq hönkür-hönkür ağlamağa başladı...

Ümidim sənədir, ey ulu Tanrı,
Qapından ümidsiz qaytarma barı.
Atımı həddimdən uzaq salmışam,
Yolunda mən yarı yolda qalmışam.
Bu zəif varlıqdan nədir istəyin?
Elə bil əvvəldən yoxmuş bu miskin.
Sən əziz tutmusan, yandırma məni,
Nəzərin məndəykən qovma bəndəni.

(N.Gəncəvi, "Şərəfnamə")

Bədənimdəki olan dərin yanıqdan düz üç ay yataqda qalmalı oldum. Yanığa qarşı dərmanlarla bir təhər ki, sağalaraq ayağa qalxdım. Uzun illər bədənimdəki yanıq yeri qalaraq və mənim acı taleyimin yaddaşına həkk olundu. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

"Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən pislik isə özündəndir..."

(Nisa surəsi, 79)

Yer üzünün “əşrəfi” insan

“Allahın bir insana verəcəyi ən böyük nemətlərdən biri imandır.”

(Harun Yəhya)

Allah ilk insanı yer üzünün müxtəlif torpaqlarından yaratmışdır. Bunu elm sahibləri də təsdiq edirlər ki, insan bədənində yerdə olan bütün kimyəvi elementlərin qarışığı vardır. Allah insanı sevərək yaratmaqla bərabər bütün canlılardan gözəl biçimli və Yerdəki bütün canlıların “əşrəfi” etmişdir. Bütün bunları müqəddəs kitablar və xüsusən də Qurani-kərim də sübut edir.

İnsan bədənində elə bir üzv yoxdur ki, o, artıq və ya əskik olsun. Lakin insanın özü-özünə qənim kəsilərək və elədiyi müəyyən səbəblər üzündən insan bədənindəki müəyyən orqanlar öz fəaliyyətini itirir, və yaxud da ki, sağlamlığa zərər gətirir. Nəticədə həmin orqan (üzv) həkimlər tərəfindən fəsad gətirməsin deyə, ya kəsilərək ləğv edilir və ya əlavə digər ölmüş insan orqanı ilə əvəz olunur.

Dünyadakı müxtəlif dinlər və təriqətlər yaradılmışdır ki, Allahın ilk insan olmuş Həzrəti Adəm (ə) Peyğəmbərə verilmiş düzgün yaşayış tərzləri, sonrakı insanlar tərəfindən “din” adı ilə pozularaq və saxtakarlıqlar yaradılmışdır.

Hind kinematoqrafçıları tərəfindən yaxın illərdə maraqlı bir kino film çəkilərək dünya ekranlarına buraxılmışdır ki, adı “Göydən gələn- PK”dır. Filmdə biz bilmədiyimiz başqa bir aləmdən gələn gənc oğlanın yer üzərində (əhvalat Hindistandan bəhs edilir) başına gələn əhvalatlar göstərilir.

Qəlbi təmiz və doğruçu gənc yer üzərindəki insanların yalan danışmaları, oğurluqları və digər pis əməlləri ilə qarşılaşaraq, həmin girdaba düşür və Allahın köməkliyi ilə bu çətinliklərdən qurtula bilir. Filmdə əsas yeri yer üzərindəki müxtəlif dinlər və təriqətlər kəskin şəkildə tənqid edilir.

İnsanların (oğlan uşaqlarının) körpəlikdən sünnət olunmaları (tənasül üzvün dərisinin ucdan kəsilməsi) yalnız Yəhudi (Musəvilik) və Müsəlman (İslam) dinlərində geniş yayılmışdır. Bunu isə insanlar arasındakı müəyyən cinsi orqanlar vasitəsilə keçirici xəstəliklərin qarşısını almaqda bildirirlər.

Tarixi baxımdan kişi cinsinin sünnət olunması Yəhudilərdən qalma, yəni Həzrəti İbrahim (ə) peyğəmbərin yaşının yüzdən yuxarı olması və nəslinin olmamağı üzündən əhd edir ki, əgər oğlu olarsa, heyvan kəsib yoxsullara ehsan verib və oğlunu da Allah yolunda qurban kəssin.

Allahın möcüzəsi ilə peyğəmbərin (ə) ahıl vaxtında Misirli Həcər adlı kənizindən İsmayıl adlı və sonra da zövcəsi Saradan isə İshaq adlı oğlanları olmuşdur. Əhdinə görə ilk oğlu İsmayılı aparıb qurban kəsmək istədikdə, Allahdan bağışlanmışdır. Peyğəmbər (ə) öncə oğlu İsmayılın tənasül üzvünün dərisini kəsmiş və sonra isə iti bıçaq oğlunun boğazını kəsmədiyi üçün hirsindən onu daşa çırpmışdır.

Daşın içərisindən çıxan, bir vaxtlar Həzrəti Adəm (ə) peyğəmbərin kiçik oğlu Habilin Allaha qurban etdiyi qoç, qurbanlıq insan ölümünə son qoymuşdur. Beləliklə də dində heyvandan qurban kəsmə adəti yaranmışdır. (bax; "Kəmalut-təvarx", cild 1; "Məcməül-bəyan", cild 8; "Təbəri tarixi", cild 1; "Biharul-ənvar", cild 12; S.Haşim, "Peyğəmbərlərin həyatı", cild 1 Bakı-2013).

Həzrəti ***Məhəmməd*** *(s) Peyğəmbər buyurub:* ***"Dünyada hər bir insan doğulduğu gündən etibarən onun fitrəti müsəlman olur."***

> *"İxtiyar çağımda mənə İsmayıl və İshaqı bəxş etmiş Allaha həmd olsun! ... " (İbrahim surəsi, 39)*

Sünnət adətində kirvə qohumluğu

Oğlan uşaqlarının sünnət olunma adəti Həzrəti Məhəmməd (s) Peyğəmbərin vaxtında İslamı qəbul edən müsəlmanlara, Peyğəmbərin (s) Məkkədən hicrət etdiyi vaxtlarda Mədinəli Yəhudilərdən keçmişdir. (bax; "Kəmalut-təvarx", cild 1; "Təbəri tarixi", cild 1).

Seçilmiş elçidir ulu Tanrıdan,
Möhkəm hökmləri xalqa çatdıran.
Qiymətli tacıdır azadələrin,
Ən dəyərlisidir bütün bəşərin.
Əzəldən əbədi bütün yaranmış,
Məhəmməd adından almışdır naxış.

(N.Gəncəvi, "Şərəfnamə")

1953-cü ilin avqust ayının 8-zi idi. Bazar günü olduğundan, atam işə getməmişdir. Həyətimizdə anam, xalam və bibilərim qabaqcadan kəsilib dərisi soyulmuş qurbanlıq qoçun ətindən ocaq üstündə böyük qazanda ət qovurulurdu. (Ətin gözəl iyi bütün həyətə yayıldığından, məhəllədəki pişiklər də yığılıb gəlmişdilər).

Həyətimizdə səhərdən ucaboylu və gülər üz bir kişi ilə, bir ayağı axsayan ucaboy gözəl bir qadın da var idi. Onların danışıq ləhcəsi bakılılara oxşayırdı.

Günorta çağı həyətdəki ağacların kölgəsində bəzədilmiş süfrədə oturmuş kişilər yemək yeyərək bir-birləri ilə söhbət edirdilər. Onların arasında Orucəli adlı bir qoca dəllək də var idi.

Qadın qonaqlar da evin içərisində kiçik uşaq və nəvələri ilə oturaraq bişirilmiş xörəkdən yeməkdə idilər. Düzü mən hər şeylə maraqlanmadığım üçün və bizə bu qədər qonaq gəldiyindən sevindiyimdən bilmirdim ki, nə edim. Atam əvvəlcədən mənə və böyük qardaşım İsrafilə təzə köynəklə şalvar almışdı. Mən təzə paltarımı geyinmişdim.

Axşam üstü qonşularla qonaqlardan bir neçəsi xudafisləşib atama mübarəkbazlıq sözləri deyəndə, onlardan birisi (bibim oğlu Kamil) mənə dedi ki; "Adə komsomol qorxmursan?" Onda başa düşdüm ki, bu dəllək niyə vurnuxur və nə isə mənim başımda bir xoşagəlməz iş olacaqdır.

Tezliklə qadın qonaqlar evdən həyətə çıxarıldı və əvvəl həmin Bakılı kişi ilə dəllək içəridəki otağa girdilər. Böyük qardaşım Məmməd məni qucaqlayaraq və əllərimdən möhkəm tutub içəri otağa apardı.

Otaqda Bağır əmim, bibim oğlu İsmayıl yerdəki döşək üstündə oturmuşlar. Ortalıqda isə stulda oturmuş həmin Bakılı kişi və qarşısında da yerdə dəllək oturmuşdur. Qardaşım məni qucağına alaraq və tələsik qoydu həmin Bakılı kişinin qucağına.

Həmin adam atamla bir idarədə işləyən tikinti mühəndisi Abbasəli Bağırov mənim kirvəm və həyətdəki axsayan qadın isə onun arvadı Maral idi. Dəllək Orucəlinin "Bismillah" dediyini və əlində iti ülgücünü görəndə mən çığırmağa başladım. Kirvə bir əli ilə mənim gözlərimi örtmək istəsə də bacarmadı.

Dəllək məni sünnət etdikdən sonra, əvvəlcədən yandırdığı parça külünü qan gəlməsin deyə kəsilmiş yerə qoyub və ağ tənziflə bağladı. Dəllək işini görüb qurtardıqdan sonra kirvəm məni qucağında yerimə uzadaraq və üstümü örtdü.

Təzəcə gözümü yummaq istəyirdim ki, bu zaman böyük qardaşım İsrafilin çığırtısı evi bürüdü. İndi də onu çığıra-çığıra sünnət edirdilər. Maraqlıdır ki, böyük qardaşımız Məmmədin növbəsi çatanda qorxudan qaçaraq və harada gizləndiyini heç kəs bilmədi. (Bir həftədən sonra qardaşım Məmmədin sorağı Nehrəm kəndindən gəldiyi üçün o, sünnət olunmadı).

Məmməd qardaşıma məhəllə adamları və dost-tanışları qorxaq deyərək və ona "erməni" ləqəbini vermişlər. Bir ildən sonra isə "müsəlman" olmaq üçün çarəsiz qalan Məmməd, kolxozun üzüm bağlarında üzqırxanla özü-özünü sünnət etmişdir.

Axşam evə qanı axa-axa gələn qardaşımı anam görüb və ağlayaraq onun yarasına bağlı qara məlhəmi qoyur. Məmməd qardaşım bir həftə xəstələnərək və evdə yataqda qalmalı olur.

Uzun illər kirvəm Abbasəli Naxçıvanda işləmiş və Naxçıvan rayon kolxoz təsərrüfatlarında tikinti işlərinə rəhbərlik etmişdir. Kirvəmin Naxçıvanda bərbər işləyən Yunis adlı kiçik qardaşı da olmuş və məhəlləmizdəki Əhməd və Bilqeyis müəllimin yeganə qızı ilə evlənmişdir.

Kirvəmin iki qızı və bir oğlu var idi. Onlar Bakıya köçəndən sonra, Abbasəli kirvəm vəfat edir. Atam həmin mərasimə gedərək ailəsinə başsağlığı vermişdir. (Sovet dövründən sonra, kirvəmin oğlu Qurban Bağırov Bakıdakı "ANS" televiziyasında idman xəbərləri redaksiyasında işləmişdir).

Təəssüf ki, kirvəm dünyadan köçdükdən sonra tezliklə həyat yoldaşı və qızlarından biri də vəfat edir. Həmin vaxt (1973-cü ildə) onların Bakıdakı evlərini tanıyan atam, burada xəstəxanada ağır yatağa düşərək və uzun xəstəlikdən sonra vəfat edir.

Sonrakı illərdə kirvəmin Naxçıvandakı kiçik qardaşı dəllək Yunis də (o, şəhərdəki "Çuxur məhəllə"də qalırdı) vəfat edir. Bütün bu xatirələri yaddaşımda saxlasam da, kirvəmin uşaqları və qardaşı uşaqlarından indiyədək xəbərsizəm...

Maraqlıdır ki, mən uşaqlıqda çətinlik çəksəm də, böyüyərək və gənc yaşımda evlənib ailə qurmuşam. Ailəmizin iki oğlu (Musa və Hafiz) və bir qız (Təranə) uşaqlar ilə xoşbəxt həyat sürmüşəm.

İşlədiyim Kənd təsərrüfatı Texnikumunda Qasım adlı Nehrəmli iş yoldaşımla yaxından dost olduğumdan, onu da oğlanlarıma kirvə seçmişdim.

Həyətimizdəki bu mərasim də məxsusən avqust ayının 8-nə düşmüş və sünnət işini dəllək Nadir vasitəsilə həyata keçirdik. Qəribədir ki, bir müddətdən sonra işimi başqa müəssisəyə dəyişdiyimdən, kirvəm ilə aramızda sanki bir soyuqluq yarandı.

Mən isə bu günə kimi kirvəmiz Qasımı harada görmüş, onun və ailəsinin kefini soruşub əhdə vəfasız olmamışam. Ataların bir hikmətli sözü var: "Kirvə damına çıxmazlar ki, evinə torpaq tökülər."

Hər bir insan öz nəfsinə qalib gələrsə, bütün işlərdə səbirli olarsa, vaxtlı-vaxtında özünü təmiz saxlayarsa və xüsusən də Allaha pənah gətirərsə, o zaman həmin insanın bədəni gümrah və sağlam olar.

Yandırdığın oda qızın yuvanda,
İsinsin oduna, qonaq-qaranda,
Süfrəndə çörəyin olsa yavanda,
Qonaqla ürəkdən bölәsən gərək.

"Məgər insan elə güman edir ki, onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaq uclarını da düzəltməyə qadirik!"

(Qiyamət surəsi, 3-4)

Atam taleyimin xatirələrində

Kim nə bilir kim qazana, kim yeyə,
Əbləh odur, dünya üçün qəm edə.

(Abdulla Hacı Məhəmməd oğlu)

Yaxşı yadımdadır ki, atamın axırıncı iş yeri olan Naxçıvan rayon ZDS İK (Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsi)-də "Planlaşdırma və iqtisadiyyat şöbəsi"nin müdiri işləyirdi. Günorta fasiləsində evə gələ bilmədiyi üçün hər gün onun yanına, anam bişirdiyi yemək və termosda da çay içkisi aparırdım.

Yeməkdən əvvəl otağında erməni Hayrapet adlı iş yoldaşı günorta naharına çıxıb gedəndən sonra, atam məni örtülü otaq qapısının ardına salaraq günorta namazına başlayardı. Mənə tapşırardı ki, hər ehtimala görə otağa tərəf kimsə gələrsə, və mən ucadan öskürməklə xəbərdarlıq edəm.

Sovet dövründə dövlət qulluqçularının namaz qılıb oruc tutmaları, sanki dövlətə qarşı bir "xəyanət" kimi hallanırdı. Odur ki, qoca atam bütün bunları hiss edirmiş kimi, işində ehtiyatlı idi. Tezliklə atamı yaşına görə işindən azad edirlər və onun yerinə ali təhsilli iqtisadçı ixtisası olan bir nəfəri işə götürülür. (Həmin adam ixtisas təhsili olsa belə tez-tez bizə gələrək və atamdan iş haqqında bilmədiklərini öyrənərdi).

Atam işdən çıxmaqla çox fikir edərək və onun bir günü sanki bir həftəyə bənzəyirdi. Çox istəyirdi ki, Xorasandakı Məşhəd şəhərinə ziyarətə getsin. Lakin Sovet dövrünün qayda-qanunları (xüsusilə Moskva rəhbərliyi) buna yol vermirdilər. (Atamın qarşısını kəsən yalnız onun Kommunist partiyasının üzvü olması idi).

Qocalmış atam bir evdə oturandan sonra və partiya biletini aparıb keçmiş idarəsindəki partkom Hayrapetə ərizə ilə üzvlükdən azad olmasını istədi. Nəhayət ki, Moskvada rəhbər dəyişikliyindən sonra Mərkəzi Komitədə, eləcə də Azərbaycan KP MK-da da ara qarışıb rəhbər işçilərin dəyişilməsindən düz altı ay sonra atamı partiya sıralarından azad etdilər.

Bundan sonra qocalmış atam tikdirdiyi "Buxarı papaq" başına qoyaraq və məscidə tərəf ibadətə getməyə başladı. O, vaxt məscidin Axundu qapı qonşumuz Ordubadın Nürgüt kəndindən köçmüş Mirbağır Mirheydər oğlu olduğundan, daha bir müddət atama söz deyən olmadı.

Sovet dövründə güclü təzyiqlərlə işləyən Mirbağır ağa özünü və yaxınlarını həbs təhlükəsindən qurtarmaq üçün, şəxsi arxivindəki əlyazmalar, kitablar, estamplar və dini kolleksiyaları yandırmış və bir qismini də Naxçıvan çayına axıtmışdır. (bax; F.Xəlilov, "Naxçıvanı öyrənən elmi cəmiyyət" Bakı-2005). Elə ki, 1956-cı ildə qonşumuz Mirbağır ağa dünyadan köçdü, onun yerinə məhəlləmizə Ordubadın Üstüpü kəndindən köçmüş Mirabdulla ağa adlı təhsilsiz bir şəxsi məscidə Axund qoyurlar.

Həmin dövrdə Muxtar Respublikada İslam mənəviyyatı zəifləyərək və məscidlərdə haqsızlıqlar başlayır. Məscidlərdə Axundun tanışlarından bir neçə savadsız "əzbərçi mollaları" dini mərasimlərin aparılması tapşırılır. Atam Ərəb və Fars dillərini mükəmməl bildiyindən və Quran kitabını Ərəb avazı ilə oxuduğu üçün həmin "mollalar" onu gözdən salmaq istəyirdilər.

"Şərq qapısı" qəzetinin müxbirlərindən Məcid Sirablı, Möhsün Möhsünov, Məmmədəli Tarverdiyev, Məhəmməd Rzayev və başqaları, Axundun sifarişi ilə, qəzetdəki "Ateist tribunası" adlı rubrikada təhsilli dindarlar tənqid edilməklə və məsciddən uzaqlaşdırılırdı. (bax; "Şərq qapısı" qəzeti, 1965-70-ci illər).

Atam Abdulla Hacı Məhəmməd oğlu uşaqlıq illərini Nehrəm kəndindəki ibtidai məktəbdə, sonradan (1912-ci ildə) Naxçıvandakı "Nicat" (Rüşdiyyə) yeddi illik məktəbində oxumuşdur. O, 1924-cü ildə Bakı Sənaye Məktəbində oxuyaraq "Dəmir yolu çəki ustası" ixtisası üzrə orta ixtisas diplomu almışdır.

1955-ci ilədək atam dövlət idarə və təşkilatlarında müxtəlif vəzifələrdə işləmiş və qocalığa görə təqaüdə çıxmışdır. Atam ömrünün 85 yaşında qara ciyər (atre skleroz) iltihabından xəstələnməklə, 1973-cü ilin 7 dekabr ayında dünyadan köçmüşdür. Allah ruhuna rəhmət eləsin! (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Vallah bir ağır yük var sinəmdə, gözüm görə-görə qocalır atam.
Ürək tab gətirmir bu ağır dərdə, gözüm görə-görə qocalır atam.
Əriyir şam kimi, o, yana-yana, əriyir nur saçır bütün cahana.
Atadır, a dostlar evin sütunu, ay Allah evimə çox görmə onu.

"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur..."

(İsra surəsi, 23)

“Köhnə səbət” haqqında rəvayət

Belə bir ata sözü vardır ki; “Ata-ananın üzünə ağ olanın üzü gülməz.” Rəvayət edilər ki, anadan yetim qalmış bir kasıb oğlan, qonşu kəndəki ata-anasından miras qalmış yetim bir qızı qaçırır. Bir oğlu olduqdan sonra arvadının sözü ilə oğlan, qocalmış şikəst atasını evdən uzaqlaşdırmaq istəyir.

Oğlan sübhdən atasını götürüb bazardan aldığı səbətə qoyur. Atasını aparır meşə kənarındakı dərədə yerə qoyub və boş səbətlə evlərinə qayıdır. Bu işdən arvad sevinsə də, tezliklə dünyadan köçməli olur. Bir müddət arvadından qalmış mirası satıb və oğlunu çətinliklə böyüdən kişinin beli bükülür.

Yetkin yaşa çatmış oğluna bir qız taparaq onunla evləndirir. Oğluna möhtac olan qoca, gündən-günə çətinliyə düşərək və evdəkiləri “bezikdirir”. Qocanın gəlini ərinə qarşı çıxaraq və tezliklə atasını evdən uzaqlaşdırmasını tələb edir. Nankor oğul arvad sözü ilə atasını həyətdəki köhnə səbətə qoyub və üz tutur meşə ətrafına.

Onlar gəlib dərəyə çatanda oğlu səbəti yerə qoyub qayıtmaq istərkən, gözləri yaşlı atası oğluna belə deyir: “Oğlum bu səbəti apar evə. Bir vaxt gələr qocalanda oğlun, arvad sözü ilə səni də bura gətirər. Çünki, mən də bir vaxtlar arvad sözü ilə günah işlədib və atamı səbətdə bura gətirmişəm.”

Oğlan bu sözlərdən peşman olaraq atasını evlərinə gətirdi...

Arvad kölgəsinə aldanma oğlan, təbii gözəllik duymazsan ondan
Sənə yanmaz o, ürəkdən, candan, bacarsan arvadının əsiri olma.
Arvadın həll etsə bütün hər işi, bil, sən ona arvadsan o sənə kişi
Addımların olar arvad yerişi, bacarsan arvadının əsiri olma.

(A. Qasım, “Həyata baxış”)

“El arasında varmış belə bir rəvayət, qulaq asın eyləyirəm nəhayət.
Bir kişi yaşayıb yoxsulmuş yaman, yoxsulluq əlindən edərmiş aman.
Oğlunun olarkən bir-iki yaşı, dünyadan getmişdir həyat yoldaşı.
Xeyli çətinliklə oğul böyütdü, əzaba qatlaşdı beli büküldü.
Oğlu yetkin yaşa yetişən zaman, kişi arzusuna yetişdi güman.
Oğlun nişanladı gözəl bir qıza, dualar etdi ki, gəlməsin gözə.
Oğluna toy edib gəlin gətirdi, atalıq borcunu gözəl eylədi.
O gündən sevinci aşıb daşırdı, elə bil yenidən cavanlaşırdı.
Xeyli vaxt keçərək gəlin gələndən, ata qocalaraq lap düşdü əldən.

Axır ata düşdü pis vəziyyətə, gəlin qatlaşmadı bu vəziyyətə.
Axır ki, zatını verdi büruzə, bir gün də gəldi əri ilə üz-üzə.
Dedi: "Bil bu evdə atan məni bezdiribdir, özü də yaman.
Sən onu bu evdən uzaq atmasan, bir daha məni görməyəcəksən."
Oğlan arvadından eşidib bu sözləri, titrədi əlləri, əsdi dizləri.
Dedi: "Bir fikirləş dediklərinə, həya eylə evdəki bildiklərinə.
Məni boya-başa çatdırıb atam, ona görə idi mən onu atam?
Onun zəhmətini itirsəm əgər, qismətim olmazmı qəm-qüssə kədər?"
Gəlin hikmətlərə üzü ağ güldü, utanmadan ərinə verdi hökmünü.
"Dedi yaxşı-yaxşı fikirləş oğlan, bu evdə mən qalım, yada ki, atan."
Oğlan üzdən aya olmuşdur düçar, çox fikrə gedərək qalaraq naçar.
Oğul ata otağına üzünü tutdu, atasının zəhmətin tez unutdurdu.
Gəlib durdu atasının yanında, qoca uzanmışdır öz yatağında.
Oğlan əhvalatı danışdı ona, yazıq heç inana bilmədi oğluna.
Bu sözləri deyər-deməz çarəsiz, susmaqdan savayı yoxmu çarəsi.
Həyətdə var imiş köhnə bir səbət, taleyinə yazılmış bu onun əlbət.
Oğlu atasını səbətə saldı, sonra isə qaldırıb çiyninə aldı.
Onlar üz qoydular meşəyə tərəf, yam-yaşıl göründü meşə hər tərəf.
Meşə kənarında varmış bir dərə, gəlib çatdılar ata-oğul o yerə.
Səbətdən qocanı o yerə qoydu, çox oğullar var ki, belə nankordur.
Oğlan geri dönüb qayıdan zaman, kövrələn atası, dedi; "Bir dayan.
Sənə deyiləsi sözüm var oğlum, ey mənim qanadım, ey mənim qolum.
Məni gətirdiyin bu səbət ki, var, bir gün gələr sənin də lazımın olar.
Bir vaxt sənin də oğlun olacaq, ona da bu səbət lazım olacaq.
Çünki bir vaxtlar bu səbətlə mən də, günah işləmişəm öz gəncliyimdə.
Uymuşam yalan sözə, fitnəyə, atamı atmışam mən də bu dərəyə."
Bu sözdən elə bil ayıldı oğlan, tutduğu əməldən oldu peşiman.
Atasını götürdü evə qayıtdı, sevgi-məhəbbəti qəlbindən atdı.
Atadır, anadır bizlərə pənah, onlara ağ olmaq günahdır-günah.
Onların qədrini bilməliyik biz, atadır, anadır hər şeydən əziz."

Tale yollarında valideynə qarşı durmamaq, onlara qarşı həmişə mərhəmətli və yumşaq davranmaq Allahın bizdən tələb etdiyi çox vacib xüsusiyyətlərdən biridir.

“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: “Uf” belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!”

(İsra surəsi, 23)

Uşaqlıqda tale yollarım

Tale yollarımın uşaqlıq illərində yeni bir dərdə düşdüm. Sol ayağım dizdən aşağı tərəfdən ayaq sümüyümü dəmir kəsərək ağır yaralandım. Bu uğursuz hadisə belə olmuşdur; Həyətimizin yan və aşağı tərəfindən o vaxtlar şəhərin içərisindən keçən "Bazar çayı"nın gur suyu axıb keçirdi.

Məhəllədəki çay yuxarı hər iki tərəfdən yol keçirdi. Həmin yol ilə yuxarıdakı kənd sakinləri həftənin bazar günlərində müxtəlif minik vasitələri ilə və özlərinə məxsus malları ilə şəhərdəki "Kolxoz bazarı"na tərəf gedib-gələrdilər.

Məhəllədə çay yuxarı və çay aşağı iki su dəyirmanları işləyirdi. Adamlar əkib-biçdikləri taxılını üyütmək üçün həmin dəyirmanlara üz tutardılar. Atam xeyirxah olduğundan haradansa iki ədəd uzun qələmə ağacından yonulmuş tir və şam ağacından kəsilmiş taxtaları maşınla gətirtdirdi.

Böyük qardaşım Firdovsinin köməyi ilə həyətimizin aşağı hissəsində çayın üstündən bir yaxşı körpü salındı. Məhəllə adamları çayı o tərəf bu tərəfə asanlıqla körpüdən keçməklə bu xeyirxah işə çox sevinmişlər.

Həmin illərdə tikinti avadanlıqları, xüsusən ağac məhsulları ilə kərpic tapılmadığından, adamlar ev tikərkən yalnız çiy kərpic, möhrə və qaraağac budaqlarından istifadə edərdilər. Onlar özləri üçün kiçik evlər tikər, üstünü isə qamışla örtərək saman palçıqla suvayardılar. (Bütün bunlar üçün müxtəlif işləri bacaran ustalar var idi).

Bir gün səhər durduq ki, körpüdən keçib və hər kəs öz işinin dalınca getsin. Lakin çay üzərində düzəltdiyimiz körpünün şam taxtaları sökülərək aparılmışdır.

Atam səhər çay üzərindən bir təhər keçərək işinə yollandı. Qardaşlarımla mən qonşulardan soruşaraq körpünün taxtalarını axtarmağa başladıq.

Hər şey Allahın hökmü ilədir və Ondan yaxa qurtarmaq mümkün deyil. Məhəllədəki Əzizbəyov küçəsində dar döngədə yaşayan Cabbar adlı Sovetabad kənd məktəbinin müəlliminin qapısına gəldikdə, arxadan bağlanmış kiçik küçə qapısının yanında körpünün taxtalarından biri düşüb yerdə qalmışdır...

Cabbar müəllimin belə naxələf olmasını bütün məhəllə adamları bildiyindən, ona "civə Cabbar" ləqəbini də vermişlər. Qapılarını döysək də açan olmadı və sonradan məlum oldu ki, həyətlərində tikdiyi kiçik otağın üstünü örtmək üçün bizim körpünün taxtalarından istifadə etmişdir.

Böyük qardaşım haradansa köhnə çəllək dəmirlərini gətirərək və körpü üstündən ara-ara tirlərə mismarladı ki, sonradan ara boşluqlarını da örtsün. Bu işdən heç bir həftə keçməmişdir ki, körpü üstündən keçərkən sol ayağım boşluğa girməklə üzü üstə yıxıldım.

Ucadan çığıraraq anamı köməyə çağırdım. Artıq sol ayağım dizdən aşağı küt dəmirə keçərək qan axmağa başladı. Anam özünü yetirərək məni qucağına alıb və deyinə-deyinə evimizə apardı.

Yaramın sağalması bir aydan artıq çəksə də, həmin yara yeri indi də ayağımda qalmışdır. Bu da mənim başıma gələn digər bir tale yazısıdır... (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Allah yaratmışdır bizi dünyada,
Onun hökmündədir bizdəki qayda.
Tale qoynundayıq ancaq, nə fayda,
Etibarsız, acgöz, qəribə dünya.

(A. Qasım, "Həyata baxış")

"Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir."

(Şuara surəsi, 80)

Xəbis insan gözündə “nəzər”

Uşaqlıq illərində mən yay aylarında təmiz hava almaq üçün pilləkənlə çıxıb evimizin üstündə yatardım. Dama çıxmaq üçün ağacdan düzəldilmiş köhnə bir nərdivanımız var idi. Adətim üzrə həmin nərdivanla əlimlə yapışmadan ayaq üstə qalxıb və enərdim.

Bir gün səhər qalxaraq, səliqə ilə yatağımı yığışdırıb və üstünü palaz ilə örtdüm. Adət üzrə nərdivanın pillələrini enməyə başlayanda, gözüm qonşuluğa təzə köçmüş yaşılgöz Əbülfəzə sataşdı. O, mənə xəbis gözlə baxdığından yuxarıdan üçüncü pillənin sınması nəticəsində yuxarıdan aşağıya üzü üstə yıxıldım.

*Həzrəti Məhəmməd (s) Peyğəmbər belə buyurmuşdur: **“Şübhə yoxdur ki, nəzər** (xəbis göz) **insanı qəbirə, dəvəni də qazana soxar.”** (bax; S. Haşim, “Peyğəmbərlərin həyatı”, cild 2 Bakı-2013).*

Qışqıraraq anamı köməyə çağırdım. Anam qaçaraq gəlib məni qucağına almaq istəyəndə boynumdakı və ayağımdakı ağrıdan ağlamağa başladım. Maraqlıdır ki, təzə qonşu mənə kömək etmək əvəzinə öz-özünə xoruz kimi qaqqıldayaraq gülməyə başladı.

Bədənimə dəyən xəsarətdən yaxa qurtarmaq üçün, düz bir ay yataqdan ayağa durmadım. Bu da mənim uşaqlıq çağlarındakı acılı tale yollarından biri kimi yaddaşımda iz saldı. Quranın “Yusif” surəsində xəbis gözlərin insana zərər vurmasından danışaraq, Həzrəti Yəqub (ə) peyğəmbərin uşaqlarının Misir şəhərinə ayrı-ayrı qapılardan girmələri bildirilir.

Rəhmətlik ata babam deyərdi ki; “Üç adamdan qəfil pislik gözləmək olar- yaşılgöz, kürənsaç və dişi seyrək.” Rəhmətlik atam isə belə deyərdi ki; “Üç adamdan uzaq olun, yaşıl göz adam, burnu “Hicran tütəyi” kimi əyri və yanı balalı arvad.”

> *“(Yaqub) dedi: “Oğlanlarım! (Misirə) eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun (sizə göz dəyməsin)... (Yusif surəsi, 67)*

Uşaqlıq illərinin şıltaqlığı

(Birinci inadkarlıq)

Uşaqlıq illərinin acı xatirələri və mənim şıltaqlığım üzündən tale yollarımda başıma gələn çətinlikləri də xatırlamağa dəyər.

İki dəfə məhəllə uşaqlarının yanında özümü inadkar tutmaqla özümü çətinliyə salmışam. Lakin Allahın tale yazısına görə ölümün girdabından qurtulmuşam...

Məhəllədə indiki "Qonaq evi"nin qapısı önündə eni on metrə çatan asfalt yol salırdılar. Yolun hər iki tərəfindən "Əlinin dəyirmanı"na su arxı üçün beton halqalar bir-birinə bitişmiş halda qoyulmuşdur. Su, arx ilə axaraq birinci halqadan aşağı tökülüb və yolun altı ilə axıb ikinci halqadan yuxarı qalxırdı.

Mən inadkarlıq edərək uşaqlara dedim ki; "Məni ikinci halqada su çıxan yerdə gözləyin." Dərhal üst paltarımı soyunub və su tökülən halqanın içərisinə tullandım. Su çox gəldiyindən və əvvəlcədən nəfəs aldığımdan, yolun altındakı halqalarla üzməyə başladım.

Tezliklə suyun güclü axını məni gətirib uşaqların gözlədiyi ikinci quyudan eşiyə çıxartdı. Uşaqlar qorxudan bu gözlənilməz "igidliyimi" görüb və bir anlığa dinmədilər. Sonradan özüm də bu işimə çox peşman oldum. Lakin nə etmək olar bütün bunlar tale yazısının hökmü ilədir... (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

> *"... Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz."*
>
> **(Loğman surəsi, 18)**

Uşaqlıq illərinin şıltaqlığı

İkinci inadkarlıq)

İsti yay aylarında məhəllə uşaqları ilə bərabər Sovetabad kəndindən yuxarı "Şıxmahmud meşəsi"nin yanındakı çox da böyük olmayan "Nəçənnik gölü"ndə çimməyə gedirdik. Eşitdik ki, göldəki su azaldığından gəlib "Əlinin dəyirmanı"na tökülən su arxındakı ağac kölgəsində oturduq.

Mən qürrələnib və uşaqlara belə dedim; "Kim bu su novundan suya girib və dəyirmanın donuzluğundan (su pərindən) keçməklə arx ilə üzüb gedə bilər?" Uşaqlardan səs çıxmadığını gördükdə üst paltarlarımı dərhal soyunaraq onlara verib dedim: "Məni gedin aşağıda dəyirman arxında gözləyin."

Su novuna girməklə güclü su axını məni aşağıda donuzluqdakı fırlanan su pərinin üstünə tulladı. Fırlanan su pərindən yapışsam da, başım yuxarıdakı dəyirman daşına dəydi. Su pərinin üstündə bir neçə dəfə fırlanaraq, gücümü toplayıb və özümü dəyirman arxına tulladım.

Aşağıda gözləyən dostlarım çətinliklə məni sudan çəkib çıxardılar. Bir həftədən artıq başımın ağrısından çətinlik çəkməli oldum. Bu da bir tale yazısının xəbərlərindən biri idi. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Allahı hər yerdə yada sal, oğlan,
O, böyük qüvvədir səni yaradan.
Həyatda doğru yol seçsən əgər sən,
Yolunu azmazsan olmazsan peşman.

(A. Qasım, "Həyata baxış")

"De: "Ey Rəbbim! Bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"

(Muminun surəsi, 118)

Uşaqlıq illərinin şıltaqlığı

(Üçüncü inadkarlıq)

Uşaqlıq illərinin acı tale yollarından biri də belə olmuşdur. Məhəlləmizdə əri müharibədən qayıtmayan Papılı adlı bir dul arvad var idi. Onun geniş həyətyanı sahəsində yonca kənarında isə uca iydə ağacları əkmişlər.

Biz yaz aylarında gedib yonca yığar və üzüm sirkəsinə batırıb yeyərdik. Payızda isə gedib yetişmiş iydələrdən yığıb yeyərdik. İydə ağacları çox uça olduğundan üstünə çıxa bilməsək də aşağıdan daşlayaraq tökülmüş iydələri yerdən yığırdıq.

Bir gün yenə də gedib iydə ağacına daş atmağa başladıq. Mənim atdığım daşlar həmişə yetişmiş iydələri yerə tökər və uşaqlar da sevincək yığardılar. Ağaca atılmış daşlardan biri necə olursa ağacın budağına ilişib qalmışdır.

Məhəllə uşaqlarından pinəçi Həsənalı kişinin Ədalət (Adan) adlı böyük oğlu da iydə yığan uşaqlar arasında idi. Bu zaman ağaca ilişmiş daş parçası Ədalətin tüksüz və yuxarısı enli formalı başına düşdü. O, çığıraraq əli ilə başından tutsa da axan qan üz-gözünə töküldü.

Anası Şəfiqə oğlunu aparıb xəstəxanada başını dərmanla sarıtdırdı. Bütün bu hadisədən sonra uşaqlar Adanın adına "kağız baş" dedilər. Bu da mənim taleyimin acılı günlərindən biri kimi yaddaşımda qalmışdır. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Nizam tərəziymiş, nizam qurğuymuş, pərsəngi atıb əydik dünyanı
Halallıqla tutulubmuş mayası, haram qata-qata əydik dünyanı.
Tamah güc eylədi susadıq qana, neçə yerdən yara vurduq cahana
Göydə Yaradana, yerdə insana, yalan sata-sata əydik dünyanı.
Vaxt olub bir kəlmə sən öz sözünə, elin ağsaqqalı qan barışdırıb
Babalar dünyadan köçəndən bəri, nəvələr çox şeyi ucuzlaşdırıb.

"Ey rəbbim! Məni bu zalım tayfanın əlindən qurtar!"- dedi."

(Qəsəs surəsi, 21)

Uşaqlıq illərinin şıltaqlığı

(Dördüncü inadkarlıq)

Uşaqlıq illərində məhəlləmizin yuxarı tərəfində traktorlar işləyərək təzə yol salırdılar. Mən uşaqlarla bərabər həmin yerə gedib və torpaq yığan traktorların işləməsinə tamaşa edirdik. Məhəllə uşaqlarından Savalan adlı birisi qaçaraq və gizlicə traktorun arxa tərəfinə qoşulmuş dişli çarxa minmək istədi. Mənim yanımda duran uşaqlar da getmək istədikdə mən qoymadım.

Arxadan traktora qoşulmuş dişli çarxa minən Savalan, çığıraraq və dişli çarxın altına düşdü. Mən traktorçuya əl elədim və o, dərhal arxaya baxıb traktoru saxladı. Traktorçu başından qan axan Savalanı dişli çarxın altından çıxarıb və qucağına aldı. Başından yaralanmış uşaq ağlayırdı.

Traktorçu yaralanmış Savalanı, biz ilə bərabər onların evlərinə gətirdi. Sürücü işləyən Bəşirəli kişi yaralı oğlunu xəstəxanaya apardı. Bundan sonra onun atası bütün bu işdən ötrü məni günahkar bilib və söyüşlə hədələdi. Məhəllə uşaqları mənim günahsız olmağıma tərəfimi saxlasalar da, yenə də mən təqsirkar bilindim. Uşaqlar Savalana xasiyyətdə anası Fatmaya oxşadığına görə, ona "fatı" ləqəbini verdilər.

Mən ona bu işdə günahım olmadığını dedim. O isə başını aşağı salaraq və mənə heç nə demədi. Bütün bunlar isə mənim tale yazıma görə olmalı idi. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Yaman pozulubdur mizan-tərəzi, halala min haram qatılır indi
İnsanlıq bir dəstə göyərti kimi, az qala bazarda satılır indi.
Yalan ayaq tutub yeriyir daha, yalan deyə-deyə bir-birimizə
Yalanla, kələklə baş saxlamışıq, yadlara can deyib, nəyə görəsə,
Dostları vurmağa daş saxlamışıq, sərvəti mənlikdən uca tutmuşuq,
Ay Allah, görən taleyimi kim qarğıyıbdır?, kim qarğıyıbdır?

"... Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər."

(Yusif surəsi, 87)

Mamasının gül balası

"Üç adamdan qəfil pislik gözləmək olar- yaşılgöz, kürənsaç və dişi seyrək."

(Hacı Məhəmməd Kərbəlayı Bağır oğlunun söyləməsi)

Məktəb illərinin altıncı sinfində oxuyurdum. Məktəbdə də məhəllə uşaqlarının yanında olduğu kimi az-çox şagird yoldaşlarım arasında da hörmət qazanmışdım. Məndə olan həvəs bəlkə də başqa uşaqlarda yox idi. Dərslərimi oxuyub öyrənməklə yanaşı, bədii kitab həvəskarı olaraq, məktəb kitabxanasına, Pionerlər evi, Səhiyyə Maarifi Evi və şəhərdəki Mərkəzi Kitabxanaya üzv yazılmışdım.

Məktəbimizin Pioner təşkilatçısı Günəş müəllimə, mənim haqqında Bakıda çıxan "Azərbaycan pioneri" qəzetində tərifli sözlər yazmışdır. Bütün bunlara məhəllə uşaqları sevinsə də, təkcə bir nəfər paxıllıq edərək kədərlənirdi. Həmin uşağın adı Rafiq- ərəbcə "xoşxasiyyət" olsa belə, onun bütün əməlləri bədxasiyyət idi. Kürənsaç və dişləri seyrək olan Rafiq, yaşda məndən kiçik olsa da heç vaxt başqa uşaqlar kimi gəlib bizə qoşulmazdı.

Məhəlləmizdə "Bazar çayı" üzərində iki su dəyirmanı var idi. Biri yuxarıda işləyən "Əlinin dəyirmanı" digəri isə aşağıda, yəni bizim həyətin yanında uçuq-sökük binası qalmış "Novruz dəyirmanı" adlanırdı. Həmin dəyirmana su bizim həyət arxından axıb tökülsə belə qapısı bağlı olaraq işləmirdi. Dəyirman keçmiş vaxtlarda Novruz adlı bir nəfərin olmuş, övladı olmadığından Əsgər adlı qohum uşağını oğulluğa götürmüşdür.

Əsgərin atası öldükdən sonra dülgərlik peşəsini öyrənərək və Zeynəb adlı qızla evlənmişdir. Onların da Novruz və Tofiq adlarında oğlan uşaqları olmuşdur. Oğlanların hər ikisi atasından dülgərlik sənətin öyrənərək və taxtadan qapı-pəncərə düzəldib çörək pulu qazanardılar. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Əvvəldə adını çəkdiyim Rafiq adlı bədxasiyyət oğlan uşağı Novruzun Bəyim adlı ikinci arvadından olan iki oğlundan biri idi. Onun ikinci arvaddan Namiq adlı ikinci oğlu da olmuşdur. Novruz uşaqlıqdan qulaqları ağır eşitdiyi üçün, əsgər getməmiş və ona məhəllədə "kar Novruz" ləqəbini vermişlər.

Novruzun birinci arvadı Leylidən də Əyyub adında oğlu olmuş. Arvad ərindən boşanaraq Əli adında liliput kino çayçısına ərə getmişdir. Əyyub uşaqlıqdan məktəbə getməyərək və atalığının yanında çay paylayan kimi fəaliyyət göstərmişdir...

Uşaq idim bir şiv kimi budaqda, ağacda böyüdüm budağa döndüm
Həyat izlərim var hər bir yarpaqda, tez qurudum, yandım külə döndüm.
Bu dünya hamıdan qisasın alır, bil ki, əliboş hamını o, yola salır
O, baxmır yoxsula, varlıya, şana, doğmayıq, ögeyik biz də cahana.

(A. Qasım, "Həyata baxış")

Əvvəldə dediyim kimi su arxı bizim həyətdən keçərək və köhnə və uçuq dəyirmanın su novu ilə Kar Novruzun həyətinə gedib və ordan isə digər qonşulara su axardı. Günlərin bir günü mən həyətimizdəki əkin yeri və ağacları suvarmaq üçün su arxı ilə yuxarı dəyirmana tərəf getməli oldum.

Yuxarıda arxın suyunu kim isə qəsdən açaraq və çaya tərəf buraxmışdır. Gedib açılmış yeri bağladıqda Rafiqin arxın başında oturduğunu gördüm. Onun kefini soruşduqda mənə tərs-tərs baxıb və əlində tutduğu taxtadan düzəldilmiş qranatı silkələdi. Çönüb üz aşağı həyətimizə tərəf gəlməyə başladım. Bu vaxt arxadan başıma ağır bir zərbə dəydi.

Çevrilib baxanda Rafiq əlindəki taxta qranatı ataraq qaçmağa başladı. Mən başıma dəyən ağır zərbədən yıxılaraq özümdən getdim. Ayılanda başım sarıqlı halda xəstəxana çarpayısı üzərində uzandığımı gördüm. Uşaqlar həmin hadisəni görərək anama xəbər vermiş və qonşuların köməyi ilə məni xəstəxanaya çatdırmışlar. Sonradan hadisə ilə əlaqədar şəhər Milis şöbəsinə yazılı surətdə bildirsək də, az yaşlı olduğundan heç bir hökm verilmədi...

Başım arxadan ağır zərbə aldığından uzun müddət baş ağrısı girdabına düşərək və taleyimin acı günlərini yaşamalı oldum. Rafiq hər dəfə məni uzaqdan görəndə qaçıb gizlənərdi. Qorxusundan oxuduğu məhəllə məktəbindən də çıxmalı oldu...

Sonrakı illərdə qayınatasının köməyi ilə hərbi hissədə kiçik vəzifədə işləyən savadsız haramzadə Rafiq, indiki "Doğum evi"nin yanındakı "Hərbi şəhərcik" deyilən sahədə özünə ev ilə dükan tikdirib və kirayə verməli oldu.

Arxanda vardır kömək, bacar Rafiq, kefini çək,
Qayınatan kömək olası, mamasının gül balası.
Dövlətimiz aşıb-daşır, sənə kef çəkmək yaraşır,
Hər şeyin vardır çarası, mamasının gül balası.

"İnsan (nə qədər varı olsa da, təbiəti etibarilə) xəsisdir."

(İsra surəsi, 100)

Halallığın haramla əvəz olması

Mənim həyatımın yeni bir ağrılı-acılı tale yazısı yaddaşımda belə qalmışdır. Nədənsə bu dünyada lənətə gəlmiş şeytanın dostları irəlidə gedir və halallığı sevən ziyalı möminlər isə geridə qalırlar.

Allah tərəfindən lənətlənmiş məlun İblis həmişə çalışır ki, insanları düz yolundan azdırsın və halallığı haramla əvəz etsin.

Başa ucalıqdır üzə ağlıqdır, ocağı bərəkət bardır halallıq
Əməli düzlərə, qəlbi düzlərə, əbədi sirdaşdır, yardır halallıq.
Nəfsi qalib olur, nədən bəndəyə, həmişə qarnını güdən bəndəyə,
Allahın yoluynan gedən bəndəyə, əbədi sirdaşdır, yardır halallıq.

1965-ci ilin avqust ayı idi. Eşitdim ki, Naxçıvanda Pedaqoji Məktəb açılmış və orada oxumaq üçün sənəd qəbuluna başlanıb. Mən lazım olan sənədləri hazırlayıb və qəbul komissiyasına verdim. (Məktəbin qəbul komissiyası müvəqqəti olaraq, 2 №-li orta məktəbdə yerləşirdi).

Qısa müddətdə qəbul imtahanlarına ciddi surətdə hazırlaşdım. Üç imtahandan ikisindən yaxşı və birindən isə kafi qiymət aldım. Son imtahandan bir gün sonra tələbələr heyətinə qəbul olma siyahısında adım yazılmamışdır. Bu işə narahat olub və evə gedərək atama əhvalatı dedim.

Atamla həmin Məktəbə gəldik və direktor Əhmədov Əsgər müəllim atamı yaxşı qarşılayıb və mənim otaqdan çıxmamı bildirdi. Qapının ardından onların danışıqlarına qulaq asanda, direktor atama bildir di ki, şəhər Partiya Komitəsinin siyahısına əsasən, tələbə heyətinə qəbul əmri verilmişdir. Məlum oldu ki, sənədlərin qəbulu zamanı kimlər rüşvət veriblərsə onlar da tələbə sırasına qəbul olmuşlar...

Ədalət meyardır hər bir ölkəyə, ədalət düz insanı qaldırar göyə
Ədalətli bir millət elmli olar, xalqını firavan, düz yola salar.
Ədalətsiz hakim, oturma taxtda, sənə deyəcəklər, bəxtə bax, bəxtə,
Ədalət olmayan bir məmləkətdə, oğru başda gəzər doğru ayaqda.

(A. Qasım, "Həyata baxış")

Qapı arxasından direktorun yenə səsi gəldi. O, atama dedi ki; "Abdulla Bağırov, narahat olma, indi telefonla zəng edib və oğlunun imtahanlardan aldığı qiymət sənədini verəcəyəm. Aparıb həmin məktəbə verərsiniz və orada da oxuyar."

Atam direktorla sağollaşaraq və əlində mənim sənədlərimlə otaqdan çıxdı. Biz gəldik Kənd Təsərrüfatı Texnikumuna və atamla birlikdə ikinci mərtəbədəki Roza Talıbova adlı direktorun otağına. Atam bildirdi ki, Əhmədov Əsgər müəllimin telefonla sizin məktəbə göndərdiyi uşaq mənim oğlumdur. Direktor imtahan sənədlərinə baxdıqdan sonra belə dedi; "Çox yaxşı, oğlunuz sentyabrın birindən texnikumda tələbələr sırasına qəbul olacaq."

Texnikumun orta məktəb bazasından ikinci kurs əyani şöbənin "Kənd təsərrüfatının planlaşdırması" fakültəsinə qəbul olaraq tələbə bileti aldım. Həmin ilin dekabr ayına kimi tələbə olsam belə, tezliklə icbari hərbi əsgər qulluğuna çağırıldım.

Ömrümü xərclədim vətən yolunda, nə qədər ki, güc var idi qolumda
Dərdimi deməyə bağlandım sözə, cürbəcür fitnəyə mən dözə-dözə.
Vətənimin gücü biləyimdədir, şadlığı, kədəri ürəyimdədir,
Vətənin yolunda candan keçərəm, dünyaya gələndən əməlimdədir.

(A. Qasım, "Həyata baxış")

"Allahdan Ə bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır."

(Fatir surəsi, 28)

Taleyimdə hərbi xidmət

Ulu Tanrım, tale yolum kəc gəlsə
Saf niyyətim İblis ilə öc gəlsə.
Bir anlığa nəfsim mənə güc gəlsə
Düz dünyama qaytar məni, bağışla.

(Səhlab Məmmədov)

*Dekabr ayının 5-də **"SSRİ Konstitusiyası günü"**ndə yaxın qohum və tələbə dostlarım, axşam Naxçıvan Dəmir yolu Vağzalından qatara mindirərək mənimlə vidalaşdılar. (Mən Naxçıvan hərbi komissarlığından 07/10 1965-ci il tarixli 230 №-li qərarla həqiqi hərbi xidmətə çağırılmışdım). Qatarda mənimlə bərabər Elman adlı bir oğlan da əsgər xidmətinə gedirdi...*

İki gündən sonra bizi Bakının "Biləcəri" dəmir yolu stansiyasındakı hərbi çağırış məntəqəsindən Moskva-Bakı qatarı ilə yola saldılar. Qatarda Azərbaycanın müxtəlif bölgələrindən olan həmyaşıd oğlanlarla tanış oldum. Qatar iki gündən sonra axşam üstü Moskvanın "Kiyevsk" dəmir yol vağzalına çatdı. Qatardan düşdük, bizi cərgəyə düzüb və yaxınlıqdakı Metro stansiyasına yendirdilər. Metrodakı qatara minib və yola düşdük.

Qatar hansısa bir stansiyada duraraq və bizi təcili surətdə metrodan şəhərə çıxartdılar. "Kalujsk" dəmir yolu vağzalından bizi Moskva-Kaluqa qatarına mindirdilər. Qatar axşam "Obninsk" dəmir yolu stansiyasında dayananda, bizi təcili olaraq yerə yendirdilər. Əsgəri yerişlə bizi şəhər kənarındakı hamama gətirib və orada çimib təmizləndikdən sonra əsgər paltarı ilə geyindirdilər.

Gecə yarısı gəlib şəhərin şimal hissəsində yerləşən hərbi hissəyə çatdıq. Burada böyük həyət, ətrafda isə üç beşmərtəbəli bina və həyətin bir tərəfində isə böyük klub binası var idi. Bizi beşmərtəbəli binalardan birinin beşinci mərtəbəsinə qaldırıb və oradakı əsgər yataqxanasında yerləşdirdilər...

Düşdüyüm hərbi hissənin əsgəri geyim formasından bəlli oldu ki, bizim alay Hərbi İnşaat Alayı imiş. Burada hər kəsin sənət və qabiliyyətinə görə ayrı-ayrı bölmələrə ayırıb və ciddi surətdə sanitar həkim yoxlamasından keçdik.

Məni hələlik bir aylığa mülki tikinti obyektlərində işləyən betonçu əsgər briqadasına saldılar. Briqadamızdakı köhnə əsgərlər olduğundan onlar milliyətcə Litov və Latış olsalar da hamısı Rus dilində danışırdı. Mən yeganə olaraq təzə əsgər və Qafqazdan getmiş Azərbaycanlı idim. Əsgərlikdə bizləri çox vaxt "çornıy bakineç" deyə çağırırdılar.

Bir aydan sonra yeni il ərəfəsində bizi Obninsk şəhərindəki 14114 №-li hərbi hissənin "Çornıy qryaz" adlı altıncı bölməsinə apardılar. Altıncı bölmə Kaluqa vilayətindəki Uqodskoy rayonunun Balabanova kəndindəki Tarutino çayının sol sahilindəki meşədə yerləşirdi. Həmin bölmədə mən rəssam kimi fəaliyyətə başlayaraq xoş günlər keçirməyə başladım. Bizə dövlət tərəfindən aylıq pul verilərək yemək, geyim və digər xidməti işlərə görə əmək haqqından pul tutulurdu.

1966-cı ilin sentyabr ayında xidmətim nəzərə alınaraq mən, on gün müddətində vətənə ezam olundum. Naxçıvana gələrək burada valideynlərimi sevindirib və tələbə dostlarımla görüşdüm. On gündən sonra hərbi xidmət üçün yenidən qayıtmalı oldum.

Hərbi xidmət dövründə dostlarıma siqaret almaları üçün məndəki artıq puldan verib və içki içməklə siqaret çəkməkdə onlara qoşulmurdum. Biz oradakı meşə içərisində və çay kənarında olan gözəl bir yerdə "Vostok" adlı sanatoriya binası tikintisində çalışırdıq.

Mən evdən apardığım "Zenit" markalı foto aparatla orada foto şəkillər çəkib, çıxarırdım. Bundan əlavə bazar günlərində rəsm albomuma oranın mənzərəli guşələrini tabloya çəkirdim. (Salkauskas adlı starşinamız, rəsm və çəkdiyim foto mənzərə şəkillərini foto lent ilə birlikdə götürüb məhv etmişdir. Bu işdə onun həmyerlisi serjant Zibilskas da ona kömək etmişdir).

Oradakı rota komandiri Anatoli Qriqoraşvilinin icazə kağızı ilə yaxındakı Balabanova kənd mağazasına gedərdim.

Bölmə kollektivi mənim hörmətimi saxlasa da, yalnız Litvalı olan və orada starşina rütbəsində işləyən Salkauskas familiyalı xəbis, məni görmək istəmirdi. ("Baltikyanı ölkədən olan Litva vətəndaşları Alman faşistləri kimi millətçidirlər"- Marşal S.M.Budyonnı). (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Komandir qərəzli olarsa əgər, təzə əsgərin başı bəlalar çəkər
İnsan əqidəsini dəyişən zaman, o insan deyil, şeytandır şeytan.
Millətçi komandir, xəbisdir yenə, fayda verməz əsgərinə, işinə,
Küllükdən sümük taparsa köpək, tezliklə küllüyə bir də dönəcək.
Əsgəri komandir hörmətdən salar, komandir alçalar, əsgər ucalar
Nə qədər xidmət etsən alayda, Allahı unutma, daim sal yada.

(A. Qasım, "Həyata baxış")

1967-ci ilin son günlərində xaçpərəstlərin ənənəvi "Pasxa" bayramı idi. Bazar günü millətçi starşina mənə cəza verərək və beşmərtəbəli binanın pillələrini yumaq əmrini vermişdir. Taleyimə acıyaraq fikirli halda beton pillələri yuyub təmizləyirdim. Üçüncü mərtəbənin balkonundan keçəndə bir anlığa gözlərim qaraldı və sol çiynim üstə aşağa yıxıldım.

Gözlərimi açanda otaqda əsgər yoldaşlarımın arasında idim. Sol çiynim bərk ağrıyırdı. Ertəsi günü məni Obninskdəki hissəmizə gətirib və oradakı sanitar şöbəsində həkim nəzarətinə verdilər. (Həkim müayinəsindən sonra məni maşınla Kaluqadakı xəstəxanalardan birinə gətirdilər).

Taleyin hökmü ilə xəstəxanada 42 gün qalmalı oldum. Sağalandan sonra, 15 iyun tarixdə hissəmizin feldşeri Gəncəli Nazim Ağayevlə bərabər yenidən hərbi hissəmizə qayıtdıq. Elə həmin gün ştab komandiri erməni A.Xandjanyan, möhürlənmiş zərfdə hərbi biletimi verərək və mənim əsgəri xidmətdən tərxis olunduğumu bildirdi.

Naxçıvana gəlib hərbi biletimi komissarlığa qeydiyyat üçün verəndə, biletimdəki yazılan "1967-ci il 01 iyun tarixli 55 №-li xəstəlik haqqındakı şəhadətnaməyə əsasən tərxis olub və ehtiyata göndərilir" sözlərinə görə komissarlığa ərizə ilə etiraz etdim ki, bəs onda mənim xəstəlik şəhadətnaməm haradadır?

Ərizəmlə əlaqədar olaraq Naxçıvan hərbi komissarlığı xüsusi hissənin rəisi mayor Nikolay Stulbanın adına Obninsk hərbi hissəsindən (ştab komandiri mayor A.Xandjanyanın imzası ilə) məktub gəlir. Məktubun tərcüməsi belə idi; ***"SSRİ Müdafiə Nazirliyinin Moskva hərbi dairəsinə məxsus Kaluqa vilayətinin Obninsk şəhərindəki 14114 №-li hərbi hissədə 1946-cı il təvəllüddə sıravi əsgər Bağırov Feyruz Abdulla oğlu xidmət etməmişdir."*** *(bax; F.Bağırov" Xatırlanan ömür" Naxçıvan-2014).*

Qəribədə olsa mənim bir neçə dəfə yazdığım etiraz şikayətimlə ciddi surətdə maraqlanan mayor Nikolay Stulba, sürdüyü qırmızı rəngli "Yava" markalı yedəkli şəxsi motosikletində yük maşını vasitəsilə öz yolu ilə işə gedərkən öldürülür.

Hərbi Komissarlığa bir neçə dəfə bu barədə şikayət etdikdən sonra nəhayət ki, Hərbi Komissar polkovnik Qasımov Muradəli Buryatəli oğlunun 1985-ci il 12 iyul tarixli imzası ilə mənə "hərbi xidmətə yararlı ehtiyat əsgər" sözləri yazılmış yeni hərbi bilet verirlər. Atalar demişkən; "Dəmiri nəm çürüdər, insanı da qəm." Lakin nə etmək olar bütün bunların hamısı, taleyin hökmü ilə Allah tərəfindəndir.

İtalyan memarı Leonardo da Vinçi demişdir ki; "Sizin səhvlərinizi aşkara çıxaran düşmən, onları ört-basdır edən dostdan daha xeyirxahdır."

Hər axan sudan çay ola bilməz, çayların mayası dağlardan gərək
Hər yığılan sudan göl ola bilməz, göllərin mayası çaylardan gərək.

Damcılar birləşib şırım salmasa, qayalardan axıb səs sala bilməz
Torpaqdan qüvvəsini alıb axmasa, içməli su kimi pak ola bilməz.

Vətən torpağına bağlıdır canım, vətənsiz cismimdə can ola bilməz
Damardan axan hər damla qanım, mayası olmasa qan ola bilməz.

(A. Qasım, "Həyata baxış")

"Məgər bəlli olmadımı ki, Biz onlardan əvvəl məskənlərində gəzib dolandıqları neçə-neçə nəsilləri məhv etdik? Həqiqətən, bunda ağıl sahibləri üçün ibrətlər vardır."

(Taha surəsi, 128)

Taleyimdə Texnikum tələbəsi

İl yarım əsgəri xidmətdən sonra oxuduğum Kənd Təsərrüfatı Texnikumunda təhsilimi davam etdirmək üçün ərizə ilə müraciət etdim. Lakin yenisi ilə əvəz olunmuş direktor, keçmiş tələbə yoldaşlarım təhsillərini bitirmiş və oxuduğum fakültə isə ləğv olmuşdur. (Bu da mənim həyatımda uğursuz tale yollarından biri idi).

Təhsilimi davam etdirmək üçün yeni yaranmış "Aqrokimya" fakültəsində oxumağı məsləhət gördülər. Bunun üçün əlavə olaraq kimya fənnindən imtahan verməli oldum. Kabinə müdiri Rayiq Hacılı mənim təhsil və ictimai işlərdə fəallığımı nəzərə alaraq və məni Texnikum Tələbə Həmkarlar Komitəsinə sədr seçdilər.

Bundan əlavə Texnikum Tələbə Klubu ilə Radio Qovşağını da mənə həvalə etdilər. Klubu qaydaya salaraq, Radio Qovşağındakı avadanlığı işə salıb və böyük tənəffüs zamanı tələblər üçün musiqi ilə xəbərləri səsləndirirdim.

Tələbə Klubunda dərsdən sonra Tələbə bədii özfəaliyyət dərnəyi yaradaraq, (rəhbəri musiqi müəllimi Nəriman Sadıqov idi) kənd zəhmətkeşləri qarşısında çıxışlara gedirdik. Buna görə də Şəhər Komsomol Komitəsi (katib E.Əliyev idi) və Həmkarlar İttifaqı tərəfindən (sədr R.Əliyev idi) ***Fəxri fərman*** *larla (1967) mükafatlandım.*

Məni Tiflis şəhərində keçirilən Kənd Təsərrüfatı fəalları Konfransına göndərdilər. Tiflis Kənd Təsərrüfatı İnstitutunda çıxış edərək, Naxçıvandakı kənd təsərrüfatının inkişafı və ixtisaslı kadrları hazırlayan Texnikum pedaqoji işçilərinin hazırlığından danışdım.

> *Çalış yaz gördüyünün düzünü, hörmətdən salma özün-özünü*
> *Gözləmə özünə kənardan kömək, savadlı, təmkinli olasan gərək.*
> *Düzü əyri, əyrini düz yazma gəl, vaxt gələr o, sənə olar bir əngəl*
> *Haram qatma qələminə, sözünə, daim dik bax insanların gözünə.*
>
> **(A. Qasım, "Həyata baxış")**

1970-ci ilin aprel ayında Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu "Aqrokimyaçı aqronom" ixtisası üzrə bitirib və işləmək üçün şəhərdə 1966-cı ildən yaradılmış Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan "Naxçıvan Zona Aqrokimya Stansiyası"na (Nax.ZAS) göndərildim.

Kənd təsərrüfatı üzrə Elmi idarənin qocaman müdirinə (direktoru İbrahim Mehdiyev idi) göndəriş kağızını vermək istədikdə, boş yer olmadığını bildirdi. (Tezliklə öyrəndim ki, mexanizator orta ixtisas təhsili olan Xaliq Bağırov adlı bir şəxs göndərildiyim boş yerə rüşvətlə işə götürülmüşdür).

Rüşvətxor əlinə keçəndə imkan, çox gec üzə çıxar axan nahaq qan
Xəyanət çoxalar hər zaman, hər an, canilər canisi rüşvətdir, rüşvət.
Sağlam bir igidi "əlil" eyləyir, diplom alır heç bir elmi bilməyir
Haqqı danar utanmadan, ölmədən, canilər canisi rüşvətdir, rüşvət.

(A. Qasım, "Həyata baxış")

Mən bundan ötrü narahat olub və "Şərq qapısı" qəzetində felyeton yazmaqla rüşvətxor müdiri xalqa tanıtmaq istədim. Tezliklə həmin müdiri başqası ilə əvəz etsələr belə, mənə o idarədə iş təklif edilmədi...

Sonradan mən bunları Texnikumun direktoru baytarlıq elmləri namizədi Cəlal Bağırova dedikdə o, gülərək və məni Texnikumdakı "Aqrokimya kabinəsi"nə baş laborant vəzifəsinə işə götürdü. (Mən Texnikumda işləyə-işləyə Moskvada da qiyabi təhsilimi davam etdirirdim).

"... Allahın əmri gəlib çatanadək sizi xam xəyallar, tamah aldatdı. Sizi Allah barəsində o (şeytan) tovladan tovladı. Bu gün artıq nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Məskəniniz cəhənnəmdir. O, sizə daha çox yaraşır. Ora necə də pis sığınacaqdır."

(Hədid surəsi, 14-15).

Rəssamlıq sənətinə həvəs

1970/71-ci dərs ilində məhəllə uşaqlarından Hüseyn, Savalan və Heyratla bərabər Bakıya getdik. Heyrat Bədən Tərbiyəsi İnstitutuna, Hüseyn Politexnik İnstitutuna və mənimlə Savalan isə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə imtahan komissiyasına sənədlərimizi verdik.

Qəbul imtahanlarından mən və Heyrat keçsək də, Hüseynlə Savalan kəsildilər. Sentyabrın ilk günləri idi oxuduğum Məktəbdə kurs rəhbərimiz qocaman müəllim Bağır Bağırzadə bildirdi ki, tələbələr əvvəlki yaşayış yerindən pasport, komsomol və həmkarlar üzrə qeydiyyatdan çıxmalıdırlar.

Kurs rəhbərimizdən icazə alıb Naxçıvana gəldim və qeydiyyatdan çıxaraq və Yenicə evləndiyim həyat yoldaşım Mehribanla bərabər Sumqayıta getdik ki, orada yaşamaq üçün ev kiralayaq.

Unuda bilmirəm ürəyimdəsən, gücümsən, qüvvəmsən, biləyimdəsən
İlk məhəbbətimdir ömür yoldaşım, həyat yollarında məslək sirdaşım.
Mənimlə rastlaşıb verdiyin salam, yenə də məndə yaratdı inam
Bütün günahların əməlindədir, məhəbbətin təkcə ürəyimdədir.

(A. Qasım, "Həyata baxış")

Ertəsi günü məktəbə gedəndə direktor (direktor Eyyub Hüseynov idi) məni otağına çağırtdırdı. Noraşen rayonunun Xok kəndində doğulmuş direktor mənə ciddi tərzdə; "Əvvəla mənim adım "Əyyub" yox, "Eyyub" dur. Bir həftə dərsə gəlmədiyin üçün tələbə sırasından azad olmuşsan" dedi.

Mən qeydiyyatdan çıxmaq üçün kurs rəhbərimizdən icazə ilə Naxçıvana getməyimi desəm də, xeyri olmadı. Direktor qətiyyətlə dedi ki; "Sənədləri geri götür və sonrakı ildə yenidən gələrsən imtahana." (Rüşvətxor direktor "Eyyub" Mədəniyyət Nazirliyində işləyən dostunun qızını mənim yerimə tələbə götürür).

Müdir axmaqlardan rüşvət alanda, məktəbi bürüyər hiylə, yalan da
Milləti əzaba, zülmə salan da, canilər canisi rüşvətdir, rüşvət.
Rüşvətlə örtülər ağır cinayət, vətənə, millətə olan xəyanət
Aqilə, savada verməyən qiymət, canilər canisi rüşvətdir, rüşvət.

(A. Qasım, "Həyata baxış")

Yoldaşımla Naxçıvana qayıtdıqdan sonra uğursuz taleyimə görə valideynlərim çox narahat oldular. Gətirdiyim sənədlər rus dilində yazıldığı üçün, poçt ilə Moskvadakı N.Krupskaya adına Qiyabi Xalq İncəsənət Universitetinə göndərdim.

Bir həftədən sonra Moskvadan mənə Universitetin "Təsviri incəsənət" fakültəsi ikinci kursuna qəbul olmaq haqqında tədris proqramı və təbrik məktubu gəldi. Allaha şükür edib və öz-özümə dedim ki; "Elə ağacı qurd içindən yeyər və sapı özümüzdən olan baltalar özümüzə qənim kəsilər." (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

1973-cü ildə oxuduğum Universitetin Rəssamlıq fakültəsini bitirərək ali təhsil diplomu aldım. Texnikumda yeni yaradılmış "Texniki vasitələr kabineti"ni də mənim ixtiyarıma verdilər. Kabinetdə tələbələrə tədris filmləri nümayiş etdirirdim.

Moskvadan aldığım Ali ixtisas sənədimi götürüb Naxçıvan Mədəniyyət Nazirliyinə (nazir Hüseyn İbrahimov idi) getdim. Nazirlə görüşüb və mədəniyyət sahəsində rəssam işləməyimi xahiş etdim. Nazir, sənədimi açıb yumaraq və kimin oğlu olmağımı soruşdu.

Atamın adını çəkib və əvvəllər işlədiyi yerləri ona dedikdə, nazirin üzü bədbinləşdi və hirslə mənə dedi: "Sənin atan otuzuncu illərdə komitetdə işləyəndə tutmadığı adam, yıxmadığı evlər qoymamışdır."

Bu sözdən mən çox kədərlənsəm də, dayana bilməyib dedim ki; "Axı mənim atam dindar olmuş və komitetdə pasport şöbəsində işləmişdir. Məgər o, camaata kimlik vəsiqəsi verəndə adam tutan olmuşdur?"

Dedi ki; "Onu get atan Xoklu Abdulladan soruş." Dedim ki; "Axı atam Naxçıvanlıdır. Atasının iki mərtəbəli evini söküb və yerində isə "Uşaq aləmi" mağazası tikmişlər. Xok kəndində də bizim heç bir qohum əqrəbamız yoxdur."

Nazir anladı ki, atamı kiminlə səhv salmış və əlləri əsə-əsə mənim sənədimi özümə qaytararaq dedi: "Oğul mədəniyyətdə sənin ixtisasına aid iş yoxdur, gedə bilərsən." Qapıdan çıxarkən bir anlığa ayaq saxlayıb və nazirə bu sözlərimi dedim: "Mən qapılarınız üzbəüz olan Kənd Təsərrüfatı Nazirliyinə gəlməmişəm. Gənc rəssam kimi mədəniyyət nazirliyinə gəlmişdim. Öz mədəniyyətinizi mənə tanıtdırdığınız üçün sağ olun."

Mədəniyyət naziri məni təbrik etmək əvəzində gör bir nələri söylədi. Bir anlığa fikirləşdim ki mədəniyyəti olmayan nadan və qəddar "yazıçını" gör hansı vəzifələrə irəli çəkmişlər.

Halına bax dünyanın, gör kimlərdi rəhbəri?
Kimlər məngirləməkdə ən gözəl mövqeləri!
Evdə öz namusunu qoruya bilməyənlər
Öz əhdi tək məni də bəlkə sındırmaq istər?

(N.Gəncəvi, "Sirlər xəzinəsi")

Qəribədir ki, taleyimin acı səhifələrindən biri də üstündən neçə illər keçdikdən sonra ixtisası jurnalist olan və heç bir yazı-pozu bilməyən Sarvan İbrahimov, atasının yerində Mədəniyyət naziri işləmişdir.

(O da atası kimi kinli və vətəni sevməyən ləyaqətsiz bir "insan" idi. İşlədiyim Elmi Metodik Mərkəzdə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən mənə veriləcək Fəxri adın əleyhinə çıxmışdır).

Ədalət axtardım gəzdim dolandım, yol tapa bilmədim yollarda qaldım
Təmiz idim şər dedilər adıma, aman Allah! Yetiş mənim dadıma.
Dünənki gədalar birdən ucaldı, başımın üstünü çən duman aldı
Böhtan dedi sevincimə, şadıma, aman Allah! Yetiş mənim dadıma.
Zorla məni öz işimdən qovdular, yeriməsə nadan birin qoydular
Yanan tapılmadı onun halına, aman Allah! Yetiş mənim dadıma.

(A. Qasım, "Həyata baxış")

1973-cü ildə Texnikumda işləyə-işləyə əlavə də, şəhər Pioner və Məktəblilər Evində (direktoru Nizami Həmzəyev idi) "Rəsm dərnəyi" üzrə müəllim işinə götürüldüm.

Həmin ildə Bakıda klassik Azərbaycan şairi İmadəddin Nəsiminin portreti müsabiqəsi məni də həvəsləndirdi. (Şairin portretini İlan dağın fonunda yağlı boya ilə (40 x 60 sm) çəkib, Pioner və Məktəblilər Evinə hədiyyə verdim).

Bu gecə yuxuma girdi şairlər, bu gecə yuxuma gəldi şairlər
Gəldilər bu yurdun başına dönüb, başına dolanan pərvanələri.
Xaqani, Nəsimi, Müşfiqlə qoşa, gəldi Hadi gəldi, Füzuli gəldi
Gözlərdə illərin qəmi, kədəri, hamısı taledən gileyli gəldi.
Dinib-danışdılar hamısı bir-bir, yanıb-alışdılar hamısı bir-bir
Bir azca yaxına gəldi Nəsimi, dayandı məğrurluq heykəli kimi.
Dedi ki, Hələbdən durub gəlmişəm, bu uzaq yolların damarlarını
Vüsal qılıncımla qırıb gəlmişəm, qürbətdə bu qədər yaşadım yetər.
Vətənsiz yaşamaq, elsiz yaşamaq Vallah, soyulmaqdan betərdir, betər
Mən də bu Vətənin oğluyam axı, yoxsa unudubdur məni Şamaxı?

(A.Yadigar, "Hər şeyin sonu var...")

1974-cü ildən şəhərdə Naxçıvan MR Rəssamlar Birliyi (sədri Məmməd Qasımov idi) yaradılır. Birliyin üzvü kimi dəfələrlə rəsm sərgilərində iştirak etmiş və sərgilərin kataloqları tarixi sənəd kimi saxlanılır. Rəssamlıqdan yaxşı qazanc gəliri olsa belə o işi tərgitməyi qərara aldım. Bütün bunların iki səbəbi olmuşdur ki, mənim naturadan çəkdiyim qadın tabloları, həyat yoldaşımın əlinə keçəndə o, bundan narahat olaraq mənə qısqanmış və onları həyətdə yandırmışdır.

Yaşlaşdıqca dinə bağlandığımdan, oxuyub öyrəndim ki, heykəl düzəldənlə adam rəsmi çəkənlər Qiyamətdə çətinliyə düşəcəklər. Bunlar da mənim taleyimin hökmü ilə olan Allah tərəfindəndir. Həzrəti ***Məhəmməd*** *(s) Peyğəmbər buyurur:* ***"Qiyamət günü insanların ən çox əzab çəkəni rəsm çəkənlə heykəl yapandır."*** *(bax; Müslim, "əl-Camius-Sahih", Kitabul-Libasi vaz-Zinəti, hədis № 2109).*

İslamda fanatiklər Həzrəti Peyğəmbərin (s) adından saxta hədislər yazmışlar. Bu cür saxta hədislər, fanatiklərin dünyasının nə qədər ürküdücü və soyuq olduğunu çox yaxşı göstərir. Allah Quranda müsəlmanlara hüznə qapılmağı qadağan etmişdir.

Həyatda hər şeyin tale əsasında gerçəkləşdiyi həqiqətlərini bilir və ölüm onun üçün son məqam deyil, Allaha və sonsuz həyata qovuşmaq anıdır. Allah Quranda iman edənlərə Cənnəti müjdələyir. (Bax; H. Yəhya, "Qaranlıq, təhlükə, xurafatçılıq" İstanbul-2015).

Allah Quranda saxtakar "din alimlərini" pisləyərək ayələrində "halalı haram buyuranları" tənqid edir.

“Dilinizin uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!” deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.”

(Nəhl surəsi, 116)

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da qoşa düşmərik.
Bir zərrənin işığında milyonlar şərik,
Dünya sənin, mənim, yoxsa heç kimin.
Gülüncləra gülünc gələn adıma güldüm,
Yüyəninə hər əl çatan bir ata güldüm,
Mən özümün taleyimdə yazıma güldüm,
Dünya sənin, mənim, yoxsa heç kimin.

(Məmməd Araz)

İnsan xislətində pis əməllərdən biri də yaltaqlıqdır. Allaha şükür ki, yaşımın bu ahıl vaxtınacan ömrüm boyu heç kəsə, hətta valideynlərimə belə yaltaqlıq etməmişəm. Sözü həmişə kəsən-kəs olaraq əyrini əyri və düzü isə düz kimi deyib lazım gəldikdə məsləhət də vermişəm.

Ataların belə bir sözü var ki; “Düz adam həmişə düzlərdə qalar” Bəlkə də belədir, lakin yazılmış taledən kənara çıxmaq mümkün deyil. Rəssamlıqla məşğul olan vaxtlarda rəhbər şəkillərini çəkməyi heç xoşlamazdım.

Adam da var ki, heç ona sifariş vermədən belə rəhbər işçilərin portretlərini fırçası ilə canlandırır ki, bəlkə o tabloya görə yuxarı vəzifələrə çəkilə. Hətta şairlər də var ki, qələminin iti ucunu rəhbər işçiləri tərifləyərək özlərini “gözə soxmaq” istəyərlər. Allahın Quran kitabında belə riyakar və yaltaq şairlər pislənilmişdir.

“(Müşrik və kafir) şairlərə gəlincə, onlara yalnız azğınlar uyar. Məgər görmürsən ki, onlar hər bir vadidə sərgərdan gəzib-dolaşırlar? Və onlar etmədikləri şeyləri deyirlər. (Onların tərifladikləri yaltaqlıq və yalandır).”

(Quran, Şairlər surəsi ayə 224-226))

“Sən saydığını say...”

1973-cü ildən Naxçıvanda Bakıdakı Pedaqoji İnstitutun Naxçıvan filialı yaradılır. Tarix müəllimi arzusunda olmaq üçün lazım olan sənədləri tələbə qəbul komissiyasına verdim. Həmin ərəfədə atam qara ciyər iltihabından ciddi xəstələnərək və xəstəxanaya düşür. (Atam mənə bildirmişdir ki, İnstitutda işləyən Ordubadlı Yavuz müəllim yazılı imtahandan mənə kömək edəcək). İlk imtahan “Azərbaycan dili və ədəbiyyatı” fənnindən yazılı inşa oldu. İmtahan suallarının biri Rus yazıçısı Maksim Qorkinin “Ana” romanındakı ana surətinin təhlili idi.

Özümlə apardığım yoxlanmış yazı surətini cibimdən çıxarıb və “ağartma” vərəqlərinə köçürdüm. Fikirləşdim ki, “əla” da olmasa “yaxşı” qiymət almalıyam. Atalar deyib ki; “Sən saydığını say, gör Fələk necə sayır.” Ertəsi gün qiymət alanlar siyahısında mənim adım olmadığından qəbul komissiyasına yazıma baxmağı tələb etdim. Yazı işimdə heç bir səhv olmadan, qırmızı qələmlə “qeyri kafi” sözü yazılmışdı.

Öyrəndim ki, yazı işlərini “yoxlayanlar” Məzrə kənd məktəbinin müəllimi Mədət Səfərov və Didivar kənd məktəbinin müəllimi İsrafil Şükürov olmuşlar. Ar olsun belə millət xainlərinə. Əhvalatı xəstə atama dedikdə narahat olub və təcili Yavuz müəllimin evinə getməyi bildirdi. Onun yaşadığı ev, şəhərin Sabir küçəsində 15 №- li mülk idi.

Həyətlərində Yavuz müəllimə gəlişimi bildirdikdə o, laqeydliklə dedi: “Ay oğul çoxda ki, atan Abdulla kişi ilə tanışam. Lakin sonradan ona dediyim haqqı gətirmədi axı...” Atamın xəstəxanada yatmağını ona dediyimə peşman olub və birbaşa evə qayıtdım. Üstündən uzun illər keçsə belə indi Yavuz müəllim və onun kimi rüşvətxor “alim-ziyalıları” görəndə nifrətimi gizlədə bilmirəm. Həmin il işlədiyim Kənd Təsərrüfatı Texnikumuna Moskvadan xüsusi yoxlama komissiyası gəlir. Yoxlama nəticəsində bir neçə Ali təhsilli mütəxəssisin təkmilləşmə pedaqoji kurslara getmələri bildirilir.

Texnikumdakı vakant yerdə işləmək üçün direktorun verdiyi sənəd ilə mən Naxçıvandakı Pedaqoji İnstitutda qiyabi oxumağa göndərildim. İmtahan verib və Ali məktəbin “Təbiət-coğrafiya” fakültəsinin qiyabi şöbəsinə qəbul oldum. (Mənə Texnikumda əlavə olaraq çöl tədris-təcrübə işləri aparılmasına da icazə verildi)...

İnstitutda oxuduğum illərdə iki dəfə haqsızlıqla qarşılaşmalı oldum. Üçüncü kursun axırında “Siyasi iqtisad” fənn müəllimi Akif Mədətov imtahanda mənə kafi qiymət vermək istədi. O, məni Xok kəndindən bir nəfərə oxşadaraq və “əlinə düşdüyü üçün” Ali məktəbdən çıxarmaq niyyətində idi. (Xoşbəxtlikdən eyni ixtisas müəllimi iqtisad elmləri namizədi Asif Şirəliyev məni yaxından tanıdığı üçün, məkrli müəllimin əlindən qurtardı).

Dördüncü kursda isə qış imtahan sessiyasının son günləri idi. "SSRİ-nin fiziki coğrafiyası" fənn müəllimi coğrafiya elmləri namizədi Səfaralı Babayev və "Xarici ölkələrin iqtisadi coğrafiyası" fənn müəllimi Əqil Yusifzadə, tələbələrə belə bir söz dedilər; "Hər kəs sabahkı imtahana bir xəritə çəkib gətirərsə, həmin tələbə məqbul qiymət ala bilər."

Lakin sevimli müəllimlər ertəsi günü imtahanda tələbələri çətin vəziyyətə salmaq üçün vədlərinə xilaf çıxdılar. Kurs nümayəndəsi Ədalət Mollayev sabahkı imtahan üçün müəllimlərə rüşvət yığanda, həmişəki kimi mən imtina etdim. (Seyid cəddinə arxayın olduğu kimi mən də, qabiliyyətimə arxayın idim). Həmin axşam yatmayıb və sübhədək "Avrasiyanın fiziki xəritəsi"ni ağ kağız üzərinə çəkib rənglədim. Çəkdiyim xəritəni imtahana aparanda tələbə yoldaşlarımın xoşuna gəldi.

Familiyam əlifba sırası ilə əvvəldə olduğundan həmişəki kimi imtahana birinci çağırıldım. Müəllimlərimə salam verərək və çəkdiyim xəritəni açıb onlara göstərdim. İmtahan biletindəki suallar asan olduğundan cavab vermək istədikdə, Əqil müəllim xəritəmə sağ ol demək əvəzində məni çaşdırmaq istədi. Vəziyyətdən çıxmaq üçün dedim ki; "Dediyiniz sözə görə xəritə çəkib və gecəni yatmamışam." Əqil müəllim üz-gözünü turşudaraq dedi: "Yaxşı olardı ki, pul ilə xəritə çəkdirincə, gecəni imtahana hazırlaşardın."

Ağsaqqal müəllimin tənəsinə sakitcə belə cavab verməli oldum: "Xəritəni özüm çəkib rəngləmişəm, çünki mənim buna qabiliyyətim çatır." (Tələbə yoldaşlarım sözümü təsdiqlədikdən sonra, məcburiyyət üzündən mənə "kafi" qiymət yazıldı). Bütün bunlar mənim həyatımın acılı tale yolları kimi yaddaşımda qalmışdır. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Qara bir ləkədir rüşvət müəllimə, böyük bir bəladır tədris elminə
Müəllim vicdanı ləkəsiz gərək, ləkəli vicdandan gözləmə kömək.
Böyük bir cinayətdir elmə xəyanət, rüşvətxor insanda olmaz dəyanət
Elmsiz, zay gənclər çoxlu sayda, onlar cəmiyyətə verməz bir fayda.

(A. Qasım, "Həyata baxış")

"Biz onların hər birini öz günahları ilə yaxaladıq. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər."

(Ənkəbut surəsi, 40)

Taleyimdə sinkoqraf ustası

1974-cü ildə Muxtar Respublikanın 50 illik yubileyində Naxçıvandakı "Şərq qapısı" qəzet mətbəəsi yeni binaya köçürüldü. Həmin tikili, keçmişdən qalma Naxçıvan xanının buradakı yaşayan xaçpərəst əhaliyə tikdirdiyi möhtəşəm bir kilsə binası idi. Əvvəllər bu binadan "Spartak" idman Cəmiyyəti, (sədri Sultan Qədimov idi) özləri üçün sığınacaq taparaq və böyük həyət sahəsində isə idman oyunları keçirmək üçün meydançalar düzəltmişlər. Burada tez-tez maraqlı idman yarışları da keçirilərdi.

Kilsə binasına xaricdən gətirilmiş mətbəə maşın-avadanlığı quraşdırılaraq və burada iri formatda və iki dildə (rusca-azərbaycanca) qəzet nəşr olunmağa başlanıldı. O vaxt "Şərq qapısı" qəzetinin redaktoru Rəşid Qazıbəyov və təzə mətbəənin də müdiri Əkbər Bağırov idi. (Mətbəə müdiri mənim böyük qardaşım və uzun illər mətbəədə çap ustası işləyən Firdovsi Bağırovun böyük oğlu idi).

Naxçıvan Mətbəəsindən 8 iyul 1974-cü il tarixdə məni Bakı şəhərinə bir aylıq kursa göndərdilər. Mən kursda foto şəkilləri sink lövhələrə yeni üslubda köçürülməsini nəzəri və praktiki formada öyrənməli idim. Bakıda lazım olan sənədləri Azərbaycan Nəşriyyat və Poliqrafiya İdarəsinə verdikdən sonra, məni şəhərin mərkəzində "Univermağın" yanındakı "26 Bakı komissarı" adına Mətbəədə şagird kimi işə götürdülər.

Mən yaxınlıqdakı "Naxçıvan" adlı ikimərtəbəli mehmanxanada qalmalı oldum. Mehmanxana və gündəlik xərclər öz hesabıma idi. Hər gün Mətbəəyə gedib və oradakı Sinkoqrafiya sexindəki işgüzar insanlarla bir yerdə olurdum. Mətbəədə baş usta Əzizov Oruc və laboratoriya texniki Kiselyova Yuranın qayğısı ilə mənə hörmət göstərirdilər.

Buradakı aparatlar böyük və "horizontal" formada idi. (Naxçıvan mətbəəsindəki cəmisi bir kiçik "şaquli" formada sinkoqrafiya aparatı var idi). Mənə (Rus dilində) lazım olan 2 kitab verdilər. Həmin kitablar; 1) "Технологические инструкции по фото-цинкографическим процессам." "Книга" Москва-1970. 2) "Каталог химических реактивов и высокочистых химических веществ." "Химия" Москва-1971.

Mətbəədəki fotoqrafiya sexində işləyən Dadaşov Rza (baş usta), Babayev Hüseynbala (foto ustası) və Ağayev Niyaz (foto texniki) mənə sexdəki üç yerdə qoyulmuş böyük fotokamera ilə işləmək qaydalarını öyrətdilər.

Mətbəədəki köçürmə sexində də işləyən işçilər mənimlə qayğı ilə mədəni rəftar edirdilər. Onlar, Məmmədova Roza (sex rəisi), Qorşkova Maşa və Zmenko Olya (köçürmə ustası), Əliyev Ramiz və Traniçina Maşa (travilşik) idilər. Bu sexdə sex rəisi mənə (Rus dilində) belə bir kitab da vermişdi; А.И.Геодаков, "Производство клише" "Книга" Москва-1972.

Bakıda qalarkən Naxçıvanla əlaqəni şəhər telefonları ilə saxlayıb və işlərin yaxşı getməsini Naxçıvan Mətbəəsinə bildirirdim. Mən bir ay müddətində şəkillərin foto plyonkalara çəkilməsi, kimyəvi dərmanlarla yuyulması və sink üzərinə köçürülməsi texnologiyası işlərini yaxşı öyrəndim. Sinkoqrafiya işlərini yaxşı öyrəndiyim üçün, mənə sənəd verib və Naxçıvana göndərdilər. Gətirdiyim sənədi mətbəə müdirinə verdikdən sonra, sinkoqrafiya ustası erməni Aşot Markaryana köməkçi vəzifəsinə işə götürüldüm.

Bakıdan gətirdiyim kitabları sexdəki stolumun üstünə qoymuşdum. İlk gündən Aşotun məndən xoşu gəlmədiyi üçün və məni aparata yaxın qoymurdu. Mən bundan çox narahatçılıq çəkirdim. Bir gün sexə gələndə oradakı foto laboratoriyada iki nəfərin ermənicə danışdığını eşitdim. Qapını azacıq açan Aşot, mənə Redaksiyadan foto şəkilləri gətirməyi dedi.

Mən əlimdə foto şəkillər gələrkən, sexdən erməni fotoqrafı Sergey Torosyanın qoltuğunda bükülü nə isə apardığını gördüm. Sexə girəndə Aşot əlindəki foto aparatla hara isə tələsdiyini və bu gün mən sərbəst olaraq foto şəkilləri sink lövhəyə köçürməyimi bildirdi. Mən bu işə sevinsəm də, nə qədər elədimsə sinkdə izlər görünmədi.

Gəldim ki, stolumun üstündəki kitablara baxam və təzə məhlul hazırlayam. Lakin kitablar yoxa çıxdığından və bütün bunların mənə qarşı erməni hiyləsi olduğunu anladım. Gedib əhvalatı Mətbəə müdiri Əkbərə bildirdim ki, erməni ilə mən bir yerdə işləyə bilmərəm.

Həmin illərdə az millət olan ermənilər işdən çıxarmaq mümkün deyildi. Bu millətin nümayəndələri bütün idarə və müəssisələrdə işləyərək (Moskvadakı nümayəndələri Anastas Mikoyana görə) və özlərindən razı idilər. Kitablarımı Aşota başa sala bilmədim ki, kim götürmüş ola. Mülahizə etdim ki, kitabları Aşotun dostu fotoqraf Serqey Torosyan aparıb. Tezliklə, ərizə ilə sinkoqrafiya sexindən işdən azad olundum. Atalar demişkən: "İt də getdi, ip də getdi." Erməni dığasına görə öyrəndiyim sənət nağıla çevrilərək yaddaşımda qaldı. Bu da tale yazımın kədərli hadisələrindən biri idi.

Vətənini ürəyində sevməyən, öz ana dilini təmiz bilməyən,
Əməlindən utanmayan, ölməyən, aramızda şərəfsizlər görmüşəm.

(A. Qasım, "Həyata baxış")

"Biz batili haqqla rədd edərik və o, batili yox edər. Batil də dərhal heç olar."

(Ənbiya surəsi, 18)

Texnikum kəndə köçürülür...

1979-cu ilin oktyabr ayında işlədiyim Kənd Təsərrüfatı Texnikumu yenicə yaradılmış Babək (keçmiş Naxçıvan) rayonundakı Şıxmahmud kənd orta məktəbinə köçürüldü. Texnikumun adında dəyişiklik edilərək və N.Rəfiyev adına Sovxoz-Texnikum olur.

Məktəbin bir hissəsini bizim Texnikuma versələr də ora gedib gəlmək işi xüsusi avtobus marşrutu ilə olur. Mən "Zaporejeç" maşınımı satandan sonra özümə "Moskviç-412" markalı maşın aldım. Məktəbin qapıdan içəri girəcəyində sağ tərəfdə mənim otağım var idi. Orada mənə Texnikumda rəssamlıq işlərinin görülməsi həvalə edilmişdir.

Kənd Təsərrüfatı Texnikumu Naxçıvanda ilk tarixi məktəblərdən biri olmuşdur. 1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığının dekreti ilə Naxçıvanda Təsərrüfat Məktəbi (direktoru Neman Əfəndizadə (Əmişbəy) (1899-1952) idi) yaradılmışdır. Məktəbdə iki ixtisas üzrə əyani və qiyabi şöbələrdə "Əkinçi-aqronom" və "Heyvandar-zootexnik" tələbə oxuyaraq, kənd təsərrüfatı işlərində mütəxəssis kimi işə göndərilirdilər. (bax; F.Bağırov, "Tarixin yaddaşı" Bakı-2009).

*Sovxoz-Texnikumun təsərrüfat kollektivi dəfələrlə Dövlət öhdəliklərini yerinə yetirməklə **"Keçici Qırmızı bayraq"** almışdır. Təsərrüfatın baş çobanı Əhməd Mustafayevi Ali Sovetə deputat seçmişlər. Çoban Balabəy Abdullayev isə **"Əməkdar heyvandar"** adı almaqla "Volqa" (QAZ-31) markalı minik maşını ilə mükafatlanmışdır.*

Naxçıvan şəhərində texnikumun pedaqoji kollektivi üçün 50 mənzilli 5 mərtəbəli yaşayış binası tikilərək istifadəyə verildi. Sovxoz-Texnikumda ictimai işlərdə fərqləndiyimə görə, iki dəfə məni Kommunist sıralarına (katib Mirəhməd Seyidov idi) keçirmək istəmişlər...

1979-cu ilin son aylarında Texnikumun pedaqoji kollektivindən bir neçəsi, imtahanlarda tələbələrdən rüşvət aldıqları üçün Prokurorluğa (prokuror Məmməd Rzayev idi) cəlb olundular. Texnikumda bu barədə əvvəl bağlı və sonra isə açıq Xalq məhkəməsi oldu. Məhkəmənin qərarı ilə müəllimlərdən bir neçəsi işdən çıxarılaraq, azadlıqdan məhkum oldular.

Bundan sonra texnikumda ciddi əmək intizamı yaradılsa da, kollektiv Muxtar respublikada öz əvvəlki hörmətini itirdi. Ali məktəbin axırıncı kursunda oxuyanda mənə ixtisas üzrə işləməyimi bildirdilər. Texnikumda ixtisasım üzrə işləmək istərkən, göndərişlə Noraşen rayonu Yaycı kəndindən aqronom Eminov Mirələkbər adında "əmək qabaqcılı"nı tələbə yataqxanasında qalmaqla müəllim işinə götürürlər. (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Mən oxuduğum İnstitutda axırıncı kursda olduğum üçün və ixtisas üzrə Texnikumda işləyə bilmədiyimdən, məcbur qalıb və ərizə ilə işdən çıxdım.

Dünyada haqsızlığı anlayırıq, gedən nəsilləri yada salırıq?
Təkrar itkilər olmasın daha, sizi and verirəm o, bir Allaha.
Fikirləşin! Ey vəzifə tutanlar, olmasın yalan, rüşvət, talanlar
Xalqın taleyin düşünün daha, sizi and verirəm o, bir Allaha.

(A.Qasım, "Həyata baxış")

"Gerçəkdən də, onlar yolunu azmış bir qövmdürlər."

(Nəml surəsi, 12)

Riyakar qəzet redaktoru

Bir gün təsadüfən Texnikuma gəlmiş bir nəfəri yol üstü şəhərə tərəf aparmalı oldum. Bu şəxs Babək rayonunda yenicə nəşr olunacaq "Əmək bayrağı" qəzetinin redaktoru (redaktor Mirsaleh Seyidov idi) idi. Onunla tanış olduqdan sonra mənə təklif etdi ki, texnikumda işləməklə yanaşı qəzetdə də foto müxbir işləyim.

Qəzetdə foto müxbir işində işlərkən maşınımla gedib rayondakı əmək qabaqcıllarının şəkillərini çəkib və redaktor müavininə verirdim. Bizə Naxçıvan şəhərindəki "Şərq qapısı" qəzeti redaksiyasının bir tərəfində üç otaq verilmişdir. Bizim redaksiyanın işçiləri cəmisi yeddi nəfər idi. Onlar mənim maşınımdan demək olar ki, hər gün istifadə edirdilər. İşçilərə həvalə olunmuşdur ki, hər gün (məndən başqa) bir nəfər günorta saat 2-dən 4-ə kimi otaqdakı radio qəbuledicidən Bakıdan verilən rayon qəzetləri üçün xəbərləri yazıb götürsün.

İşçilərdən Əbülfəz Dünyamalıyev qiyabi oxuduğu üçün bir gün işə gəlməmişdi. Redaktor Muxtar Qasımov adlı işçiyə radiodan xəbərləri yazmağı tapşırır. O da hara isə gedəcəyini mənə deyib və onun yerinə həmin işi görməyimi bildirdi. Mən bu işə könülsüz olduğum üçün radiodan xəbərləri yaxşı yaza bilmədim.

Ertəsi günü işə gedərkən, redaktor məni yanına çağırıb və hirslə dedi: "İki yerdə işlədiyin üçün bu gündən işdən azad olunursan, al bu da əmrin surəti." Dedim: "Ağa" (redaktor seyid olduğundan ona "ağa" deyirdik) axı sən özün məni bura gətirəndə dedin ki; "mən yalnız foto şəkillər çəkib redaksiyaya verəcəyəm." Redaktor yenə də qeyzlənərək əlavə etdi: "Redaksiyaya sürücü ilə foto müxbir işinə təzə adamlar götürmüşəm və sən də bu gündən işdən azadsan."

Ordubadlı "Ağa" foto müxbir yerinə Əsgərov Məmmədağa adında, sürücülüyə isə Həsənov Qənbər adında təzə işçiləri götürmüş. Gündə maşınımda hər yerə gedən qonşum Muxtar, riyakarlıq edərək həqiqəti söyləmədi. (Sonradan öyrəndim ki, "Ağa", əvvəllər öz valideynlərinə ağ olaraq və əslini dananlardan olmuşdur).

Ot bitər kök üstə, deyib atalar, əslini danandan hörmət gözləmə.
Üzdə gülüb dalda quyu qazandan, yaxşılıq gözləmə, ülfət gözləmə.
Uduzsan da aqillərlə dolan, gəz, nadana söz deyib qiymət gözləmə.

"Məgər sən bilmirsənmi ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!"

(Bəqərə surəsi, 107)

Taleyimdə “mədəni həyat”

1964-cü ildən mədəniyyət yollarında əmək fəaliyyətində yorulmadan addımlayıram. İlk mədəni həyat yolum, şəhərdəki S.Kirov adına kinoteatrda kinomexanik və tərtibatçı rəssam köməkçisi olmuşdur. Taleyimdəki ”mədəni həyat”ım keçən əsrin səksəninci illərində nisbətən uğurlu olmuşdur.

1980-ci ilin əvvəlindən Mədəniyyət Nazirliyinin Xalq yaradıcılığı Evi ilə nazirlikdəki Metodiki Kabinə birləşərək və onların bazası əsasında Muxtar respublika Elmi Metodik Mərkəz (direktor S.Qibləliyeva idi) yaradılır.

Mədəniyyət nazirliyinin (nazir Rəşid Qazıbəyov idi) əmri ilə məni Elmi Metodik Mərkəzdə kino-foto metodisti işinə götürürlər. Bundan əlavə ictimai əsaslarla mənə şəhərdəki 1 № li Mədəniyyət evində (direktor Əli Nəbiyev idi) “Gənclik” həvəskar Kino studiyasına rəhbərlik işləri həvalə edilir. (Orada bir neçə sənədli film çəkib hazırlamışdım).

*Şəxsi arxivimdə saxladığım sənədli filmlər bunlardır; “**Mahnı bayramı**” (FB-film studiyası-1981, rəngli), “**Naxçıvan toyu**” (FB-film studiyası-1982, ağ-qara), **“Bizim mədəniyyət evində”** (FB-film studiyası-1982, ağ-qara), **“Yaz lövhələri”** (FB-film studiyası-1982, rəngli), **“Qış etüdləri”** (FB-film studiyası-1982, rəngli).*

*1982-ci ildə Bakıda keçirilən Respublika həvəskar Kino studiyaları müsabiqəsində **“Naxçıvan toyu”** adlı filmə görə Azərbaycan Mədəniyyət Nazirliyi və Respublika Kinematoqrafçılar ittifaqı (münsiflər heyəti) tərəfindən **Fəxri Diplom** aldım. (bax; F.Bağırov, “Xatırlanan ömür” Naxçıvan-2014).*

*1982-ci ildə Azərbaycan KP MK-nın birinci Katibi **Heydər Əliyev** Naxçıvana gələndə xronikal foto şəkillərin çəkiliş işləri mənə tapşırılmışdı. Şair-dramaturq H.Cavid və hərbiçi C.Naxçıvanskinin ev-muzeylərinin açılışı foto şəkillərini çəkərək və hər iki muzeyə hədiyə etmişdim.*

Hüseyn Cavidin sümük qalıqlarının uzaq Sibirdən Naxçıvana gətirilmə tədbirində iştirak edərək və çəkdiyim 500 ədəd foto şəkil dəstini (neqativlə birlikdə) Naxçıvan Vilayət Komitəsinin ikinci Katibi Həmid Cəfərov və Mərhumun qızı Turan xanıma hədiyyə etmişəm. (bax; F.Bağırov, “Nuh yurduna ziyarət” Bakı-2008).

*Maraqlıdır ki, Sovet hakimiyyəti dövründə **H.Əliyev**, iki dəfə Naxçıvana səfər etmiş və ikisində də mən sənədli reportaj foto şəkillərin çəkilməsində iştirak etmişəm. Həmin foto şəkillər dəstini Naxçıvan Vilayət Partiya Komitəsinə, Mədəniyyət Nazirliyinə, Daxili işlər Nazirliyinə, Təhlükəsizlik Komitəsinə, Naxçıvan Dövlət İnstitutuna, bir neçə orta ümumtəhsil məktəblərinə hədiyyə vermişəm.*

1987-ci ildə yenidən Mədəniyyət üzrə Elmi Metodik Mərkəzə (direktor Məmməd Musayev idi) tərtibatçı rəssam işinə götürüldüm. Bu vaxt Mədəniyyət naziri mədəniyyətdən xəbəri olmayan riyaziyyat təhsilli və əvvəllər Culfa rayonunda katib işləmiş Fəttah Heydərov idi.

Məni xüsusi teleqrama ilə Moskvaya, SSRİ Mədəniyyət Nazirliyi Elmi Metodik Mərkəzə dəvət etmişlər. Moskvada noyabrın 13-dən 17-dək keçiriləcək SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə baxış keçiriləcəkdir. (Mən gənc kino operator kimi, həmin sərgidə iştirak etmək və orada "Naxçıvan toyu" adlı sənədli filmimi nümayiş etdirmək istəyirdilər. Təzə qoyulmuş nazir, mənim adıma gəlmiş çağırışı gizlədərək və buna heç də sevinməmişdir).

15 noyabr tarixdə məni otağına çağıran nazir, teleqramı mənə göstərib və yadından çıxdığını bildirdi. Həmin gün nazirliyin əmri əsasında Moskvaya yola çıxmağa hazırlaşdım. Qonşum Tofiq də mənimlə bərabər yol gedib və Moskva yaxınlığındakı Zaqorsk şəhərində yaşayan oğlu Tahiri görmək arzusunda oldu.

Elə həmin gün hər ikimiz Naxçıvandan çıxaraq və İrəvan şəhərinə getdik. Qonşumun sözü ilə Naxçıvandan bir böyük "sazan" balığı da alıb apardıq. İrəvan Təyyarə Limanında kassalardan birinə yaxınlaşan Tofiq, torbadakı balığı kassirə verib və Moskva təyyarəsinə iki bilet aldı.

Təyyarə ilə uçaraq və bir saatdan sonra Moskvada olduq. Taksi ilə gəlib Moskvadakı Ümumittifaq Xalq Yaradıcılığı üzrə Elmi Metodik Mərkəzdə olduq. Mənə verilmiş əmr ilə teleqramı onlara göstərdim. Özümlə apardığım "Naxçıvan toyu" filmin surəti ilə səs yazılmış lenti də onlara verdim.

Həmin idarədən çağırılmış tədbirə yubanmağı desələr də, mənə Sərgi iştirakçılarına "Qızıl sünbül" (rusca "Zolotoy kolos") Mehmanxanasında qalmaq üçün 120319 №-li yol kağızı (putevka) verdilər. (Sabahısı Bazar günü olduğundan mənim qayıtma sənədlərimi möhürlə təsdiq edərək özümə qaytardılar).

Mehmanxanada boş yer olmadığından, Tofiq qonşum məni özü ilə qatara mindirib və Zaqorsk şəhərindəki oğlunun evinə apardı. İki gün orada qaldıqdan sonra, sağollaşaraq və qatarla Bakıya qayıtmalı oldum.

Bakıda gedib bir gün də böyük qardaşım Firdovsinin evində qaldım. Moskvadan alıb gətirdiyim şirniyyat ilə qardaşım arvadı Məhbubənin dəmlədiyi çaydan içərək, Moskvaya getməyimdən söhbət saldım. (Bakı şəhərinin görməli yerlərini çıxıb gəzdik, özümlə apardığım foto kamera ilə birlikdə xatirə foto şəkillər çəkdim).

Moskvadan Naxçıvan MSSR Mədəniyyət Nazirliyinə gəlmiş təbrik teleqramına görə, "Naxçıvan toyu" adlı sənədli folklor filmim, Mərkəzi televiziyanın 2-ci kanalında nümayiş olunmuşdur. (Təbrik teleqramının xəbərini sonradan nazirliyin sürücüsü Mehdi, mənə xəbər vermişdir).

Bu da mənim taleyimin keçmiş günlərindən biri olsa belə, hərdən yadıma salanda deyirəm ki, "Millətin qabiliyyət həvəsli oğullarını, nədənsə "sapı özümüzdən olan" baltalarla doğrayaraq məhv edirlər. Məgər insanlıq budurmu?"

> *Çox görmüşəm qudurmuş harınları, bir anda məhv olub malı, canları*
> *Ədalət yolunda yolçu olmuşam, haqsızlıq görmüşəm tez qocalmışam.*
> *Eşitmişəm yağlı sözlər, yalanlar, müşayiət etmişəm gizli talanlar*
> *Həmişə xalqıma sadiq olmuşam, çoxüzlü görmüşəm mən qocalmışam.*
>
> **(A. Qasım, "Həyata baxış")**

Nazirin həmin dövrdə üzü qotur tutaraq çirkin vəziyyətdə idi. Onun üz dərisinin sağalmasına görə, bir həftə bibim oğlu Mənsumalı bizdə qalırdı. Mənim maşınımla gedərək və Əshabi-kəhf dağı ətrafında bitən müxtəlif otlardan yığırdıq.

Həmin dağın aşağı hissəsində yerdən çıxan qazlı sudan götürüb və qotura qarşı dərman hazırlayırdı. Bibim oğlu özü hərbi həkim kimi Leninqrad şəhərində yaşayırdı. O, məktəb illərində Fəttahla bir sinifdə oxumuşdur. Məndən xoşu gəlməyən nazirin otağına girəndə, əvvəl məni otaqdan çıxarmaq istədi. Bibim oğlu məni ona tanıtdıqda nazirin üz "maskası" dəyişilərək gülümsədi.

Bir aydan sonra may ayının 10-da günortadan sonra gündəlik işimə gəlirdim. Uzaqda dayanmış mənim keçmiş qonşumuz Qurban İsmayılov məni əl edərək yanına çağırdı. Onunla gülərüzlə görüşüb salamlaşdıqdan sonra mənə belə dedi: "Bu gün Heydər Əliyevin doğum günüdür, bunu bilirsənmi?" Dedim; "Necə ki, yeni bir şey olubdur?" Gülə-gülə əlavə edərək dedi: "Qonşu sən bilirəm rusca yaxşı bilirsən. Gedək poçta pulun mən verəcəyəm və Moskvaya Heydərin adına təbrik teleqramı göndərək."

Poçta gedib gördük ki, orada adamlar növbəyə durmuşlar. Biz də əlimdə yazdığım təbrik kağızını tutub növbəmizi gözlədik. Qurban teleqramın pulunu ödəyəndən sonra poçt qəbzini mənim döş cibimə soxaraq dedi: "Bu qəbzi saxla, vaxt gələr sənə lazım olar." Daha sonra o, gülümsəyərək belə dedi: Atalar demişdir ki; "Saxla samanı, gələr zamanı." Lakin taleyin hökmü ilə "samanı" saxlamaq mənə qismət olmadı...

Biz əl verib ayrılandan sonra işə gəldim. İşdəki yoldaşlarıma dedim ki; "Bilirsiniz bu gün nə günüdür?" Onlar üzümə baxıb dedilər ki; "Yox bilmirik, desən bilərik." Sevincək cibimdəki poçt qəbzini çıxarıb onlara göstərib dedim: "Bu gün Heydər Əliyevin doğum günü olduğundan, onun adına təbrik teleqramı göndərmişəm." Uşaqlardan bəzisi üzün turşutsa da, bir nəfər belə dedi: "Burda danışdın, daha heç yerdə danışma, başın əngələ düşər. Bilmirsən ki, onu Moskvada Qorbaçov işdən çıxarıb?"

Daha heç nə deməyərək keçib yerimdə oturdum. Bir azdan otağa girən katibə, nazirin məni çağırdığını dedi. Nazirin otağına girəndə, hirslə mənə baxaraq; "Nazirlikdə nə təbliğat aparırsan? Niyə sənə tapşırılan işini görmürsən? Niyə işə vaxtında gəlmirsən? O nə teleqramadır uşaqlara göstərirsən? Ver görüm o nə qəbzdir?"

Qəbzi cibimdən çıxarıb nazirə verən kimi, əlində əzərək və zibil qutusuna tulladı. Nazir hirslə mənə yenə dedi: "Eşitmişəm ki, kiminsə ağzından eşidib və Amerikada işləyənlərə həftədə əmək haqqı verilməsini demişsən. Bütün bunları yuxuda görübsən, yoxsa dövlətimizin qanunları xoşuna gəlmir?"

Dedim ki; "Bunu teatrın işçisi Kəmalə Ağayeva, xaricdən gələndən sonra Svetaya danışanda eşitmişdim." Nazir hislənərək; "Kəs səsini elə Sveta Qibləliyeva səndən Təhlükəsizlik komitəsinə şikayət yazmaq istəmiş, lakin bibin oğlu Mənsumalıya görə səni bağışladım. Get otur yerində ağzına gələni də danışma. Eşitdinmi? Di get yerinə."

> *"Olmasaydı cahanda yaltaqlar,*
> *Ac qalardı yəqin ki, sarsaqlar."*
>
> **(Atalar sözü)**

> *Çoxdan sübut olub yaltaqlıq murdar, zərərli bir işdir... yenə adamlar*
> *Bundan çəkinməyir, çünki hər yaltaq tapır ürəklərdə kiçik bir bucaq.*
>
> **(İ.A.Krılov, "Seçilmiş təmsillər")**

Bundan sonra (1987-ci il) Naxçıvan Ədəbiyyat Muzeyinin direktoru Sübhi Kəngərli keçmiş mədəniyyət üzrə iş yoldaşım olduğundan, məni muzeyə fotoqraf işinə götürdü. Muzeydə işlərkən oradakı demək olar ki, bütün eksponatların foto şəkillərini çəkib və neqativi ilə bərabər fonda təhvil verirdim. Bu işdə muzeyin elmi işçisi Xanım İsmayılova da mənə yaxından kömək göstərirdi.

2005-ci ilin əvvəlindən tale yollarım məni ahıl vaxtımda yenə də gətirdi gəncliyimdə işlədiyim Mədəniyyət üzrə Elmi Metodik mərkəzə. Mədəniyyət Naziri gənc oğlan (nazir Yəhya Əliyev idi) məni tanıdığından yenicə qohum olduğumuz kiçik oğlumun qayınatası Arif Quliyevin də yaxın dostu idi. Nazir mənə söz verdi ki, yaxınlarda məni nazirlikdəki boş olan yerlərdən birinə işə keçirəcəkdir.

İşlədiyim Elmi Metodik Mərkəzdə (direktor Gülxar Əhmədova idi) köhnə işçilərdən yalnız bir nəfər, direktor müavini Nizami Əzizəliyev qalmışdı. Qalanları isə yeni işçilər idi. Yeni iş yerimiz şəhərdəki indiki Heydər Əliyev adına Mədəniyyət Sarayında yerləşirdi. Həmin binada mədəniyyət üzrə bir neçə idarə ilə bərabər Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyinin inzibatı idarəsi də yerləşmişdir.

İdarəmizdə işçilərin sayı olduqca əvvəlki illərə görə az idi. Burada cəmisi beş şöbə olduğu halda, cəmisi dördü iş görürdü. Onlar; ***"Xalq yaradıcılığı"*** *(M.Məmmədov),* ***"Mədəni-kütləvi tədbirlərin təşkili"*** *(F.Səfərov) və mənim şöbəm* ***"Klub işinin metodikası"*** *idi. Beşinci və ən vacib olan* ***"İnformasiya və ictimai rəyi öyrənmək"*** *şöbəsi isə boş idi.*

İşlədiyim idarədə əvvəlki illərdəki kimi rayon mərkəzlərinə getmək üçün dövlət tərəfindən vəsait verilmirdi. Hər hansı bir tədbir üçün getmək istəyən işçilər, öz vəsaiti hesabına gedirdi. Ümumiyyətlə mədəniyyət sahəsində əmək haqqı aşağı olduğundan, bizim idarədə isə lap aşağı idi. Sevdiyim işlərdən biri də, klublarda mədəni-kütləvi tədbirlərin keçirilməsində istifadə olunan topladığım video filmlər idi. Bu barədə mənə Naxçıvan Kino Video Arxiv İdarəsinin direktoru Əbülfəz Məmmədov da öz köməyini əsirgəmirdi.

2006-cı ildə iki dəfə mənim şöbəm mədəni-kütləvi tədbir keçirdi. Onlardan biri 9 may "Qələbə bayramı günü", ikincisi isə 5 oktyabr "Müəllim günü" idi. Hər iki kütləvi tədbiri şəhərdəki 1 № li Klubun (klub müdiri Seyidov MirVasif idi) tamaşa zalında keçirdik. Faşizm üzərində Qələbənin ildönümü münasibətilə keçirilən tədbirə şəhərdəki İkinci Dünya müharibəsi iştirakçıları olmuş veteranlarından bir qrupunu dəvət etdim.

Tədbiri giriş sözü ilə açdıqdan sonra, müharibə veteranlarına söz verilərək və onların xatirələrini dinlədik. Tədbirin sonunda çağırılmış veteran qonaqlara gül dəstəsi ilə mənim kitablarımdan hədiyyələr verdik. Axırda əvvəlcədən tamaşa zalında hazırladığım Böyük Vətən Müharibəsi mövzusunda olan sənədli kinofilmə tamaşa etdik. Filmə tamaşa etdikdən sonra veteranlarla birlikdə xatirə foto şəkil çəkdirdik.(Mədəni kütləvi tədbirdə Elmi Metodik Mərkəzin işçiləri ilə bərabər, Şəhər Mədəniyyət və Turizm şöbəsinin də işçiləri iştirak etmişlər).

İkinci tədbir isə "Müəllim günü" münasibəti ilə yenə də həmin Klubun tamaşa zalında keçirildi. Əvvəlcədən Şəhərdəki Toğrol Cavid adına Uşaq Musiqi Məktəbi rəssamlıq şöbəsi şagirdlərinin əl işlərindən ibarət səyyar Sərgiyə, baxış oldu. (Uşaqların çəkdikləri rəsmlər Kluba gələnlərin zövqünü oxşadı).

Tədbir başlamazdan əvvəl şəhər Mədəniyyət şöbəsinin müdiri İmamqulu Əhmədov, tədbir iştirakçılarını təbrik etdi. Bundan sonra Elmi Metodik Mərkəzin şöbə müdirləri ilə direktor da tədbir iştirakçılarını salamlayıb və müəllimləri təbrik etdilər.Tədbirə çağırılmış şair və müəllimlərdən bir neçəsi öz ürək sözlərini deyib və tədbir iştirakçıları arasında xoş ovqat yaratdılar.

*"Müəllim günü" münasibəti ilə keçirilən tədbirin sonunda, çağırılmış qonaqlar ilə bərabər Mədəniyyət işçiləri xatirə foto şəkillər çəkdirdilər. Kütləvi Tədbir yüksək səviyyədə keçirildiyi üçün Elmi Metodik Mərkəz tərəfindən **"Fəxri Vərəqə"** (2006) ilə mükafatlandım.*

> *"Göylərin və yerin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir!"*
>
> **(İmran ailəsi surəsi, 189).**

Taleyin hökmü ilə Yaxın qohumum A.Quliyev vaxtsız dünyadan köçdü, Mədəniyyət naziri Y.Əliyev ilə direktorumuz G.Əhmədova sonradan nazir müavini M.Həsənov da işlərindən çıxarıldı və təzə gəlmiş nazir (S.İbrahimov) isə, məni nazirlikdə işə götürmədi. Sarvan bu vəzifəyə təsadüfən düşdüyü kimi, vaxtı ilə Şahtaxtılı atası Hüseynin gündüz gəzdiyi yolları bu gecə gəzmişdir...

*Mədəniyyət üzrə işlədiyim illərdə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən **Fəxri Diplom** (1982), Elmi Metodik Mərkəz tərəfindən **Fəxri Fərman** (1988), (2006), (2014), Nazirlik tərəfindən **Fəxri Fərman** (2006), Tarixi Abidələrin Mühafizə Cəmiyyəti tərəfindən **Fəxri Diplom** (2011), Həmkarlar Komitəsi tərəfindən **Fəxri Fərman** (2012), Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən **Əmək Veteranı** (2012) fəxri sənədlər verilmişdir.*

Hər şeyin sonu var həyatda, gülüm,
Əbədi deyil ki, gülüş də, qəm də.
Belə qalmayacaq, quruyacaqdır,
Qəmli gözlərində görünən nəm də.

(Asim Yadigar)

“Rəhmanın bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları zaman onlarla gözəl, yumşaq danışarlar.”

(Furqan surəsi, 63)

Kankanlıq çətin sənətdir

Həyətimizdə su quyusu olmadığından həmişə qonşu həyətlərdəki quyulardan gedib su gətirərdik. Məhəllədə su kranı da olmadığı üçün, hərdən vedrələrlə uzaq yerlərdən su gətirməli olurduq. Belə bir söz var ki, "yaşadığın həyətdə içməli su olmazsa, heç yaşamağına dəyməz."

Mən Mədəniyyət üzrə Elmi Metodiki Mərkəzdə yoldaşım isə şəhərdəki rus dilli uşaq bağçasında tərbiyəçi işləyirdik. Bir gün fikirləşdim ki, həyətdə içməli su quyusu qazıyam. Fikrimi həyat yoldaşıma dedikdə, onunla razılaşdıq ki, bu işdə mənə köməkçi olsun.

1984-cü ilin payız ayında həyətimizin aşağı hissəsində yer ayırıb və su quyusu qazmağa başladım. Çoxları mənə irad etdilər ki, quyunu evin qabağında qazım. Lakin mən fikirləşdim ki, su quyusundan qonşular da istifadə etməklə, quyu sahibi savab qazana bilər.

Quyunun ağız hissəsini (radiusunu) 80 sm götürərək, həvəslə qazmağa başladım. Bir metr yarım qazdığım hissə təmiz torpaq qatından ibarət idi. Bu mənim üçün heç də çətinlik olmadı. Qazılmış torpağı həyat yoldaşım Mehriban, quyu üstündə taxtadan düzəltdiyim ip sarınmış çarx vasitəsi ilə çıxarırdı. Qış gəldi qazıntı işini müvəqqəti olaraq dayandırmalı oldum.

Bəxtəvər sənsən ki, gözəl işgüzar yarın var,
Yarın sənə, sənin yara etibarın var.
Vəfasız olsa yarın dünya sənə dar gələr,
Bu dünyada sənin kədərin, ahu-zarın var.

1985-86-cı illərdə quyunu yenidən qazmağa davam etdim. Bu zaman çınqıl-daşı qat 2 metrə kimi oldu. Bundan sonra bərk, "kəpir" deyilən qat başladı. Həmin qat mənə qazıntı işlərində çətinlik verirdi. Əlac nə idi, başladığım işi axıra çatdırmalı idim.

1987-ci ilin dekabr ayınadək qazdığım quyunun dərinliyi 12 metrə çatmışdır. Lakin hələ ki, yeraltı sulardan əlamət görünmürdü. Bizə gələn qohumlar inanmırdılar ki, bu quyudan su çıxa. Lakin mən inadımdan dönmədən başladığım işə inanırdım ki, tezliklə su çıxacaqdır.

Dünyada can sağlığıdır mənim istəyim,
Ruzuma bərəkətdir hələ mənim əməyim.
Əzəldən bağlanmışam zəhmətimə, torpağa,
Quyudan su çıxarsa yanmaz mənim ürəyim.

1988-ci ilin yaz ayı idi ki, mənə dedilər ki, qış və yaz aylarında quyularda su az olduğundan qazıma işini davam etdirim. Quyuda hava olmadığından eşikdə qoyduğum tozsoran maşına bərkidilmiş rezin şlanqla içəriyə hava (oksigen) verilirdi.

Hər gün işdən sonra bir iki saat ərzində quyuya yanlardakı qazdığım "pillələrlə" girərək ağır dəmir çəkic və tiyə (zubil) ilə bərk "kəpir" qatını xırda-xırda qırıb və quyunu qazırdım. Bir ay müddətinə 3 metrə kimi kəpir qatı qırıb və su qatına çıxdım. İçəridə oturub kəpir qatı xırda-xırda qırdıqca vaxt çox apardığından, oturduğum yerə su dolaraq və mənim qatlanmış ayaqlarım islanırdı.

Qazdığım su quyusunun içərisindən cənub tərəfdən damcılarla axan su, tezliklə çoxalmağa başladı. Su quyusunu 14 metr yarım dərinlikdə qazdıqdan sonra quyudakı su imkan vermədi ki, qazılan yeri dərinləşdirəm. Su quyusuna elektrik su nasosu alıb yerləşdirdim. Həyətimizdə içməli su olsa belə sevincimiz tezliklə kədərlə əvəz oldu. Mənim bel nahiyəmlə ayaqlarım bərk sancmağa başladı. Havalar istinsə belə ayaqlarımda revmatik xəstəlik yarandı. (Nə qədər dava-dərman etsək də xeyri olmadı).

1988-ci ilin may ayı gəldi və mən ayaqlarımın ağrısından yeriyə bilmədim. Məni apardılar şəhərdəki xəstəxanaya. Orada Novruzov Niyazi həkimin köməyi ilə yataq xəstəsi kimi, müalicə olunmağa başladım. Mənə hər gün ağrıkəsici iynələr vurulur, ayaqlarımın altından başlayaraq, bel nahiyəmədək hər gün ovuşdurma (masaj) olunurdum. Xəstəxanada sağalandan sonra quyudakı su azalmağa başladı.

2002-ci ildə böyük oğlum Musa, iki nəfər Cəhri kəndindən kankan gətirib və quyunu bir az da qazıb dərinləşdirdi. Beləliklə həyətimizdəki su quyusunun dərinliyi 15 metr 90 sm oldu. (Su quyusuna 17 metr uzunluğunda rezin şlanqı olan "Kama 3" elektrik su nasosu yerləşdirdik).

Həmin vaxtdan neçə illər keçsə belə mənim ayaqlarımda hərdən bir ağrı olur. Xəstəxanada olarkən mənə baxan bir yaşlı tibb bacısı belə demişdir: "Oğul istərsən ki, sağlam olub ayaqların ağrımasın. Özünü iki şeydən gözlə, bir oturduğun yer hava axını (skvaznyak) olmasın və bir də ayaqlarını soyuq su ilə islatma."

Həyat yollarında karvan olmuşam,
Düz getmişəm bəzən yolda azmışam.
Sıldırım qayalar, dağlar aşmışam,
Gördüyüm haqsızlıq heç gəlməz saya.

(A. Qasım, "Həyata baxış")

“Bir başqası belə dedi: “Yusifi öldürməyin, onu bir quyunun dibinə atın. Əgər belə etsəniz, yol keçənlərdən biri onu götürər.”

(Yusif surəsi, 10)

Taleyimdə müəllim peşəsi

1984-cü ildən müəllim işləmək üçün növbədə durduğum üçün məni müvəqqəti olaraq, Babək rayonundakı Qaraxanbəyli kənd orta məktəbinə (direktoru M.Məmmədov idi) müəllim təyin edirlər. İşə şəxsi avtomobilimdə gedib-gələrək və məktəbin ictimai işlərində də fəallıq göstərirdim. Təəssüf ki, analıq məzuniyyətinə çıxmış müəllimə vaxtından əvvəl işə qayıtdığından məktəbdən çıxmalı oldum.

İki il Rayon Maarif Şöbəsində növbədə dayandım. Xəritə və plan çəkmə qabiliyyətimi nəzərə alan Babək rayon Suvarma Sistemləri idarəsində (müdir Səftər Quliyev idi) məni mühəndis-hidrotexnik vəzifəsinə işə götürdülər. Şəxsi maşınımla idarəyə gedib və kabinetimdə təsərrüfatların suvarma şəbəkə plan və xəritələrini çəkib təhvil verirdim.

İki ildən sonra Babək rayon Xalq Maarif Şöbəsi tərəfindən işə çağırıldım və məni ilk əvvəl oradakı Filmotekaya işə götürüb və sonra isə Rayon Qiyabi Orta Məktəbin Şıxmahmud kəndində müəllim işinə keçirdilər. Şöbənin müdiri A.Hüseynov məndən pul rüşvəti istədiyi üçün, sənədlərimi götürüb və müəllim işinə getmədim...

Babək rayon Xalq Maarif Şöbəsində işləyəndə maarif işçilərindən iki nəfərini rayon Partiya Komitəsi tərəfindən (Katib Kazım Süleymanov idi) Azərbaycan MK KP-nın Ali partiya Məktəbində qiyabi oxumağa göndərdilər. Onlardan biri mən və digəri də Qaraçuq kəndindən Oruc adlı riyaziyyat müəllimi idi.

1986-88-ci illərdə həmin Universitetdə (rektoru A.Adıgözəlov idi) "Təbliğatçı kadrlar" ixtisası üzrə bitirdim. Dövlət idarələrində vəzifədə işləmək üçün Naxçıvan Vilayət Komitəsi Katibinin müavini Dilarə Ələkbərova sənədlərimə baxanda, məndən 5 min manat məbləğində rüşvət istədi. Lakin mən ona belə dedim; "Məni Partiya oxumağa göndəribsə rüşvət niyə verməliyəm. Qaldı ki, həmin məbləğin üstünə beş yüz də qoyub və gedib özümə maşın alaram." Katibin müavini bu sözlərdən duruxaraq və sənədlərimi bükərək dedi: "Gedə bilərsən və çağıranda gələrsən."

1988/89-cu dərs ilində Naxçıvan şəhər Xalq Maarif Şöbəsi (şöbə müdiri İslam Həsənov idi) tərəfindən 3 №-li orta məktəbdə müəllim işləmək üçün müsabiqə elan edilir. Lazım olan sənədlər verib müsabiqədən keçəndən sonra məktəbə coğrafiya müəllimi işinə götürüldüm. Boş vaxtlarımda dərslərdə oturub və müəllimlərin iş metodlarını öyrəndim.

Məktəbin müdiri (direktor Tahirə Hacıyeva idi) ilk ünlərdən mənə etinasız olsa belə, sonradan qabiliyyətimi görüb və mənə sərbəstlik verdi. Məktəbdə coğrafiya fənni üzrə dərs çox olduğundan, mənə həftədə 24 saat dərs yükü, 5-ci sinfə rəhbərlik, kabinə müdiri və əlavə 12 saat dərnək məşğələsi verildi. (Məktəb iki növbəli olduğundan mən hər gün səhər saat 9-dan axşam 18-ə kimi işimdə olurdum).

İşlədiyim Rus dilli məktəb 1949-cu ildən yaranaraq və Rus yazıçısı A.S.Puşkinin adına idi. Məktəb kollektivinin əksəriyyəti rus, yəhudi və erməni millətindən idi. Tezliklə məktəbdə özüm üçün "Coğrafiya kabinəsi" yaratdım. Kabinəyə məktəb təsərrüfat anbarından kino aparat dəsti, xəritə və qlobuslar və digər başqa lazım olan avadanlıqlar götürməklə, dərslərimdə əyaniliyə üstünlük verdim. İctimai işlərdə fəallıq edərək tədbirlərdə foto şəkillər çəkməklə, kollektivin hörmətini qazanmışdım.

Məktəbin müəllim kollektivi yüksək səviyyəli mədəni insanlar idi. Kollektiv arasında mənim xətrimi istəyən müəllimlər var idi. Onlar təşkilat işi rəhbəri Rza Hacıyev, dər işi rəhbəri Lyudmila Petrovna, ibtidai sinif müəlliməsi Katya Dimitriyevna, coğrafiya müəlliməsi Cəmilə Nəzərova, istehsalat təlim müəllimi Feliks Çernousov və başqaları idi.

Daha sonra xarici dil müəllimi Mehdi Abdullayev, tarix müəllimi Fikrət Qasımov, Hərbi hazırlıq müəllimi Gennadi Stepanov, rəsm müəllimi Fuad Əsgərov, Azərbaycan dili müəllimi Mirmehdi Seyidov, tarix müəllimi İsmayıl Əsgərov, idman müəllimlərindən Oktay Rzayev, Nazim və Məmmədtağı Əliyev qardaşları mənə hörmət göstərirdilər.

Doxsanıncı ilin əvvəlindən Rus Sovet İmperiyası tərkibindəki müttəfiq respublikalar müstəqillik qazandı. Həmin vaxt Moskvada Müttəfiq Dövlətlər Birliyi (MDB) deyilən bir qurum yaradıldı. Bundan istifadə edən mənfur erməni qonşularımız ərazilərimizə göz dikərək və sərhədyanı kəndlərimizə silahlı basqınlar etdilər.

Həmin hadisələrlə əlaqədar olaraq Naxçıvanda yaşayan xaçpərəst əhali qorxuya düşdüyündən köçüb getdilər. Nəticədə Rus dilli məktəb və uşaq bağçasında uşaqların sayı aşağı düşdü. Azərbaycanlı valideynlər də uşaqlarını Rus dilli tədris-tərbiyə müəssisələrindən çıxararaq və milli məktəb və uşaq bağçalarına qoyurlar. (Həmin ilin yanvar ayında işlədiyim məktəbdə uşaq olmadığından dərs yüküm xeyli azalmalı oldu).

Tezliklə məktəbdə gülməli və qəribə bir hadisə baş verdi. Belə ki, Naxçıvan şəhər ZDS İcraiyyə Komitəsi (sədr Həsən Abdullayev idi) və Xalq Maarif Nazirliyi (nazir Hidayət Hüseynov idi) rəhbərlərinin rəsmi qərarı ilə məktəbimizin adı dəyişilərək və şəhid Vəli Zeynalovun (1956-1990) adını daşıdı. (Məktəbdəki ad dəyişmə mərasiminə toplaşmış müəllimlərdən bir neçəsi Rus şairi Aleksandr Puşkinin adına pis-pis sözlərlə çıxış etdilər).

Mənə söz veriləndə yarı zarafat yarı gerçək dedim ki; "Adını bəyənmədiyiniz Aleksandr Puşkin nəinki Rus xalqının, eləcə də dünya poeziyasının sevimlisi kimi azadlıq və demokratiyanın carçısı olmuşdur. Qaldı ki, şairin ata şəcərəsinə baxanda müsəlman İbrahim Hannibal onun babası olmuşdur. Bilin ki, indicə tərifladiyiniz şəhid Vəli Məmməd oğlu Zeynalovun anası ilə arvadı xaçpərəstdir..." (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Aslanın vəziri tülkü olanda, meşəni bürüyər hiylə, yalan da
Hər sözə inanıb dözən heyvanlar, ilanı əzərlər canlı çalanda.

(A. Qasım, "Həyata baxış")

1991/92-ci dərs ilinin üçüncü rübü təzəcə başlamışdır ki, məni rəssam kimi yeni yaradılmış Estetik Tərbiyə Mərkəzinə direktor Səməd Məmmədov idi) işə dəvət edirlər. Orada məni "Dekorativ tətbiqi sənət" şöbəsinə rəhbər verilməklə 12 saat həcmində də dərs verildi. Mən dərs ilinin axırında əvvəl işlədiyim məktəbdən çıxdım.

*Rəhbərlik etdiyim kabinənin kollektivi işgüzar və bacarıqlı olduğu üçün, müxtəlif tədbirlər keçirirdik. Kabinənin əmək fəaliyyəti bir neçə dəfə qəzet və televiziya ilə təbliğ olunmuşdur. İşimdə fərqləndiyimə görə 05 oktyabr tarixli 268 №-li qərar ilə Naxçıvan MR Təhsil Nazirliyi (nazir Ələkbər Quliyev idi) tərəfindən **Fəxri Fərman** (1996) ilə mükafatlandım. (bax; "Məktəbdən kənar müəssisələrin əsasnaməsi" Bakı-1994).*

*Mərkəzdə tez-tez siyasi-tərbiyəvi tədbirlər də keçirirdik. Onlardan biri də "Faşizm üzərində Qələbənin 55-ci ildönümü"nə həsr olunmuşdu. Həmin tədbir yüksək səviyyədə keçdiyi üçün, 16 may tarixdə direktorluğun əmri ilə (direktor Elxan Məmmədov idi) **Fəxri Vərəqə** (2000) ilə mükafatlandım. (bax; "Məktəbdən kənar müəssisələrin nümunəvi əsasnaməsi" Bakı-1994).*

*Naxçıvan MR Estetik Tərbiyə Mərkəzinin 19 may 2001-ci il tarixli 05 №-li təqdimatı əsasında, qabiliyyətimi nəzərə alan Təhsil Naziri Ələkbər Quliyev (1948-2009), 24 may tarixli 52 №-li əmri ilə ikinci dəfə **Fəxri Fərman** (2001) ilə mükafatlandım. Həmin ilin 05 iyun tarixində gənc nəslin təlim-tərbiyə sahəsindəki xidmətlərinə görə pedaqoji fəaliyyətinin 25 illiyi münasibətilə Təhsil işçiləri Azad Həmkarlar İttifaqları Naxçıvan MR Komitəsi (sədri Şərif Şərifov idi) tərəfindən **Fəxri Fərman** (2001) ilə mükafatlandım. (bax; "Məktəbdən kənar müəssisələrin nümunəvi əsasnaməsi" Bakı-1994).*

Təhsil Nazirliyinin əmri ilə müəssisələrdə əsaslı kadr dəyişmə siyasəti aparmaq niyyəti ilə Estetik Tərbiyə Mərkəzində də nazirliyin işçisi Yelmar Tarverdiyev tərəfindən "frontal" yoxlama aparılır. Direktorla (Elxan Məmmədov) müavinə (Nərminə Heydərova) qeyri ixtisasları olduğundan və onlara nazirliyin əmri ilə şiddətli töhmət verilir. İdarədə onların yerinə keçə bilməyimdən təşvişə düşən direktorla müavin, məni nüfuzdan salmağa çalışırlar.

2003-cü ilin aprel ayında Naxçıvan MR Təhsil Naziri Ələkbər Quliyevi, "Şərq qapısı" qəzeti redaktoru Məmməd Məmmədovun qərəzli məqaləsi ilə ifşa edib işindən çıxarırlar. Atalar deyib ki; "Balığı at suya, balıq da bilməsə Xaliq biləcək." (Taleyin hökmü ilə günahsız yerə Təhsil Naziri işindən azad olunsa belə, çox keçmir ki, onu nahaqdan qəzetində "ifşa edən" redaktor da avtomobil qəzası nəticəsində cavan ikən dünyadan köçməli olur).

Ömür var ki, bir zaman xoşbəxt olur, ömür var ki, dərd içində boğulur
Ömür var ki, mənalı, qiymətlidir, vətənə, xalqına dəyanətlidir.
Ömür var ki, qəddarlıqdan həzz alır, ömür var ki, yaxşını dərdə salır
Ömür var ki, ölkəsinə gərəkdir, ömür var ki, millətinə köməkdir.

(A. Qasım, "Həyata baxış")

Naxçıvan Təhsil naziri vəzifəsinə Naxçıvan Dövlət Universitetinin rüşvətxor müəllimi Həmzə Cəfərov təyin olunur. Təzə nazirin kadr dəyişmə siyasəti ilə nazirlikdə işləyən təcrübəli işçilər işdən çıxarılaraq və cavan təcrübəsiz kadrlarla əvəz olunurlar.

Fermadan qovuldu it, sərişdən yoxdur deyə,
Toyuqlar tapşırıldı "sərişdəli" tülküyə.

Naxçıvan Təhsil Nazirliyinin 2002-ci il 22 mart tarixli 43 №-li əmri əsasında, Naxçıvan Estetik Tərbiyə Mərkəzinin direktoru E.Məmmədovun imzaladığı 2002-ci il 01 aprel tarixli 22 №-li əmri ilə; "Dərs ilinin axırınadək qeyri ixtisas təhsilli və işin öhdəsindən gələ bilməyən ştat və dərnək işçilərinin əmək müqavilələri qüvvədən düşdüyündən, işdən azad olunurlar."(Mərkəz üzrə işdən çıxarılanların 10 nəfərdən 6-sı bizim kabinə işçiləri idi).

Taleyimin acı səhifələrindən bir də buradan başlayaraq və məni- xalq üçün canla-başla işləyən bir təcrübəli işçini, nahaqdan işdən çıxarırlar. Bazar ertəsi günü adət üzrə işə tez gedərdim. Pəncərədən məni görən direktorumuz otağına gəlməyimi bildirdi. O, qarşıma bir əmr surətini qoyaraq belə dedi: "Feyruz müəllim, təzə nazirin sözü ilə səni cümə günü axşam işdən azad etmişəm. Əgər istəsən nazirə de, mən də əmri ləğv edim..."

Nazirin yanına gedəndən sonra, sanki məni tanımaq istəmədi. Dedim ki; "Bir vaxt sən yazdığın kitabını mənə, məndə sənə hədiyyə etmişdik. Bu nə işdir ki, mənim heç bir günahım olmaya-olmaya işimdən azad olunuram?" Nazir etinasız surətdə dedi: "Bir-birimizə kitab hədiyyə etməyimizi xatırlamıram. Ancaq işlədiyin Mərkəzdən mənə deyiblər ki, iş vaxtı məscidə gedib və işinə laqeydsizlik göstərirsən."

İş yerimdən orta təhsilli Tovuz adlı müəlliməni işdən çıxartmaqla, nazirlikdə işləyən Səadət adlı bacısının razılığı ilə mənim dini işlərlə məşğul olmağıma xəbər vermişlər. Dedim ki; "Mən işimə laqeyd yanaşsam onda mənim adıma bizim müəssisədən bir belə tərifləmələr olmazdı. Qaldı ki, mən Ərəb və Fars dilləri Kursunu bitirmiş və Mərkəzdə də "Mənəviyyat studiyası"na rəhbərlik edirəm. Fəallığımı da qəzetlərdə yazıb tərifləmişlər." (ətraflı bax; "Nuh yurdu" qəzeti, 1996-cı il № 5; "Şəhriyar" qəzeti, 1996-cı il № 18). Əlavə edərək dedim: "Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər üzrə müvəkkili (müvəkkil Cəfər İmanov idi) tərəfindən mənə verilmiş, 1998-ci il 22 sentyabr tarixli 24 saylı əmri ilə dini işlərə səlahiyyətim çatır."

Nazir bu dəfə hirslənərək və dedi: "Onda get dini işlərlə məşğul ol. Müəllim ateist (dinsiz) olmalıdır. Gedə bilərsən, o məscid o da sən." Nazirin bu qədər belə dinsiz olmasını görərək, ona lənət edib və uca Allaha tapşırdım... (Çox çəkmədi ki, nazirin əvvəl arvadı, sonra isə özü qəflətən dünyadan köçməli oldu).

Nədənsə vəzifə kürsülərində, gur çıxır nazirin sözü, səsi də
Özü, qohumları hələ bir yana, "nazirlik" eyləyir katibəsi də.
Sorub zəli kimi xalqın qanını, haram yeyə-yeyə piylənir nazir
Xəstəlik tapmışdır arvad uşağı, özü rüşvət yığsa da, dilənir nazir.

2008-ci dərs ilindən Naxçıvan Uşaq İncəsənət Məktəbində "Təsviri sənət" şöbəsinə müəllim işinə götürüldüm. Məktəbin direktoru Azər Abbasov və tədris işləri üzrə direktor müavini Tahir Kərimov məktəbdə mənə hörmət edirdilər. Şəhər Mədəniyyət şöbəsinin (müdiri Əhmədov İmamqulu idi) razılığı ilə mənə məktəbdə əsas işimdə qalmaqla həftədə 12 saat həcmində dərs verildi.

Uşaq İncəsənət Məktəbində mənimlə bərabər şəhərdəki 7 №-li orta məktəbin müəlliməsi Gülnarə Hüseynova da uşaqlara dərs deyirdi. Mənə ayrıca otaq ilə 5 illik təsdiq olunmuş "Uşaq incəsənət Məktəbi üçün Proqram" da verdilər. Proqramda Rəssamlıq şöbəsindəki şagirdlərə 5 il ərzində, tədris olunan fənlərin elmi, nəzəri və praktiki yolla öyrənilməsi göstərilmişdir. Proqram "Rəsm", "Boyakarlıq", "Heykəltəraşlıq", "Kompozisiya", "Dekorativ-tətbiqi sənət", "Plastik anatomiya" və "Təsviri incəsənət tarixi" bölmələrindən ibarət idi.

Dərs dediyim Uşaq İncəsənət Məktəbində elə ay olmazdı ki, aylıq məvacibi alandan sonra, (direktorun göstərişi ilə) bayağı "şairlərin" yazdıqları kitabçalara, müsamirə və teatr tamaşalarına pul yığılmasın. İşlədiyim dörd ildən sonra Məktəbin direktoru mənə bildirdi ki; "Şöbə müdirinin göstərişi ilə Mədəniyyət Sarayındakı konsert tədbirinə alınmış güllər üçün hər müəllim yüz manat miqdarda pul verməlidir." Ona etirazımı bildirdikdə; "Mənə baş girələyən "müəllim" lazımdır..."dedi.

Alçağa bax, ləli basır palçığa,
Dərd gətirir, qəm gətirir varlığa
Görsə hünər, tüstü olub məhv edər,
Yansa çıraq, xəzri olub söndürər.
Aləmə bax, kimdi görün rəhbəri,
Kimdi tutan ən uca mövqeləri?
Namusuna göz yuman əbləh, betər,
Əhdi kimi qəlbimi qırmaq dilər.

(N.Gəncəvi, "Sirlər xəzinəsi")

(Beləliklə taleyin hökmü ilə yaşımın 66-cı ilində sevimli pedaqoji işimdən əl çəkməli oldum. Allahın qəzəbi ilə tezliklə Məktəbin direktoru Azər Abbasov da işindən uzaqlaşdırıldı). (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

"Həqiqətən, inkar edənləri (ateistləri) əzabla qorxutsan da, qorxutmasan da onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir."

(Bəqərə surəsi, 6-7)

Taleyimdə mənəviyyata həvəs

Bekarçılıq pis şey olduğundan artıq ailə, qohum, qonşu və tanışlar arasında hörmətdən düşmüşdüm. Hərdən acı taleyimə acıyaraq intihara əl atmaq istəyirdim. Lakin bilirdim ki, insan özünə qəsd edərsə qiyamətdə cəhənnəmi qazanar.

Fiziki iş görə bilməyib alış-verişlə də səriştəm olmadığından səbir edib təskinlik tapırdım. Hərdən də düşünürdüm ki, Adəmdən Xatəmə kimi bəşər tarixində eyni köklü yaramaz və nankor insanlar olmuş və qiyamətədək də olacaqlar. Şəxsi arxivimdəki Sovet dövründə çəkdiyim H.Ə.Əliyevin (1923-2003) Naxçıvanda olarkən tarixi foto şəkillər dəstindən 100 ədəd (neqativlə birlikdə) ayırıb və şəhərdəki H.Əliyev muzeyi nə bağışladım. (bax; "Şərq qapısı" qəzeti, 2011, № 232).

Muzeyin direktoru Lütfiyə Əsgərova və Ali Məclisin sədr müavini Zahid Əzimovdan xahiş etdim ki, işləməyimə kömək etsinlər. Lakin bütün bunların heç də faydası olmadı. Bir oğlum icbari hərbi xidmətdə, o biri oğlum isə xaricdə təhsil alırdı. Təkcə ümidim ailəmizə çörək pulu gətirən uşaq bağçasında müəllimə işləyən həyat yoldaşıma qalmışdı. (Tezliklə şəhərdəki rus dilli uşaq bağçası da ləğv olundu).

> *"Ay çıxar batar gedər, durnalar qatar gedər*
> *Bu dünya bir güzgüdür, hər gələn baxar gedər."*

*Həzrəti **Məhəmməd** (s) Peyğəmbər buyurmuşdur ki: **"İmanın fəziləti ondadır ki, bilәsən harada olsan da, Allah sәninlədir."** Mən dindar-ziyalı ailəsində doğulsam da uşaqlıq illərindən məktəbdə, ateist ruhunda tərbiyələnmişəm. Gənclik illərində isə dindar xurafatçılara qarşı film və teatr tamaşaları məni dindar ziyalılardan uzaq salmışdır.*

Uşaqlara Allahı tanıtmağın əhəmiyyəti çoxdur. Belə ki, Allahı tanımayıb və Onun İslam dinini öyrənməmiş böyüyən uşaq, şübhəsiz ki, həyatında bir çox çətinliklə rastlaşar. Valideynlərin uşağa etməli ilk xeyirxah iş Allah sevgisini və Allah qorxusunu kiçik yaşda olarkən ona öyrətməkdir.

Hər bir ailədə uşaq Quranda təsvir edilən gözəl əxlaq üzrə böyüməlidir. Əgər bir uşaq inanclı və təvəkküllü tərbiyələnərsə, möhkəm xasiyyətə sahib olar. Uşaq nə qədər kiçik olursa olsun, yetkin mömin ağlına və əxlaqına sahib olar. (bax; "Düşünən insan" jurnalı, oktyabr 2012-ci il № 14).

Etiraf edirəm ki, Sovet kommunist ideologiyasına inanaraq "demokratiya" tərəfdarı olmuş və Sosialist quruculuğunun mənafeyini güdmüşəm. (Bütün bunlar isə yaşadığım mühitin hökmü ilə olmuşdur).

Anadan doğulduq kor, şikəst kimi,
Yalana güvəndik, zora inandıq.
Daşa səcdə qılan bütpərəst kimi,
Həyatı görmədik, kora inandıq.
Müqəddəs göründü bizə hökm edən,
Olduq beyinsiz baş, müqəvva bədən.
Ağına, bozuna fikir vermədən,
Hər xəbis hakimə cara inandıq.
Dondurdu mühiti kədər buzları,
Doydura bilmədi toxlar acları.
Günah sahibləri günahsızları
Çəkdilər çarmıxa, dara inandıq.

(H.Razi, "Ömür keçdi...")

Sonradan gördüm ki, əl barmaqları müxtəlif uzunluqda olduğu kimi din ideoloqlarının da inamla imanları müxtəlifdir. Həyatımın qırxıncı baharınadək (yaxınlarımın biganəliyindən) nəinki Allahı (Yaradanı) dərk etmiş habelə adi mənəviyyatı belə bilməmişəm.

Sonrakı illər məndə mənəviyyata həvəs yarananda elmi fəlsəfi ədəbiyyatlardan oxuyub öyrəndim ki, müsəlman (müslim) sözü elə Allahın dostu deməkdir. Daha sonra isə dərk etdim ki, uşaq valideynini tanıdığı kimi düşünən insan da Allahı tanıyıb və şəhadət gətirməlidir.

Müsəlman olmaq üçün mütləq və öz arzunla (qəlbən) şəhadət gətirilməlidir. Bunun üçün aşağıdakı sözləri demək lazımdır; Ərəbcə "İnna Lillahi və inna iləyhi raciun." (Mənası): Biz Allaha məxsusuq. Ona da qayıdacağıq! Ərəbcə "Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh!" (Mənası): "Şahidlik edirəm ki, Allahdan başqa İlah yoxdur və şahidlik edirəm ki, Muhəmməd (s) Onun qulu və rəsuludur!"

1994-cü ildə İranın Naxçıvandakı Baş Konsulluğunun təşəbbüsü ilə Fars-Ərəb dilləri kursu (kurs rəhbəri Yusif Heydərpur idi) yaradılır. Kursda yazıb-oxumağı öyrəndikdən sonra, İslam mənəviyyatını təbliğ məqsədi ilə Naxçıvan MR Nazirlər Kabineti yanında Dini Qurumlarla İş şöbəsi (sədri Cəfər İmanov idi) mənə rəsmi səlahiyyət verir. (bax; "Şərq qapısı" qəzeti, 15 yanvar 1994-cü il № 4).

Doxsanıncı illərin sonunda İran İslam Respublikasının Naxçıvanda Baş Konsulluğu (konsul Məhəmməd Sadiq Turi idi) yarananda, Mədəniyyət işləri üzrə attaşesi (sədri Seyid Rza Mirməhəmmədi idi) və Naxçıvan din mədrəsəsi (müdiri Məhəmməd İsmaili idi) fəaliyyət göstərmişdir. Konsulluq və mədəniyyət attaşesi tez-tez mədəni-kütləvi tədbirlər və Naxçıvan Dövlət Universiteti Xarici tələbələr fakültəsi arasında birgə elmi konfranslar keçirərdi. Həftənin cümə günləri İslam təlimlərini öyrənmək məqsədilə məscidə gedib namaz qılırdım.

1995-ci ilin yayında Güznüt kəndindən olan məscid yoldaşım Adil adlı bir nəfərlə İrandakı 8-ci imam Rza (ə) ın yaşadığı Məşhəd şəhərinə getmək istədik. Mənəviyyata həvəs olduğundan İranın Xorasan vilayətindəki Məşhəd şəhərinə turist səfərinə getməli oldum. Məşhəd şəhərinə çatanda bizim üçün ayrılmış hoteldə qalmağa yer yoxdur. Çünki həmin gün Həzrəti Məhəmməd (s) Peyğəmbərin doğum günü olduğundan, şəhərin hotellərində zəvvarların sayı artmışdır.

Bizi apardılar şəhərdəki "Miladi" adlı bir hotelə. Buranın otaqları çox çirkli və natəmiz idi. Nə etmək olardı, əlacsızlıqdan burada qalmalı olduq. Hotelin ikinci mərtəbəsindəki 308 nömrəli otaqda, mənimlə bərabər Güznütlü Adil və Bayraməli, habelə Bənəniyarlı Xeybər adlı oğlan qaldıq. Səfər təəssüratları əsasında yazdığım "Ziyarətnamə" (Yol qeydləri) adlı kitabçanı ziyalılar arasında yaymaqla, oxucularda həvəs yaratdım. (bax; F.Bağırov, "Ziyarətnamə" (yol qeydləri) Bursa-1996).

Ya Xorasan, ya da Məşhəd, ziyarət et, qəlbdə yaşat
Çox zinətli yer Xorasan, qismət olar, sən görərsən.
Qəriblərin ağasıdır, ürəklərin parasıdır,
Museyi-Kazımın balasıdır, qərib ağa İmam Rza.

(Şayəstə Ağayeva)

Həmin illərdə Naxçıvan MR-ın 75 illiyinə töhfə kimi "Nuh yurdu-Naxçıvan" adlı ikinci kitab da yazmalı oldum. Bundan sonra Muxtar respublika ərazilərini qarış-qarış gəzib ziyarətgahlar haqqında məlumat topladıqdan sonra, yazdığım "Nuh yurduna ziyarət" adlı üçüncü kitabı da yazaraq tamamladım.

2002-ci ildə Naxçıvanda realist rəssam B.Kəngərlinin 100 illik yubiley tədbirləri keçirilirdi. Tarixi faktlar əsasında rəssamın həyatından bəhs edən "Əzablı günlər" adlı iki pərdəli və iki şəkilli pyes yazdım. Əsasən xalq teatrları üçün nəzərdə tutulan həmin pyes, ilk dəfə Naxçıvan Estetik Tərbiyə Mərkəzinin özfəaliyyət dram kollektivi (quruluşçu rejissor Cəlil Vəzirov idi) səhnələşdirdi.

Atamın tərcüməsi əsasında, Azərbaycan yazıçısı A.Bakıxanovun Farsca yazdığı "Nəsihətlər" əsərini, ədəbi tərcüməsi üzərində işləməli oldum. "Nəsihətlər"ə nəzirə yazdığım "Axirət fədaisi" adlı kitabça, tezliklə mənəviyyatla maraqlanan oxucuların rəğbətini qazandı. Yazıçı hikmətli sözlərinin birində belə deyir; "İnsana verilmiş bir dövlət varsa, o da Allahın bəxş etdiyi elmlə ədalətidir."

Əvvəlki illərə görə indi məscidə gedən dindarların sayı azalmışdır. Bunun bir səbəbi insanların dolanışıq üçün başqa ölkələrə getməsi və digər səbəbi isə minbərdə cahil vaizlərin xütbə oxumasıdır. Tale elə gətirdi ki, həyat yoldaşımla bərabər ikinci dəfə Xorasanın Məşhəd şəhərinə getməli oldum.

Məşhəd İmam ziyarətgahı, tarixi Tusdur onun adı,
Ziyarətgahı zinətlidir, adı-şanı qüdrətlidir.

(Şəyastə Ağayeva).

Mən dindar olduğum üçün məscidə namaz qılmağa gedir, Quran oxuyaraq və İslamı elmi şəkildə təbliğ edənlərdən olmuşdum. Məni nahaqdan işdən çıxarmışlar, gündəlik maddi vəziyyətim çox pis vəziyyətə düşmüşdür. İşləmək üçün hara şikayətə getsəm də şikayətimə məhəl qoymurdular.

Qalmışdım pis vəziyyətdə və ali təhsilli mütəxəssis olsam belə, məsciddəki bir qrup orta təhsilli (əvvəllər sürücü və başqa işlərdə işləmiş) "mollalar" mənə tənə ilə baxıb və kinayə edirdilər. İslam dinində belədir ki, müsəlman-müsəlmanın qardaşı kimi, yıxılanı yerdən qaldırmalı və lazım gələrsə maddi kömək göstərməlidir.

Ömür keçdi gurultular içində,
Lal sükutun möhtacıyam nə vaxtdır.
Zəmanənin bir qarışıq köçündə,
Asudəlik, dinclik dizdən uzaqdır.
Aman Allah kərəminə min şükür!
Adın, sözün yenə bizə çıraqdır.

(H. Razi, "Ömür keçdi...")

Məscidin Axundu və Muxtar Respublikanın Qazısı Hacı Soltan Hacı Məhəmməd oğluna xahiş etdim ki, yuxarı təşkilatlarda sözünün keçməsi ilə mənə bir iş verdirsin. Lakin orta təhsilli Qazı, mən və mənim kimi elmli şəxslərin məscidə gəlməsini istəmirdi. Ataların bir sözü var; "Oğru elə çığırdı ki, doğrunun bağrı yarıldı."

Tele yollarındakı reallıqları yazanda həyatın əyri güzgüsündə özümü düz görüb və təskinlik tapmışam. Daşlı, düzənli tale yollarımdakı adı çəkilən bütün insanlar hafizəmin yaddaşındadır. Onların əksəriyyəti bəlkə də, dünyadan köçsələr belə, ruhları məndən inciməz. Çünki, "haqq gələndə nahaq aradan getməlidir." (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Hər xalq bir cür yazır öz tarixini,
Bəzən həqiqətə yalan qarışır.
Məğlublar içində boğur səsini,
Qaliblər min cürə yalan danışır.

(A. Yadigar, "Hər şeyin sonu var...")

"Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam üçün açıb genişləndirər..." *(Quran, Ənam surəsi ayə 125)*

Mənəviyyatdan uzaq düşənlər

*2010-cu ildə Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Bakıda nəşr olunan **"Dövlət və Din"** adlı (baş redaktoru Hidayət Orucov idi) ictimai fikir toplusu deyilən elmi publisistik jurnalına bir yazımı göndərdim.*

***"Naxçıvan İslam sivilizasiyasının elm və mədəniyyət mərkəzlərindən biri kimi"** adlı dini tarixi və fəlsəfi yazım jurnaldakı "Tarixə pəncərə" adlı səhifədə oxucuların ixtiyarına verildi. Jurnaldakı bütün elmi məlumatlar üç dildə (Acəricə, Rusca və İngiliscə) yazılırdı. Həmin yazı ilə bildirirdim ki, Həzrət Nuh (ə) Peyğəmbərin "Dünya tufanı" nından sonra taxtadan düzəldilən nəhəng gəmi, üzərək və indiki Ağrı (Ərarvad) dağındakı vulkan külü altında donub qalmışdır.*

Naxçıvanda Həzrət Nuh (ə) Peyğəmbərin qəbirüstü türbəsi olmuş və peyğəmbərin adına ərazidə tarixi və coğrafi adlar dövrümüzədək qalmaqdadır. Naxçıvandakı "Qəbir yeri"nin tikilisi 1950-ci ildə şəhər qəbiristanı sahəsinin genişləndirilməsi bəhanəsi ilə sökülmüşdür. Həmin qəbirüstü tikili VIII əsrdə Ərəblər tərəfindən bərpa edilmişdir. Naxçıvanlı realist rəssam Bəhruz Kəngərli həmin tikilinin naturadan üç tərəfdən rəsmini çəkmişdir.

Rus tədqiqatçısı K.A.Nikitin 1882-ci ildə Tiflisdə Rus dilində nəşr olunan "Qafqaz ölkəsi və tayfaların təsviri üçün materiallar" adlı jurnalda "Naxçıvan mahalı və Naxçıvan şəhəri" sərlövhəli yazısında bu barədə deyir: "Dünya tufanı"ndan sonra Noy (Həzrəti Nuh (ə)) peyğəmbər, Qafqazdakı Naxçıvan şəhərinin yerləşdiyi ərazidə məskunlaşmış. Sonradan həmin ərazilər "Nəh" adlanmışdır." (bax; "Dövlət və Din" jurnalı, № 6 (10) Bakı-2010).

Maraqlıdır ki, həmin məqaləm jurnalda çıxandan sonra, Naxçıvandan olan tarixçi alimlər, mənə heç də sağ ol demədilər. Əksinə xəbərdar etdilər ki; "Yuxarıların xüsusi tapşırığına əsasən Nuh (ə) Peyğəmbərin gəmisi üzüb gələrək indiki İlan dağını dəlib keçmiş və gedib indiki "Gəmiqaya" sahəsində dağda dayanmışdır." Alim qardaşlarımızın burada adlarını çəkməsəm də, Uca Allaha agahdır ki, əsl alim və həqiqi ziyalı ağa qara deməməlidir. Allahdan qorxmayanın yeri isə Qurana görə Qiyamətdə məskəni cəhənnəm, xidmətçiləri də zəbanilər olacaqdır.

2013-cü ilin 8 may günü idi. Həmişəki kimi səhər-səhər işimə tərəf gedirdim. İdarədə lazım olan işlərimi görəndən sonra, Naxçıvan MR Dini Qurumlarla iş üzrə İdarəsinə getdim. (2002-ci ildən işləyən alim-filoloq İdris Abbasov, Muxtar respublika ərazisində dini təbliğat yararsız olduğundan vəzifəsindən azad olunur).

İdarə şəhərdəki "Böyük bağ"ın içərisində, keçmiş Ədəbiyyat Muzeyinin binasına köçürülmüşdü. Həmin idarəyə qoyulmuş təzə rəhbər işçi, əvvəllər Təhlükəsizlik İdarəsində işləmiş Vüqar Səyyad oğlu Babayev idi. İdarənin müdiri ilə ilk tanışlıqdan sonra, ərizəm ilə "Dünya həyatı" adlı əlyazma kitabımın surətini ona verdim. Bildirdim ki, İdarə tərəfindən mətbəədə kitabımın nəşr olunmasına icazə verilsin.

Kitabın oxuyub tanış olmasına, İdarənin müdir müavini Vahid adlı bir işçiyə həvalə olundu. Mən bir ay müddətində iki dəfə İdarənin müdiri yanına Naxçıvan Radio və Televiziya Komitəsində işləyən Şərurlu Qədir adlı tanışımla getmişdim.

İyun ayının axırlarında yenə də ərizəmlə əlaqədar Din idarəsinə getməli oldum. Orada müdiri tapa bilmədim və müavin Vahidin yanında oldum. Ona kitabımın oxumasını soruşduqda, hələ "vaxt tapa bilmədiyi"ni bildirdi. Ona dedim ki, "Ərizəmlə əlaqədar gəlmişdim bura, siz də kitabımla maraqlanmadınız. Keçmiş Sovet dövründə vətəndaşların ərizəsinə geci üç günə kimi cavab verilərdi. Əgər belədirsə, onda verdiyim kitabı qaytarın."

Onunla sağollaşaraq verdiyim kitabımı da götürüb və qəmli halda taleyimin yükünün ağırlığına dözə bilmədim. Nə edə bilərdim, əlimdən nə gəlirdi. (Sonradan öyrəndim ki, Din İdarəsində müavin işləyən cavan oğlan, Babək qəsəbəsi sakini və mənim bibim uşaqlarının yaxın qohumudur).

Azərbaycan Respublikası Qanunvericiliyində deputatlar kitab nəşri üçün dəyişikliklər etmişlər. Belədir ki, hər hansı bir nəşr olunacaq kitaba yuxarı idarə və ya nazirlik tərəfindən icazə kağızı olsun. (Sovet dövlətinin senzoru yenidən bərpa olunmuşdur).

Mənim də yazdığım kitablar dini-fəlsəfi olduğundan, Din İdarəsi tərəfindən yoxlanılaraq və nəşrinə icazə verilməli idi. Lakin kimə sözünü deyəsən? Məgər düz sözü eşidən və əməl edən varmı? Çox maraqlıdır ki, adı "Din idarəsi" olsa belə orada işləyənlər ateist kimi İslamdan xəbərsizdirlər.

Dünya etibarsız, biz etibarsız, xəyanət, hiylələr saysız-hesabsız.

Çalışır aldatsın insan insanı, doğru bir insan görmürəm, hanı?

Dünya bir varlıqdır biz ona mehman, əmələn əzabı yamandır, yaman.

Hər əmələn özünün öz qiyməti var, köçəndə özü ilə aparır aşkar.

(A. Qasım, "Həyata baxış")

“İblisin onlar haqqındakı zənni düz çıxdı. İçərilərindən bir dəstə mömin istisna olmaqla hamısı ona uydu.”

(Səba surəsi, 20)

Sabirabadlı dostlarım

2013-cü ildə mən tez-tez şəhərdəki Mərkəzi Kitabxanaya gedərdim. Orada keçmiş günlərlə bağlı olan "Şərq qapısı" qəzetində dərc olunmuş foto şəkil və məqalələrimlə bir daha tanış olurdum.

Kitabxanada bir gün "Xalq qəzeti"nin (keçmiş "Kommunist" qəzeti idi) 1 aprel 2009-cu il tarixli nömrəsində təsadüfən "Mustafa Kamal Atatürkün hədiyyəsi" başlıqlı bir yazı ilə rastlaşdım. Həmin məqaləni "Muğan-Şirvan" qəzetinin təsisçisi və baş redaktoru Elçin Nəsibov yazmışdır.

Həmin yazıdakı adı çəkilən Sabirabad rayon Mədəniyyət şöbəsinin işçisi bir nömrəli avtoklubun müdiri olmuş və hazırda rayon Suqovuşan kəndində yaşayan Qurbanəli Həsən oğlu İsmayılov mənim marağıma səbəb oldu. Mən bu barədə Sabirabad rayon Mədəniyyət və Turizm Şöbəsinə, xüsusən də şöbə müdirinə məktub yazdım ki, mənə kömək etsin. (Məktubumda Sabirabad rayon Mədəniyyət şöbəsinə "Naxçıvan" adlı kitab-albom da hədiyyə göndərdim).

2013-cü ilin 12 dekabr tarixində Sabirabad rayonu Suqovuşan kəndindən keçmiş mədəniyyət işçisi və "Qızıl qələm" mükafatına layiq olmuş yazıçı Qurbanəli Həsən oğlu İsmayılovdan bir məktub aldım.

Məktubda salamdan sonra bu sözlər yazılmışdır: "Hörmətli qardaşım Feyruz müəllim 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə sizə və ailə üzvlərinizə, iş yoldaşlarınıza uzun ömür və can sağlığı arzulayıram. "Muşan-Şirvan" qəzetində sizin mənə göndərdiyiniz məktub dərc olunub." (bax; "Muğan-Şirvan" qəzeti, 22 noyabr 2013).

Qurbanəliyə verdiyim telefon nömrəmə zəng edərək bu sözləri də demişdir; "Sizə Naxçıvanlı qohumum İntiqamla istədiyiniz "Qanlı körpü" adlı kitablarımdan iki dəst göndərirəm. Qohumumun yoldaşı Naxçıvan Filarmoniyasında mühasib köməkçisi vəzifəsində işləyir. Xahiş edirəm ki, istədiyin kitab bağlamasını gedib özünüz alasınız."

Ertəsi günü idarəmizin binasında yerləşən Filarmoniyaya getdim və həmin qadından mənə göndərilmiş bağlamanı aldım. Bağlamada iki dəst və hər biri iki cild olan "Qanlı körpü" və yaxud tarixin açılmamış səhifələri adlı ("Nərgiz" nəşriyyatı Bakı-2010) kitablar var idi. Kitablarda müəllif tərəfindən mənə yazdığı avtoqraf, 10 noyabr 2013-cü il tarix yazılaraq imzalanmışdır. (Kitablardan bir dəstini idarəmizə hədiyyə etdim ki, işçilərimiz götürüb oxusunlar).

Müəllifin hədiyyə göndərdiyi hər iki kitabları diqqətlə oxuyaraq və 2014-cü ilin 10 yanvar tarixində başa çatdırdım. Erməni vəhşilikləri haqqında yazılmış kitablar, xalqımızın tarixi keçmişindən xəbər verirdi.

Kitabın birinci cildində xalqımızın qədim milli folklor nümunələri və atalar sözləri oxucuda maraq doğurur. Hər iki kitablarda bir neçə ciddi səhvlər olsa belə xalqımızın tarixi ilə maraqlananlar üçün gözəl vəsait ola bilər.

Kitabın ikinci cildində yazılır; "İndiki Ermənistan ərazisinin 82 faizi qədim Azərbaycan torpaqları olmuşdur. Bu torpaq ərazilərini Rus çarlığı zamanında (1828-ci ildə) tarixi "Türkmənçay müqaviləsi"ndən sonra müxtəlif yollarla Azərbaycandan qoparılaraq ermənilərə verilmişdir. Qədim Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin və Göyçə gölü əraziləri bizim ata-baba yurd yerləri olmuşdur. Həmin ərazilərdə 15-dən çox inzibati rayon, 10 böyük şəhər, 11 qəsəbə və yüzlərlə kənd adları dəyişdirilmişdir.

Kitabda inzibati rayon, şəhər və qəsəbələrin əvvəlki və ermənilərin dəyişdirdikləri indiki adların siyahısı da verilmişdir. (Kitabda habelə Erməni xalqının pis əlamətləri haqqında görkəmli şəxslər və dünya ədəbiyyatındakı deyimlər də vardır). (bax; Q.İsmayılov, "Qanlı körpü" Bakı-2010).

Hər iki kitabda müəllif haqqında aşağıdakı kimi qısa məlumat yazılmışdır: "Qurbanəli Həsən oğlu İsmayılov 1939-cu ildə Qərbi Azərbaycanın Sərdərabad rayonunun Xeyirbəyli kəndində anadan olmuş. 1948-ci ildə Azərbaycanın Sabirabad rayon Suqovuşan kəndinə köçürülmüşdür. O, 1965-ci ildə Bakıdakı Kitabxanaçılıq Texnikumunun "Mədəni-maarif" fakültəsini bitirərək və 1970-ci ildən isə Rayon Mədəniyyət Evindəki "Xalq teatrı"nda aktyor kimi çalışmışdır. Bir neçə hekayə və yumoristik yazılarla mətbuatda çıxış etmişdir."

> *"Sənətkar qocalar, sənət qocalmaz,*
> *Sənətsiz həyatda kimsə ucalmaz."*
>
> ***(Qurbanəli İsmayılov)***

2013-cü il 19 dekabr tarixdə Sabirabad rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Əhməd Ramazanovun adından bir məktub-bağlama aldım. Məktubda mənə və iş yoldaşlarıma səmimi salamlarla bərabər Sabirabadla bağlı olan kitab-albom da gəlmişdir. (Onları şəxsi arxivimdə saxlayıram-F.B.).

İdarəmizə mənim adıma olan poçt ilə bir bağlama gəldi. Qurbanəlinin göndərdiyi iki cild kitab və video kaseti müdirimizə verdim. (Kasetdəki Qurbanəlinin iştirakı ilə çəkilmiş bədii proqramlı tədbir tamaşası idi). Sabirabadlı dostum telefonla danışanda, məndən xahiş etdi ki, onun kitablarındakı səhvləri yazıb və məktubla ona göndərəm.

Qurbanəlinin dünya görüşü az olduğundan və dini tarixi məqamları bilmədiyindən (hələ də ateist kimi olduğundan) kitabındakı dindarları mənfi obrazda qələmə almışdır. Habelə xalqımızın ənənəvi (farslardan keçmə) "Zərdüşt" (atəşpərəstlik) dini olan "Novruz" bayramının yaranma tarixini ərəblərə, yəni İslam mənəviyyatına bağlamışdır. Bu da oxucuda müəllifə qarşıdurma yaradırdı.

Mən bütün bunları bir dindar şəxs və ziyalı kimi yazıb səhvlərini ona göndərdim. Məktubda Naxçıvanda çıxan "Şərq qapısı" qəzetində dini xəbərlər olan bir nömrə və ona namaz qılmağı öyrənmək üçün şəkilli yazı nümunəsi də göndərdim. Qurbanəli telefonda sonuncu dəfə mənə bu sözləri dedi; "Əgər kitablarımda səhvlər olsa idi, mənə "Qızıl qələm" mükafatı verilməzdi." Özündən razı və təkəbbürlü olan sabirabadlı dostum bu sözlərdən sonra mənimlə dostluq əlaqəsini kəsdi.

> *Təkəbbürlü olma, düşün, çalış xoşbəxt keçsin günün*
> *Təkəbbürlü olsan əgər, tez başa çatar ömrün.*
>
> **(Adil Qasım)**

2014-cü ilin fevral ayında məktubla Sabirabad Rayon Mədəniyyət və Turizm şöbəsi ünvanına, təzəcə nəşrdən çıxmış "Nuh yurdu-Naxçıvan" adlı kitabımdan dörd ədəd göndərdim.

Hədiyyə göndərdiyim kitablar, Naxçıvan MR-ın yaradılmasının 90 illiyinə 3-cü təkmil nəşri idi. Məktubda Sabirabad mədəniyyət işçilərini Naxçıvan mədəniyyət işçiləri adından salamlayırdım. Şöbə müdirinə bildirdim ki, kitabların birini keçmiş mədəniyyət işçisi Qurbanəliyə və qalanları isə Rayon Mədəniyyət şöbəsinə hədiyyə verilsin. Bir neçə gündən sonra telefonla Sabirabad Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Əhməd Ramazanov, məni təbrik edərək və kitablara görə məmnun olduğunu bildirdi.

2014-cü ilin aprelin 12-də Sabirabad Rayonundan mənim telefonuma bir nəfər zəng edərək və mənimlə dost olmasını bildirdi. Ona verilən Sabirabada göndərdiyim "Nuh yurdu-Naxçıvan" adlı kitabıma görə üzün görmədiyim bir gülərüz oğlan telefonla məni təbrik etdi.

Həmin şəxs, 1961-ci ildə Şirvan (keçmiş Əli Bayramlı) rayonunun Güdəcühür kəndində, ziyalı-maarifpərvər bir ailədə doğulmuşdur. İxtisasca tarzən-musiqiçi 27 ildir ki, rayondakı Güdəcühür kənd Mədəniyyət Evində müdir işləyir.

O, uzun illərdir ki, öz sevimli işi ilə yanaşı, respublika mətbuatı səhifələrində də maraqlı yazıları ilə tanınmışdır. Mahir Əbilov hal hazırda Bakıda çıxan "Mədəni həyat" jurnalının zona müxbiridir. Əvvəlcədən mənə telefonla məlumat verən sabirabadlı Mahir Əbilov, tezliklə poçt ilə mənə bir məktub-bağlama da göndərdi.

Məktub-bağlamada iki ədəd yazdığı "Ömür, hara tələsirsən?" adlı portret və oçerklər kitabları ilə, "Mədəni həyat" adlı elmi, metodiki və publisistik jurnalının (baş redaktor Yaşar Əliyevdir) 2012-ci il 8 saylı nömrəsi də var idi. Həmin jurnal nömrəsində Elçin Tağıyevin imzası ilə yazılmış, "Qabaqcıllar sırasında" (Əbilov Mahir haqqında) adlı müxbir yazısı dərc olunmuşdur. (Mahirin göndərdiyi kitabın birini də, idarəmizə hədiyyə verdim). Mahirin göndərdiyi kitabı diqqətlə oxuyaraq və aprelin 26-da qurtardım. Əvvəlcədən müəllif mənə kitabla əlaqədar iradların deyilməsini xahiş etmişdir.

Mən onu bir daha təbrik edəndən sonra bu sözləri dost yana dedim: "Kitab pis yazılmamışdır. Yaxşı olardı ki, burada həmin ərazidəki mənəviyyat qulluqçuları ilə qadın elm adamları da öz əksini tapa bilərdi." Dostum mənim iradlarımdan məmnun olaraq və məndən razılıq etdi...

Dost qədrini hər dost bilməz hərzə sözə aqil gülməz,
Dostunu dar gündə sına, sadiq dostun üzü dönməz.

(Adil Qasım)

"Onların nə malları, nə də övladları heç bir vəchlə Allahdan qurtara bilməz. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar."

(Mucadələ surəsi, 17)

“Balıq başdan iylənər...”

Xalqımızın hikmətli və gözəl ata sözləri vardır. Bu gözəl sözlər heç də elə belə deyilməyib. Hər hansı bir haqsızlıq özünü göstərəndə, aqillər başa düşsünlər deyə, həmin ata sözləri ilə təskinlik tapmışlar. Doğrudan da hər hansı bir ölkədə adi və kimsəsiz adamlar arasında haqsızlıq olarsa, bu işlərə şübhəsiz ki, yüksək vəzifə sahiblərinin xalqına qayğısızlığı səbəbindən irəli gəlir.

Keçmiş zamanlarda hakim başçılar libasların dəyişməklə xalqın içərisində olardılar ki, gözləri ilə görüb və qulaqları ilə də eşitdikləri yaxşı-pisi sonradan ədalətlə ayırd etsinlər. Lakin atalar demişkən, ”balıq başdan iylənər...”

Bu kitabımı yazarkən Azərbaycan televiziyası kanalları ilə Bakıda baş vermiş yüksək rəhbər işçilərin (Azərbaycan Milli Təhlükəsizlik Naziri General-mayor Eldar Mahmudov) özbaşınalıq hərəkətləri xəbərlər vasitəsilə tənqid olunurdu. Lakin nə olsun, atalar demişkən; ”Doğan da özləridir, bəlayəndə özləri.”

Əlbəttə hər vəzifəli şəxsə heç bir dövlət əhəmiyyətli iş görmədən yüksək hərbi rütbə verilməməli. Bu cür imkanlı şəxslər imkansızları kölə vəziyyətinə salmaqla, harınlıq edərək nəinki xalqı, habelə çörəyini yediyi dövləti və hökuməti də saymazlar. Torpaq ərazilərimizin 20 faizdən çoxu düşmən əlində olduğu halda, hansı böyük işlər görmüşlər ki, bu cür yüksək qulluq sahiblərinə yüksək hərbi rütbələr verilsin. Mənim tale yollarının daşlı-kəsəkli olmasına səbəb, məhz harınlamış vəzifə sahibləridir. Allah bu cür vəzifə sahiblərinə lənət etsin!

2014-cü ilin may ayının 8-i idi. İşimdə oturmuşdum və direktorluq tərəfindən məlumat gəldi ki, idarəmizə Naxçıvan MR Təhlükəsizlik Nazirliyindən bir cavan oğlan gəlmişdir ki, işçilərlə tək-tək görüşmək istəyir. (Sovet dövründə də DTK-nin işçisi İvan adlı bir nəfər hərdən bir Mədəniyyət Nazirliyinə gəlib-gedərdi).

“Kurator” deyilən bu cavan oğlan, direktorun otağında bir-bir işçilərimizlə maraqlanıb və “tanış olmaq” istəyir. Coşqun adında həmin kurator yanına məni də çağırdı. Mənim kimliyimi, savad dərəcəmi, ailə uşaqlarımı, harada onların oxuyub və işləmələrini, və hətta yaxın qohumlarım haqqında da soruşaraq məlumat topladı.

Ən maraqlı suallardan biri bu oldu ki, mən niyə namaz qılıram və istər iş yerimdə və istərsə də məsciddə “vəhhabiliklə” məşğul olanların adlarını ona deyəm. Bildirdim ki, ibadəti yaşlı adamam Allah üçün edirəm ki, dünyadakı günahlarım bağışlansın. Qaldı ki, nəinki iş yeri ilə məsciddə, bildiyimə görə heç sən deyən adamlardan Muxtar Respublikada yoxdur.

Ayda aldığım əmək haqqı ilə və aldığım təqaüdlə də maraqlanan kurator, mənə bildirdi ki, yaşım çoxdur bu işlərdə cavanlar işləməlidir. Bilirdim ki, onsuzda mədəniyyət sahəsində əmək haqqı aşağadır. Qaldı ki, bazarda hər şey baha olduğundan, dolanışıq da çətindir.

Kurator mənə hirslə dedi: "Əynindəki geydiyin bahalı paltar sübut edir ki, dolanışıq vəziyyətin əladır. Mənim savadsız atamın üst-başına baxasan və fəhləlikdən sənin aldığın əmək haqqının yarısını alsa belə heç vaxt gileylənməz." Bu sözə dözə bilməyib və kuratora dedim: "Mən təhsilli ziyalı, sənin atan isə təhsilsiz fəhlədir dedim." Kurator tutularaq və mənə sakitcə belə dedi: "Gedə bilərsən."

Ertəsi gün nazirimiz məni yanına çağıraraq kuratoru təhqir etməyimi bildirdi. Bundan sonra özüm də səbirsizliyimə görə yaxşı söz demədiyimi anladım. Üç gün işə gedərkən yol üstü Təhlükəsizlik Nazirliyinə getsəm də kuratoru görə bilmədim...

*Həmin ilin 9 iyun tarixində səhər işə gedərkən müdirimiz məni otağına çağıraraq və mənə belə dedi: "Feyruz müəllim, səni mən çoxdan tanıyıram. Bacarıqlı və savadlı bir ziyalısan. Sənə idarəmiz adından **"Fəxri Fərman"** yazıb və möhürlə təsdiq etmişəm. Səni bu barədə idarəmiz və şəxsən öz adımdan təbrik edirəm. Xahiş edirəm ki, nazirin tapşırığına görə işdən çıxmağına bir ərizə yaz ver".*

Sonra direktor N.Əzizəliyev mənə Naxçıvan MR Ali Məclisin sədri tərəfindən təsdiqlənmiş bir Sərəncamı göstərdi. Sərəncama görə; "İdarə və müəssisələrdə işləyən işçilər, əgər Dövlət tərəfindən Fəxri adları yoxdursa, o işçilər təqaüdə çıxandan sonra, idarə və müəssisə rəhbəri ilə bağlanan müqaviləyə əsasən yalnız iki il müddətində işləyə bilərlər".

Həmin anda bir yerə baxdım, bir göyə baxdım və təzədən otaqdakı üzü mənə gülümsəyən müdirə baxdım və öz taleyimə acıdım. Mən bildim ki, mənə "güllə" haradan dəymişdir. Mənim səbirsizliyimdən və nazirin mənə qarşı olan "hörmətindən" irəli gələn əhvalatların nəticəsi də belə olmalıdır. Öz-özümə təskinlik verərək və Allaha şükür etdim.

> *Hər işi görməyə bir səbir gərək, səbirlə torunu qurur hörümçək*
> *Səbirlə açılır bütün düyünlər, səbrinə dözümün vardırsa əgər.*
> *Səbirlə yaranıb səma, kainat, səbirlə aləmə verilmiş həyat*
> *Səbirsiz insanın taleyi gülməz, günəş də səbr ilə heç zaman sönməz.*
>
> **(A. Qasım, "Həyata baxış")**

Əlli ilə yaxın dövlətə qulluq edərək başıma müxtəlif haqsızlıqlar gəlmiş və səbirsiz insan kimi, taleyim üzümə gülməmişdir. Bu da başıma gələn müsibətlərdən biri idi. Direktora ərizə verəndən sonra mənə 12 №-li əmrlə 09 iyun 2014-cü il tarixində idarə rəhbəri ilə mənim aramda bağlanmış, 2006-cı il 01 sentyabr tarixli əmək müqaviləsinə xitam verildi.

Rəhmətlik atamı da o vaxtlar işdən çıxaranda, başın bulayaraq bu sözləri qəmgin və ahəstə deməsi yadıma düşdü; "Ev vay atam vay, bəədəzor anam vay." "Kimin taleyi bu dünyada güldür-çiçəkdir, kiminsə taleyi tikanlı koldur." "Vəzifən var dostun çoxdur, vəzifən yox dostun yoxdur."

Bununla da Bağırov Feyruz Abdulla oğlunun adına yazılmış 15 iyun 1964-cü ildə başlanmış Əmək kitabçasının 28 saylı sonuncu iş yerinin əmrinə görə tutduğum vəzifədən azad olundum. (Mədəniyyət üzrə keçmiş kuratorun şəxsi mədəniyyəti olmadığından, başqası ilə əvəz olunmuş və nazirin də işində ciddi səhvləri olduğundan vəzifəsindən azad olunur).

Ömür karvanının sonudur daha,
Atımı dördnala çapa bilmirəm.
Ömrüm əriyibdir quzey qarı tək,
Keçmiş cavanlığı tapa bilmirəm.

(Həsənəli Eyvazlı)

"Biz hər şeyi hesaba alıb açıq-aydın Kitabda (Lövhi-Məhfuzda) təsbit etmişik."

(Yasin surəsi, 12)

Taleyimdəki gizli iztirab

2014-cü ilin dekabr ayının ortaları idi. Havalar soyuduğundan bərk xəstələnmişdim. Xəstəliyimlə əlaqədar mənə evdə bədənimin möhkəmləşməsi üçün bir dəst (10 ədəd) iynə vuruldu. Bir müddət nisbətən yaxşılaşsam da, sonradan güclü yağışa düşərək tamam islandım. Yenidən xəstələnsəm də bütün bunlara əhəmiyyət vermədim. Neçə ay idi ki, mən gizli surətdə iztirab çəkir və işdən çıxarılmağa görə daxili əsəbilik keçirirdim. Heç kəsə dərdimi deyib ürəyimi boşalda bilmirdim.

2015-ci ilin fevralın 27-də başım gicəldiyi üçün, yoldaşım Mehribanla birlikdə şəhərdəki Diaqnostika Müalicə Mərkəzində olduq. Orada bədənin daxilinə baxmaq üçün Ultrasonoqrafik müayinə "Report Printout" aparatına düşməli oldum. Həkim Əliyev Vüsal və Fərəcova Vüsalənin işlətdikləri aparatda daxili üzvlərim sağlam və normal olunduğuna aid printer göstəricisini mənə verdilər. Həkimlər pul alaraq və mənim bədənimdəki daxili üzvlərimin sağlam olmasını bildirsələr də, lakin günü-gündən artan baş gicəlməsinə əlac etmədilər.

2015-ci ilin mart-aprel aylarında həyətimizdə torpaq işlərində çox işləyərək və qurumuş ağacların yerində təzə tinglər əkməyə başladım. İkinci dəfə idi ki, bərk yağan yağışa düşərək islandım. Bundan sonra daxili əsəbilik (stress) nəticəsində məndə baş gicəlmə ilə halsızlıq yarandı.

Əczaxanadan aldığımız dərman həbləri qəbul etsəm də, xeyri olmadı. Həyat yoldaşımla bir neçə dəfə şəhərdəki tanıdığımız həkimlərin müayinəsində olsam belə, xəstəliyim gündən-günə artmağa başladı.

XX əsrin sağalmaz xəstəliklərindən biri də "Şəkərli diabet"dir. İnsan bədənindəki qan damarlarında şəkərin miqdarı normadan artıq olanda bu xəstəlik özünü biruza verir. Bu xəstəlik baş verəndə insanda baş gicəllənməsi, halsızlıq, iştahasızlıq və arıqlama prosesləri başlayır.

Tibb elmi indiyədək bu xəstəliyə qarşı əsaslı dərman tapa bilməmişdir. Yalnız kiçik həcmli "Diamicron" adlı həbləri yeməkdən qabaq orqanizmə daxil etməklə, xəstəliyin güclənməsi nisbətən azalır.

Xəstəliyin yaranma səbəblərini həkimlər əsasən irsi yolla nəsildən-nəsilə keçdiyini izah edirlər. Lakin sağlam insan birdən-birə kədərli hadisə ilə rastlaşıb kədərlənərsə və ya daxili əsəbilik (buna stress də deyilir) keçirərsə, orqanizmdə dəyişiklik nəticəsində qandakı şəkərin miqdarı artır. Xəstəliyimlə ilk olaraq şəhər Təcili Yardım Stansiyasında işləyən Rasim həkim müalicə metoduna başladı. O, məni müayinə etdikdən sonra, bir neçə dərman preparatını qəbul etmək və qan damarıma da vitaminli mayelər yeritməyi bildirdi. Həkimin dediklərinə əməl olunsa belə, mənim xəstəliyim gündən- günə artmağa başladı.

Əvvəllər mənim ayaqlarımda sümük ağrıları (revmatizm) olsa belə, indi həmin sümük ağrıları yenidən başladı. Həkim bununla əlaqədar əczaxanadan maye sürtgü dərmanı alıb və axşamlar ayaqlarıma sürtməyi bildirdi. (Üç gün həmin maye dərmanları ayaqlarıma sürtsəm də, heç bir köməyi olmadı). Bir nəfərin dediyi xalq təbabəti ilə müalicə dərmanı olan arı balı ilə cikirtkan yarpaqlarını bir yerdə əzib və ağrıyan ayaqlarıma sürtdüm. Bundan sonra ayaqlarımın ağrısı kəsdi. Bir müddətdən sonra mənim bədənimdə xüsusən gecələr qaşınma halları baş verdi.

Qaşınmadan bədənimin bütün hər yerində yaralar əmələ gələrək və qan axma ilə nəticələndi. Bununla əlaqədar şəhərdəki Dəri Xəstəxanasına getdik. Orada şöbə müdiri işləyən Gülşən adlı qadın həkimin göstərişi ilə əczaxanadan maye dərman alıb dərimə sürtsəm də, yenə də heç bir nəticəsi olmadı.

Şəhərdəki Diaqnostika Müalicə Mərkəzində (həkim-funksionalist Seyidov Vasif idi) olub və oradakı Ultrasonoqrafik müayinə "USM" deyilən elektron aparata düşdüm.

Həkimlər mənə sağlam desələr də, yenə də halsızlıq və baş gicəlmə ilə iştahasızlıq məni əldən salırdı. Gecələr dəri qaşınması məni çox incidirdi. Şəhər xəstəxanasında terapevt Hacıyev Abbas həkimin də yanında olduq. O, məni müayinə edərək bildirdi ki, qanımda şəkərin miqdarı çox olduğundan müəyyən yemək və içməkdən çəkinməliyəm.

Şəhər xəstəxanasında yenidən olaraq, orada mənim daxili orqanlarımı aparata salıb və mənə bildirdilər ki, öd kisəmdə kiçik "daşlar" olduğundan (bağırsaq iltihabı) və mədədə yemək düzgün həzm olunmadığı üçün "sarılıq" xəstəliyi baş vermişdir.

Ağzım və dodaqlarım tez-tez quruyaraq su çox içirdim. Şəhərdəki Şəkərli Diabetə qarşı Xəstəxanada (qan və sidik laboratoriya analizindən sonra) mənə, Seyidov Mir Kamal həkimin verdiyi arayışla, (hər ayın 16-da) şəhərdəki xüsusi əczaxanadan "Diamicron-MR" (Gliclazide) (Fransa) adlı ağ rəngli kiçik həblər aldıq. Bundan əlavə Səhiyyə Nazirliyindən ev şəraitində qanımdakı şəkərin (qlükozanın) səviyyəsini ölçmək üçün mənə "Contour-TS" (Yaponiya) miniatür elektron cihazı da verildi.

Qandakı şəkərin miqdarını ölçmək üçün, miniatür elektron cihazı komplektindəki "iynə" ilə əl barmaq deşilərək və qan çıxmalıdır. Sonra komplektdəki kiçik və nazik "bıçaq"la barmaqdan qan götürülüb və cihazın uc hissəsinə taxılır.

Bu vaxt cihazın ekranında rəqəm görünür. Cihazdakı görünən rəqəmi 18-ə vurmaq lazım gəlir. Bundan sonra xəstənin damarlarındakı qanın tərkibində nə qədər şəkər olması müəyyən olunur. (Qanın tərkibində olan 100 rəqəmli göstərici, damarlardakı qanın tərkibində olan şəkərin normal olmasını bildirir).

Mənim xəstəliyimlə əlaqədar ailə üzvlərim, xüsusilə həyat yoldaşım və kiçik oğlum çox darıxırdılar. Hər gün evimizə yaxınlarımız gəlib və dərdimə şərik olmaqla mənə təskinlik verirdilər.

Lakin nə etmək olardı, əvvəla Qurana görə insan bu dünyadakı xəstəlik və çətinlikləri öz günahı üzündən qazanır. İkinci bir tərəfdən isə Allahın yazdığı tale kitabında nə olmalıdırsa, o işdən yaxa qurtarmaq mümkün deyil.

> *Oyanıq taleyi olunca rəhbər, zülmətdən dışarı çıxdı İsgəndər,*
> *Çox gözəl rəhbərlik eylədi madyan, bir az da azmadı getdiyi yoldan.*
> *İlk gündə keçdiyi zülmət xəttinə pərgartək yenidən qayıtdı yenə,*
> *Padşaha taleyi eylədi kömək, işıqlı dünyaya çıxdı sevincək.*
>
> **(N. Gəncəvi, "Şərəfnamə")**

Bir neçə gündən sonra ayaqlarımda yenidən ağrılar başladı. Revmatik xəstəlik görünür harada isə yenidən özünü göstərmişdir. Üç gün əczaxanadan aldığımız kiçik şüşə qablarda olan ağ rəngli maye sürtgü dərmanından istifadə etdim.

Mayeni ayaqlarıma sürtsəm də, ertəsi günü yenidən ağrılar başlayırdı. Gəlinimiz Ülviyyə kəndlərindən mənim üçün "Benqay" adlı sürtgü mazı gətirdi ki, ayaqlarıma sürtəm. Həmin mazdan ayaqlarıma sürtəndə soyuqluq hiss etsəm də, tezliklə ayaqlarımın ağrısı sağaldı.

2015-ci ilin 18 iyul (Şənbə günü) tarixində səhər- səhər oğlum Musanın maşınında nəvəm Nicatla bərabər Məscidə getdik ki, orada "Ramazan bayramı" namazını camaatla birlikdə qılaq. Başım gicəldiyindən namazdan sonra, nəvəmin əlindən yapışıb təcili evə gəldik. Gün-gündən bədənimdəki ağrılar çoxalır, baş gicəlmə artır, ağzım quruyur, iştaham pozulur və axşamlar isə qaşınma artırdı. Mən axşamlar narahat olub və gecələr isə yata bilmədiyim üçün, gündüzlər mənim halsızlığım artırdı.

Avqust ayının 15-də Şənbə günü, həyat yoldaşım və kiçik oğlum Hafizlə getdik şəhərdəki köhnə xəstəxanaya. Orada növbə gözləyib və xüsusi rentgen aparatına düşdüm ki, görək dərdim nədir? Rentgen otağında işləyən bir qadın həkim idi.

Məni qəribə formada aparatın altında oturdaraq (başım aşağı, əllərim yanımda və ayaqlarım da dizlərdən bükülü vəziyyətdə) qarnım aparatın ekranına tərəf, nəfəs alıb verməklə bədənimdəki bütün əzalarımın foto şəkillərini çəkdilər. Sonra məni otaqdan bayıra çıxardan həkim, yoldaşım və oğluma demişdir ki, xəstənin öd kisəsində kiçik daşlar var. Bununla əlaqədar olaraq qara ciyərdən mədəyə axıb gələn maye işləmədiyindən və mədə altı vəzdəki anormallıq nəticəsində bədəndə qaşınma olur.

Bu xəstəliyə "Sarılıq" deyirlər ki, xəstənin ürək və ciyərləri və habelə böyrək vəzlərində digər xəstəlik olsa idi , yəqin ki, sizin xəstə yatağa düşərdi. Həkim bədənimdəki daxili üzvlərin (40 ədəd kiçik çəkilmiş foto şəkillərin) neqativ selliod lentini (34x42 sm ölçüdə) verib və bizi baş həkimə məsləhətə göndərdi. Baş həkimin köməkçisi foto lentdəki analizin cavablarına baxaraq və mənim nəbzimi yoxladıqdan sonra, bildirdi ki, sarılığa görə xəstə təcili olaraq, günü sabah müalicə olunmalıdır.

19 avqust Çərşənbə günü getdik şəhər Xəstəxanasına son dəfə olaraq bədənimdəki daxili üzvlərin nəticəsini "USM" elektron müayinə aparatında baxılaraq və şəkilləri çəkilsin. Orada adam növbəsi çox olduğundan, aparat həkimi Əliyeva Gülşən telefon nömrəsini bizə verib bildirdi ki, axşam üstü ora gedək.

Telefonla həmin həkimlə danışandan sonra axşam üstü onun yanına getdik. Məndə bir bəxt var ki, "su üçün əgər çaya getsəm belə, axar çayın suyu quruyar." Xəstəxananın elektrik sistemi işləmədiyi üçün xeyli vaxt orada gözləməli olduq. Nəhayət son olaraq bədənimdəki daxili orqanların vəziyyətinin foto şəkilləri kağıza köçürüb və bizə verdilər.

Səhiyyə Naziri Niyazi Novruzov mənim xəstəliyimlə əlaqədar bir neçə həkimlə danışandan sonra, xəstəliyimin müalicəsini Diaqnostika Müalicə Mərkəzinin direktoru həkim-cərrah Hüseynəliyev Abasət Həsən oğluna həvalə etmişdir.

2015-ci ilin 20 avqust Cümə axşamı günü kiçik oğlum Hafiz və yoldaşım Mehriban məni apardılar şəhərdəki Diaqnostika Müalicə Mərkəzinə. Abasət həkim xəstəliyimlə əlaqədar bir neçə sual verəndən sonra və məni Müalicə Mərkəzinin Rentgen otağında bir daha daxili orqanlarımın foto şəklinin çəkilməsini bildirdi.

Rentgen otağındakı qadın həkim mənim daxili orqanlarımın foto şəklini çəkdi. Həkim bildirdi ki, soyuq sulardan çox istifadə etməklə mədəaltı vəz xəstəlik tapmış və ürək damarlarının da biri işləmir.

Tibb bacısının müşayiəti ilə Müalicə Mərkəzinin 2-ci mərtəbədəki xəstələr yatan 3-cü otağa gəldik. Otaqda üç avtomat tipli çarpayı qoyulmuşdur. İki nəfər xəstə yatan otaqda məni də yerləşdirib və oranın paltarını əynimə geyindirdilər. Həmin gün xəstələr arasında özümü tənha hiss etdim.

Taleyimə biganə olaraq, bu yaşımda ölüm qapısında olduğumu indi anladım. Qanım az olduğundan oğlanlarım və qızım bu işdə fədakarlıqla mənə yardım etdilər. Gözləri dolan həyat yoldaşım və övladlarım otaqdan gedərkən, fikirli halda yerimdə uzandım. Həmin gün axşam üstü mənə lazım olan ilk müalicəni etdilər...

> *"Xəstələndiyim zaman mənə yalnız Allah şəfa verir."*
>
> **(Şuara surəsi, 80).**

21 avqust Cümə günü məni tezdən paltarımı soyundurub və tibb bacısının müşayiəti ilə apardılar Əməliyyat otağına. Həmin otaqda bir neçə nəfərin iştirakı ilə yataqda uzanmış vəziyyətdə xəstəyə xüsusi iynə və ya daxili nəfəs orqanına narkoz yeritməklə huşdan çıxarılır.

Beləliklə xəstənin heç nədən və ağrıdan xəbəri olmadan, qarın nahiyəsindəki dəri kəsilir və daxili orqanda əməliyyat aparıldıqdan sonra kəsilmiş dəri yenidən tikilir. Mənim sağ tərəfdən (qabırğanın altından) dərim kəsilmiş, öddə daş olduğundan və yaxşı işləmədiyindən, qara ciyərlə mədə arasında nazik elastik boru qoymuşlar. (Həmin boru ilə mədəyə axan hormon (turşu) həzmi yüngülləşdirib və bağırsaqlara ötürülür).

İki gün əl damarlarıma (sistem qoşmaqla) xüsusi vitaminli dərman mayesi axıdılır və yançaqlara isə ağrı kəsici iynə vurulurdu. (Birinci gün ağrının hiddətindən çığırmağa başlasam da, tibb bacıları köməyə gəlmədilər). Qarnımdakı kəsilmiş yerin altında qoyulmuş artıq qanın ifrazı üçün və sidik tənasül üzvi ilə burnuma soxulmuş rezin borular məni çox incidirdi.

Allah heç kəsi nə xəstə etsin və nə də ki, bu vəziyyətə salsın. Quranın Nisa surəsində belə bir ayə vardır; ***"Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən pislik isə özündəndir..."*** *(4/79). Deməli bu nəticəyə gəlmək olar ki, insan öz sağlamlığını qorumağı bacarmalıdır. Mərkəzdə qaldığım otaqda yatan xəstələrlə tanış oldum. Maraqlıdır ki, həmin xəstələrin dəriləri kəsilib tikiləndən sonra iki gündən artıq qalmalarına izn verilmirdi. (Həkimlər xəstələrə məsləhət verdikdən sonra evlərinə göndərirdilər).*

Qaldığım otaqda lazım olan hər bir şərait yaratmışlar. Otağın bir hissəsində isti-soyuq su olan hamam-tualet, əl üz yuyan, sərin havalandırma sistemi var idi. Baş və ayaq hissəsi qalxıb enən çarpayı, təmiz və səliqəli xidmət, habelə gün ərzində üç dəfə çay ilə xüsusi yeməklər də verilirdi.

Həkimlər hər gün səhərlər gəlib xəstələri yoxlaması və tibb bacılarının səhər tezdən gecəyədək xəstələrə lazımi qaydada qulluq göstərilirdi. Mərkəzdə xəstə yatarkən hər gün yanıma yoldaşım, uşaqlarım, nəvələrim və yaxın qohumlar məni yoluxmağa gəlirdilər.

2015-ci ilin 31 avqust tarixi Bazar ertəsi müalicə olunduğum xəstəxanadan mənə xidmət göstərən həkim və tibb işçiləri ilə sağollaşaraq, yoldaşım Mehriban və oğlum Hafizlə bərabər otaqdan çıxdım.

Oyandım sabah ilə, göz yaşımı silə-silə,
Əcəl sazını çaldı, döndüm saralmış gülə,
Səsim qalxdı fəryada, nələr gördüm dünyada.
Əridim gilə-gilə, qəmi gətirdim dilə,
Oldum halı pərişan, ömrümü verdim yelə,
Düşdüm bir yanar oda, nələr gördüm dünyada.
Fələk eylədi zülüm, qəm gətirdi tale yüküm,
Şükür olsun Allaha, mənə qıymadı ölüm.

5 sentyabr Şənbə günü oğlum Hafizlə bərabər yenidən Diaqnostika Müalicə Mərkəzinə getdik və orada qarnımdakı kəsilmiş yerin tikiş sapını kəsdilər. Qəribədir ki, mənə baxan həkim Abasət Həsən oğlu, telefonda oğlumla danışsa belə, bizdən yana tikiş kəsilmə otağa gəlmədi.

Xəstəliyimin sağalmasına evimizdəki davamiyyətə yoldaşım Mehriban, oğlanlarım Musa ilə Hafiz habelə qızım Tərənə və gəlinim Ülviyyə mənə qayğı göstərirdilər. Nəvələrimdən İlkini hələ xəstəxanaya düşməzdən əvvəl əsgərliyə yola salmış, bacısı Güllü də xaricdə oxumaqdan gəlmişdir. Nicatla Nigar isə hər gün mənim yanımda olur, Arif isə bizə gəlməyən günlərdə telefonla Allahdan mənə kömək diləyirdi.

Evimizə qohumlar məni soruşmağa gəlib getsələr belə, ən çətinliklər həyat yoldaşımın üstünə düşürdü. İyirmi birinci əsr "İnternet texnologiyaları" əsri olduğundan, oğlum Hafiz İnternet vasitəsilə xarici ölkələrdən mənə lazım olan dərmanları sifariş edərək və Mərkəzi Poçtdan alıb gətirirdi.

Onun köməyi ilə İrandan "Zərdəçal" (Turmeric) (sarı bibər tozu), səhər yemək üçün "Propolis" (arı mumu), Türkiyədən "Quşqonmaz" (qamış göyərtisi) və Almaniyadan (mədədə normallıq yaradan) "Kreon- 10000 lu" kapsulları, habelə Şəkər diabetinə qarşı xüsusi "Çovdar çörəyi" ilə digər ərzaqları alıb gətirirdi. Oğlum Hafiz mənim üçün "Natural Graviola (ABŞ) və "Asparagus" Younq Shoots (ABŞ), Shatavari (Asparaqus racemosus) (Hind) adlı bitki mənşəli dərman kapsullarını da alıb gətirdi.

2015-ci ilin 24 sentyabr (Cümə axşamı günü) tarixində oğlum Musanın maşınında nəvəm Nicatla bərabər Məscidə getdik və orada "Qurban bayramı" namazını camaatla birlikdə qıldıq. Bundan sonra həkimlər mənə xəstəliyim sağalınca, oturaq halda ibadət etməyi məsləhət bildilər...

Dünyada qalacaq ayaq izlərim, bir də ürəyimdən gələn sözlərim
Qəlbimdə sönəcək xatirələrim, sədası qalacaq mən olmayanda.

(A. Qasım, "Həyata baxış")

2015-ci ilin 16 noyabr (Bazar ertəsi günü) bağırsaqlarımda kəskin ağrılar olduğundan, şəhər xəstəxanasındakı Ultrasonoqrafik (USM) müayinəsindən keçdim. Həkim Əliyeva Gülşən məni müayinə edəndən sonra, özümü soyuq havadan qorunmağımı bildirdi.

"Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey baş verməz."

(Tövbə surəsi, 51)

Taleyimdəki stress və depressiya

İnsanlarda mənfi fizioloji proseslərdən biri də stress və depressiya əlamətləridir. Bu kimi mənfi hallar insan orqanizminə haradan gəlir? Bunun bir cavabı vardır ki, insanda birdən-birə gözlənilmədən qorxu, həyəcan və kədər hadisəsindən sonra tədricən yaranır.

İnsan birinci halda gərəkdir ki, səbirli olaraq və Allaha sığınmalı, dindən kənara çıxmamalı, özü-özlüyündə sıxıntıya girməyərək və hər şeyin Allahın yazdığı tale (qədər) yoluna "daş atmamalı"dır. İnsan həyatında baş vermiş və gələcəkdə də veriləcək yaxşı-pis işlər yalnız talenin hökmünə bağlıdır.

Dini əxlaqı yaşamayan insanların Allaha etibar edib təslim olmamaqları onların öz həyatını həmişə qəm-kədər, sıxıntı və stress içində keçirməsinə səbəb olur. Bütün bunlara görə də insan tez bir vaxt ərzində psixoloji amillərlə bağlı olan xəstəliklərə düçar olur. Həmin insanların bədənləri "qocalır", dəriləri qırışır, gözlərinin nuru azalır, hər şeyə əsəbiləşərək və ruh düşkünlüyünə qapanırlar.

Müasir dövrdə stress və depressiya, insana yalnız psixoloji baxımdan zərər verməklə kifayətlənməyərək və özünü bədəndəki müxtəlif mənfi fiziki təsirlərə məruz qoyur. Stress və depressiya nəticəsində insanda yuxusuzluq, dəri qaşınmaları, mədə xəstəlikləri, ayaqlarda revmatizm xəstəliyi, böyrək və öd kisəsində daş yığını, allergik xəstəliklər və sairə baş verir.

İnsandakı stress nəticəsində bədəndəki müvazinət pozulmaqla, ümumi gərginlik yaranır. İnsan stressə məruz qalanda, bədəni buna müqavimət göstərməklə və xəbərdarlıq siqnalı yaranır. Belə ki, orqanizmdə biokimyəvi reaksiyalar baş verir.

Stress nəticəsində insan bədənindəki qanın tərkibində adrenalinin dozası artır, şəkər, xolesterol və yağ turşuları qana qarışmaqla nəticədə ürək döyüntüsü artır. Xroniki stress bədən funksiyalarını dəyişməsi nəticəsində orqanizmdəki adrenalin və kortizolun miqdarı artır. İnsandakı stress və depressiyadan kortizol hormonunun çoxalması nəticəsində şəkər diabeti və dəri qaşınmaları baş verir. Əgər orqanizmdəki kortizol hormonu daha da yüksələrsə, o halda beyin hüceyrələri məhv ola bilər.

Stress zamanı insandakı damarlar daralır, və başa gedən qanın miqdarı azalır. İnsandakı stress zamanı sinir sisteminə təsir edən adrenalin və noradrenalin kimi maddələrin ifrazı artır. Nəticədə əzələ gərginliyi çoxalaraq, orqanizmdə ağrılar baş verir. Stress nəticəsində qandakı leykositlərin zəifləməsi başlayır və bir çox xəstəliklər yaranır. Stress və depressiya insandakı bədən müvazinətini pozan bir vəziyyətdir. Stress və depressiyadan sonra insan orqanizmində narahatçılıq halları baş verir ki onlar aşağıdakılardır;

Sərin suya həvəs (bədənin tərləməsi), danışıq tərzinin (tonunun) dəyişilməsi, dodaqların quruması, qorxulu yuxular görmək, dəri qaşınmaları, iştahasızlıq (həzm pozuntusu), çiyin ağrıları, böyrək və öd ağrıları, allergiyalar, yaddaşın zəifləməsi, bədbinlik, əsəbilik, ümidsizlik və s. İnsandakı fiziki və psixoloji stress əsnasında orqanizmdə adrenal vəzi (böyrək üstü vəzi), qlükokortikoid hormonlardan çox miqdarda ifraz edir. Bu hormonlar əzələlərə əlavə enerji verərkən, həmin anda fəaliyyəti dayandırır. (bax; H.Yəhya, "Quran möcüzələri" İstanbul-2009).

> *"Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərərsə, güzəranı daralar..."*
>
> **(Taha surəsi, 124).**

Stress və depressiya halında orqanizm üçün vacib olan həmin hormonlar, xroniki psixoloji əsəbilik zamanı orqanizmdə arıqlama və mədə yarası kimi pozuntular əmələ gətirir. Bütün bunlardan sonra isə öd yolları fəaliyyətdən düşməklə, görmə zəifləyir və Sarılıq deyilən xəstəlik baş verir.

Sarılıq xəstəliyi- bilirubin və onun məhsullarının qanda daha çox olması nəticəsində dərinin, selikli qişanın və gözlərin sarı rəngə boyanması zamanı baş verir. Sarılıq xəstəliyi əsasən üç formada olur ki, bunlar ***Parenximatoz,*** *(qaraciyər hüceyrələrinin toksiki zədələnməsi) çox vaxt alkoqollu içki nəticəsində qaraciyərin zədələnməsindən yaranır. (Xəstəliyə tutulanlar infeksion olduğu üçün xəstəxana şəraitində müalicə olunmalıdır).*

Mexaniki Sarılıq *xəstəliyi zamanı öd yollarının daralmasından (öddə daş olmasından) öddəki turşunun bağırsağa tökülə bilməməyi və bilirubinin qana keçməsi baş verir. Həmin xəstələrin nəcisi açıq və sidiyi isə tünd rəngdə olur. (Xəstəliyə tutulanlar xüsusilə gecə vaxtı dərisində güclü qaşınma olur).*

Üçüncü ***Hemolitik Sarılıqdır*** *ki, adətən anadangəlmə və sonradan yoluxma zamanı olur. Bu xəstələrin nəcisi və sidiyi tünd rəngdə olur. (Xəstəliyə tutulanlar xüsusilə gecə vaxtı dərisində güclü qaşınma olur). Məndəki bütün bu kimi xəstəliklərə səbəb tale yazıma görə özüm olmuşam. İşlədiyim vaxtlarda cəmiyyətdəki haqsızlıqlar məni sanki bir məngənə arasında sıxaraq və daxili əsəbi sarsıntı keçirmişəm. Bütün bunların da nəticəsində bədənimdə insan orqanizmi üçün fəsadlar törədən stress və depressiyaya məruz qalmışam.*

Azad bir dövlətin "azad vətəndaşı" olsam belə nəvəm Nicatla birlikdə şəhərdəki qoyulmuş Mustafa Kamal Atatürkün büstü önündə çəkdirdiyim foto şəkillərə görə, Mədəniyyət naziri Sarvan Hüseynov tərəfindən çəkilmiş həmin lentin məcburən alınıb və qaytarılmağı üçün Muxtar Respublika Prokuror müavininə müraciət etsəm belə şikayətimə baxan olmamışdır...

Azad bir dövlətin "azad vətəndaşı" olsam belə Sovet dövründə "Heydər Əliyev Naxçıvanda olarkən", "Cəmşid Naxçıvanskinin Ev Muzeyinin açılışı" və "Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən Naxçıvana gətirilməsi" mərasimlərindəki çəkdiyim foto şəkillər dəstini (neqativlə bərabər) Heydər Əliyev Muzeyinə, C.Naxçıvanskinin Ev-Muzeyinə, H.Cavidin Naxçıvanda və Bakıdakı Ev Muzeylərinə hədiyyə etsəm belə mənə sağ ol deyən olmamışdır...

Azad bir dövlətin "azad vətəndaşı" olsam belə min bir əzabla yazdığım dini və fəlsəfi kitablarımın nəşr olunmağına ərizə ilə müraciət etsəm belə "ağa qara demədiyim üçün", Dini Qurumlarla iş üzrə İdarənin müdiri Vüqar Babayevdən bu günə kimi ərizəmə heç bir cavab ala bilməmişəm...

Faktlar əsasında tarixi həqiqətləri, Muxtar Respublika Ali Məclisinə məktub yazsam belə indiyədək mənə cavab gəlmədi ki, gəlmədi. Bütün bunlara görə də səbirsiz və daxili əzab (stress və depressiya) nəticəsində xəstəliyə məruz qalmalı oldum.

> *"Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, zamanı müəyyən edilmiş bir yazıdır..."*
>
> **(İmran ailəsi surəsi, 145)**

Arxiv-keçmiş tarix deməkdir

Həyatımın ahıl çağları idi. Artıq yaşım 70-dən yuxarını ötmüşdür. Evdəki gənclik illərindən alıb saxladığım müxtəlif kitablarıma baxır, onları vərəqləyərək və ötən günləri xatırlayırdım.

Evimizdəki mənə məxsus olan otaqda, kompyuter cihazı, böyük kitab rəfi, sayı minə yaxın olan müxtəlif dövlətlərin çəkdikləri kino film surətləri vardır. (Türk, Rus və Azərbaycan dilində olan filmlər, DVD (diqital video disk) və üç saat həcmində olan video kasetlərdə idi). Bundan başqa otağın bir tərəfində televiziya dəstləri ilə müxtəlif müasir tele aparatlar da qoyulmuşdur ki, onlardan istifadə edirdim.

Mənim şəxsi arxivimdə keçmiş günlərdən qalma maraqlı qramplastinka valları, həmin valları oxutmaq üçün radiola, ensiz lentli kamera ilə çəkdiyim kino film lentləri, həmin filmləri göstərmək üçün kino göstərici aparatı da saxlanılır. 16 mm-lik səsli (Rus və Azər dilində) sənədli, tədris və cizgi film surətləri, həmin filmləri göstərmək üçün səsli kino göstərici aparat, maqnitofon lentləri, lentləri oxutmaq üçün miniatür radio maqnitofon cihazı və müxtəlif formalı kiçik həcmli radio qəbuledicilər və s. saxlanılır.

Arxivimdə habelə Sovet dövründə çəkdiyim sənədli və tarixi foto şəkillərin neqativ lentləri, foto və kino kameralar və s. vardır. Haliyyədə çəkdiyim filmlər səsli miniatür diqital video kamera və ona məxsus xüsusi ştativdən istifadə etməklə maraqlı filmlərim vardır. Arxivimdə uzun illərin yığıb saxladığım müxtəlif sənəd və diplomları, qəzet və jurnalları və habelə foto şəkillər olan albomları da vardır. Bundan başqa Sovet dövründən qalma kağız pul ilə dəmir və misdən olan qəpikdən də nümunələr saxlamışam.

Evdəki kitab rəfində çox cildlik Ensiklopediya kitabları, elm adamlarının mənə hədiyyə verdikləri elmi kitablar, (bunlar tarix və təbiətşünaslıq elmlərinə aiddir) vardır. Sovet vaxtında nəşr olunmuş "Dünya Ədəbiyyatı Kitabxanası" adı ilə ədəbi bədii kitabların cildləri, dost yazıçı və şairlərin mənə hədiyyə etdikləri bədii kitablar da vardır.

Kitab rəfində olan kitablar dəstindən dilimizdə yazılmış qədim Ərəb nağıl və folklor nümunələri, habelə dini kitablardan Qurani-Kərimin Ərəb, Rus və Azərbaycancə bir neçə nüsxələrini də yığıb saxlamışam. Hər həftənin Cümə axşamı günlərində Qurandan ayələr oxuyub və ölənlərimizin ruhuna dua edirəm. (Bütün bunları rəhmətlik atamdan görüb və öyrənmişəm). Kitab rəfində Türk dünyasının gözəl insanı və elm adamı Adnan Oktarın (Harun Yəhyanın) yazdığı və dilimizdə nəşr olunmuş kitabları daha maraq doğurur.

Din barəsində nə vaxt ki, çətinliyə düşürəmsə, o vaxt Azərbaycan dilində nəşr olunmuş Qurani-kərimdən, rəhmətlik keçmiş din xadimi Seyid Məhəmməd Bakuvinin dilimizdə yazılıb nəşr olunmuş "Kəşfül-Həqayiq" üç cildliyi, İmam Əli (ə)-ın din hökmləri barədə yazılmış tarixi "Nəhcül-Bəlağə"si, Seyid Haşimin yazdığı və dilimizdə nəşr olunmuş "Peyğəmbərlərin həyatı" iki cildlik kitabları və habelə Harun Yəhyanın yazdığı "Quran möcüzələri" kitablarından istifadə etməklə, bilik və yaddaşımı dərinləşdirirəm.

Otağımdakı kitab rəfində Rus və Azərbaycan dilində yazılmış Kino və Foto sənəti haqqında da kitablar, tarixi nüsxələrdir. Kitablar arasında özümün müxtəlif illərdə yazdığım kitab və əlyazmalardan ibarət nüsxələr də saxlanılır. Bütün bunlarla yanaşı maraqlı kitab nüsxələri də var ki, onlar Rus, Ərəb, Fars və Azərbaycan dilində olan lüğət kitablarıdır. Habelə müxtəlif xalqların əfsanə və tapmacaları, İtaliya yazıçısı Antonino Piqafettanın yazdığı "Magellanın səyahəti" (Leninqrad-1928) ilə Fransız yazıçısı Jül Vernin "80 min km su altı ilə" (Bakı-1948) kitabları daha tarixidir.

Ən maraqlı arxiv sənədlərindən biri də odur ki, illərlə qəzetlərdə yazılmış elm adamlarının yığıb saxladığım, tarix və təbiətşünaslığa (kənd təsərrüfatına) aid olan məqalələridir. Bir vaxt gələr onlar kiməsə lazım olar. İnşaAllah! (bax; F.Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014).

Evimizdəki mənə məxsus otaqda bir vaxtlar özüm çəkdiyim rəhmətlik atamla anamın, özümlə həyat yoldaşımın (cavanlıq illəri) və ailə uşaqlarımızın (nəvələrlə birlikdə) foto şəkillər, baxanları heyran edir. Həyat yoldaşım və mənim həmişə qayğıma qalan, həyətimizdəki əkdiyim güllərdən daha çox ətirlisi olan əzizim və onun tale həyatında ağır yük olduğum Mehriban xanıma bu şeri vəsf edirəm. (Şeri oxu və məni bağışla, ruhumu isə həmişə xatırla).

"Gəncliyimdə həyətdə əkdiyim güllərdən dərərdim,
Əlvan ləçəklərini bağrıma basıb çox iyləyərdim.
Həyatımda sevdiyim bircə güldən zövq almışam,
Mehriban adlı gülüm solandan mən qocalmışam."

(Feyruz Abdulla oğlu).

"Nə gözəl bəndə idi o, çünki o daim Allaha sığınan bir kimsə idi."

(Sad surəsi, 30).

Bütün bunlar mənim həyatımın yadda qalan tale yollarındakı "əkdiyim ağac tinglərdir". Ümidvaram ki, həmin ağacları nəvə-nəticələrim qoruyacaq, gələcəkdə onların tale yükləri yüngül olub və üzləri güləcəkdir. İnşaAllah!

Bəsdir, indiyədək kim nə edibdir, kimi əyri, kimi düz yol gedibdir
Əyri yolu bir də getməyin daha, sizi and verirəm o, bir Allaha.

(A. Qasım, "Həyata baxış")

Allah heç kimin qarşısına mərdimazar çıxarmasın. İnsanlardan elələri var ki, heyvan onlardan yaxşıdır. Həmin insanlar işləri çətinliyə düşəndə, ata sözündə deyildiyi kimi; "Dəvə kimi iynənin deşiyindən keçmək istərlər." Belə insanlar çətinlikdən qurtulduqdan sonra heç kəsi tanımaq belə istəməzlər.

Dayaz sular səsli axar, sən suyun lal yerindən qorx,
Düzü əyri görən görsün, əyrini düz görəndən qorx.
Eyni bilmə "şeşlə" "yeki", qopsa tufan yıxar təki,
Qaldırma hər ağır yükü, qopar bəndi-bərəndən qorx.
Dili acı olandan yox, durnadan tel salandan yox,
Salamı gec alandan yox, tez-tez salam verəndən qorx.
Namərd sənin qulluğunda qul olar, öz işi düzəlib bitənə kimi,
İlişə-ilişə keçər yanından, əlləri bərk yerə çatana kimi.
Xeyrin bilməz namərd sərsəri, əzəldən belədir, əzəldən bəri,
Qoy sellər aparsın nanəcibləri, bax, dalınca gözdən itənə kimi.
Şəmkir gərək mərd ocağı qalasın, hərə çəkə öz dilinin bəlasın,
Qoy səni şir yesin, şir parçalasın, tülkü kölgəsində yatana kimi.
Bu gün elə bil ki, tanımır məni, dünən adam bilib əl verdiklərim,
İlişə-ilişə keçir yanımdan, yalın ayağına nal verdiklərim.
Kiminə dost oldum, kiminə ata, dar gündə qoymadım o, itə, bata,
İnanmazdım məni manata sata, ağır günlərində pul verdiklərim.
Kiminə dost dedim qəhər gətirdi, dedim çiynimdə gəz, yəhər gətirdi,
Əlləri ilə süfrəmə zəhər gətirdi, əlimlə ağzına bal verdiklərim.
Qanana çəkəsən zəhmət çəkəndə, qanmazda itməsin bircə tikəndə,
Görəsən yoluma tikan əkəndə, xəcalət çəkdimi, gül verdiklərim ?...

“Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?”

(Ənam surəsi, 32)

Quran möcüzələri

> *"Onun üstündə on doqquz vardır."*
>
> *(Muddəsir surəsi, 30).*

Qurani-kərimdə olan bu riyazi kəlam bəlkə də oxucuların nəzər diqqətində adi söz ifadəsi kimi oxunmuşdur. Lakin 19 rəqəmi bu müqəddəs kitabın əksər yerlərində şifrlənmişdir. Məsələn; Ərəbcə "Bismillahirrəhmanirrəhim" kəlməsi 19 hərfdən ibarətdir və s.

Bu Ərəbcə yazılmış hərflər belə sayılır; 1-ci hərf ب-ci hərf س-cü hərf م-cü hərf ا-ci hərf ل-cı hərf ل-ci hərf ه-ci hərf ا-cu hərf ل-cu hərf ر-ci hərf ح-ci hərf م-cü hərf ن-cü hərf ا-ci hərf ل-cı hərf ر-ci hərf ح-ci hərf ى-cu hərf م

Qurani-kərimdə 114 (19 x 6) surə vardır. İlk vəhy olunan surə (96-cı surə) axırdan 19-cu surədir. 96-cı surənin ilk 5 ayəsi və ayələrdəki kəlmələrin sayı 19-dur və s.

*Quranda oxunan **Vahd** ("vahid") kəlməsinin (i hərfi oxunuşda əlavə edilər) əbcəd dəyəri 19-dur. Bu hərflər; **V و A ا H ح D د** :Hərflərin say dəyərləri: **6 + 1 + 8 + 4 = 19.** 19 dəfə "vahd" kəlməsinin qeyd edildiyi ayələrin surə və ayə nömrələrinin cəmi 361 (19 x 19)- dur. (bax; H.Yəhya, "Quran möcüzələri" İstanbul-2009).*

> *"Bu (Quran) aləmlərə ancaq bir öyüd-nəsihətdir. Siz onun verdiyi xəbəri bir müddətdən sonra mütləq biləcəksiniz."*
>
> *(Sad surəsi, 88).*

*Quran Ərəbcə olsa belə ərəb ədəbiyyatındakı danışıq tərzinin heç birinə oxşamır. Qurandakı qafiyələrə ərəbcə "səci" deyərlər. Dilşünaslar belə qafiyə sisteminə "Quran möcüzəsi" deyirlər. Quranı oxuyanların elmi səviyyəsindən asılı olmadan, başa düşünəsi bir sözlərlədir. Bu barədə Qurani-kərimin "Qəmər" surəsinin 22-ci ayəsində bildirilir ki; **"And olsun ki, biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq..."***

*Qurani-kərimdə 29 surə 1 və ya 1-dən artıq simvolik hərflə başlayır. **"Muqatta hərfləri"** kimi tanınan bu hərflər həm də "başlanğıc hərfləri" adlanır. Ərəb dilindəki 29 hərfdən 14-ü ayn, sin, kaf, nun, ra, ya, ta, ha, əlif, ləm, mim, hə, yə, sad, "muqatta hərfləri" sayılır.*

Quranın "Qələm" surəsində "nun" hərfi ayələrin 88,8 faizini, "Şuara" surəsində 84,6 faiz, "Nəml" surəsində 90,32 faiz, "Qəsəs" surəsində 92,5 faizi və s. yalnız "nun" hərfi ilə qafiyələnir. Maraqlıdır ki, Quran ayələrinin yarıdan çoxu "nun" hərfi ilə qurtarır.

Quran qafiyə baxımından ümumi şəkildə baxılanda məlum olur ki, qafiyələrin 80 faizi "əlif", "mim" və ya "nun" hərflərindən ibarət olan üç səsdən (n, m, a) ibarətdir. "Nun" hərfindən başqa ayələrin 30 faizi "mim", "əlif" və yaxud da "ya" ilə qafiyələnir. (bax; M.A.Abbas, "Elmi möcüzələr" ("Science Miracles") (ingiliscə) Vaşinqton (ABŞ)-2000).

Dünyanın sirləri Simruqtək inan, bədənin içində olmuşdur pünhan,
Düz iki dünyadan artıq hər tükün, sən iki Dünyasan kəsirsiz özün.
Bədənlə ilahi bir qübbəsən sən, lakin paltardasan, agah deyilsən,
Allah bir nəqqaş tək qələm çəkəndə, ən gözəl xətləri işlətdi səndə.
Varlığın ən yüksək nümunəsisən, niyəsiz, necəsiz bir yazısan sən,
Bədən xəmirini Odur yoğuran, həm Odur hərfi yazan, biguman.
Əlində Allahın 99 adı var, "yoxdur haqdan başqa" söylədin təkrar,
Qamətin "əlif"dir, qaşların "re"dir, gözlərin "sad"la "zad" deyil?
"Ta", "za"dır burnun, dişlərin "sin", "şin" "ha" isə ağzındır sənin,
Göbəyin "mim"dirsə, "eyn"dir qulaq, bundan qalanını özün bil ancaq.
Başın, iki gözün, ağzınla sən, şeytanın "şin"inə həmlə edirsən,
Şeytana olmadı ağlın nuru yar, yoxsa o, səcdədən eyləməzdi ar.
Haqqın istəyi ilə dünyaya gəldin, müjdəyə, ilhama layiq kəsildin,
Sənə ata oldu ağıl ucadan, nəfəs də ana oldu ta ucalasan.
Canın dörd ünsürdən ibarətdir bax, üç mövluddan birdir ancaq,
Sular sənə yükdaşıyandır, yellər qasidindir, haman-hamandır.
Sənə aş bişirir mətbəxdə od, bax, isidir Günəş torpağı, yaxşı bax,
Ağızın, gözün suyu dəryalar, saçların bir meşə, tükdə gəzən var.
Çiynin, dalağın, ciyərin dağlar, səndə dərələr də, təpələr də var,
Sümüklər, əsəblər, əzələ, damar, ət və dəri- bax bütün bunlar.
Daxildə, xaricdə üç minə qədər, cisim vardır səndə sərbəsər,
Sonra səkkiz dənə bitki qüvvəsi, bir üzvlə birləşib onlar hərəsi.
Vursan bir-birinə onları, inan, düz iyirmi dörd min elər həmən,
Qulluğunda sənin, bax, bunlar, sənin vücudunu ucaltmış onlar.
Ulduzlarla doqquz Aləm bərabər, qəlbində asanca yerləşə bilər,
Gəz dünyanı, axsamadın, bax, göylərin seyrindən doymadın ancaq.
Atını oynadıb çapsan əgər sən, göydəki Aya gedib, geri gələrsən,
Dünyada hər şeyə çarə etdin, bax, ölümə bir çarə tapmadın ancaq.

(Marağalı Əhvədi, "Cami-cəm")

“Bu, nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə sizə rəhm edilsin.”

(Quran, Ənam surəsi ayə 155))

Riyazi rəqəmlərdə “tapmaca”

Gənclik illərində mədəniyyət sahəsində işləyəndə iş vaxtında boş vaxt olurdusa, ya kitab (qəzet) oxuyardım və ya fikirləşib riyazi rəqəmlərdən ibarət “tapmaca” yazıb və iş yoldaşlarıma cavabını tapmalarını istərdim. İş yoldaşlarımdan yalnız Ceyhun adlı bir cavan oğlan hərdən bir riyazi “tapmaca” suallara cavab taparaq sevinərdi. Həmin riyazi hesab “tapmaca”dan beşini aşağıda yazıb və oxuculara cavablarını da göstərmək istəyirəm.

☺☻ ***Sual 1:*** *Necə etmək olar ki, aşağıdakı* ***59 + 59 = 40*** *riyazi hesab “tapmaca”dakı rəqəmlərdən hansının yerlərini dəyişməklə belə düzgün* ***99- 59 = 40*** *cavabı almaq olar?*

59 + 59 = 40

Cavab: *Bunun üçün üstəgələk (pilus) işarəsindəki yuxarıdan aşağıya olan xətt götürülür (pilus işarəsi minus olur) və qarşıdakı 59 rəqəmində olan 5 rəqəminin yuxarı hissəsinə birləşdirilir. Beləliklə həmin rəqəm olar 9. 99-dan 59-nu çıxanda isə 40-a bərabər olar.*

99- 59 = 40

☺☻ ***Sual 2:*** ***Necə etmək olar ki, aşağıdakı 55 + 49 = 99 riyazi hesab “tapmaca”dakı rəqəmlərdən hansının yerlərini dəyişməklə belə düzgün 56 + 43 = 99 cavabı almaq olar?***

55 + 49 = 99

Cavab: Bunun üçün 49 rəqəmindəki 9-un yumrusunun qarşı tərəfindən bir xətt götürüb (olur 3) və 55 rəqəmindəki ikinci 5 rəqəminin aşağı boş qalmış hissəsinə qoymaq (olur 6) lazımdır. Beləliklə 56 + 43 = 99 cavabını almaq olar.

56 + 43 = 99

☺☻ ***Sual 3:*** ***Necə etmək olar ki, aşağıdakı 53 + 53 = 40 riyazi hesab “tapmaca”dakı rəqəmlərdən hansının yerlərini dəyişməklə belə düzgün 93- 53 = 40 cavabı almaq olar?***

53 + 53 = 40

Cavab: Bunun üçün üstəgələk (pilus) işarəsindəki yuxarıdan aşağıya olan xətt götürülür (pilus işarəsi minus olur) və qarşıdakı 53 rəqəmində olan 5 rəqəminin yuxarı hissəsinə birləşdirilir. Beləliklə həmin rəqəm olar 9. 93-dən 53-nü çıxanda isə 40-a bərabər olar.

93- 53 = 40

☺☻ ***Sual 4:*** ***Necə etmək olar ki, aşağıdakı 34- 34 = 60 riyazi hesab “tapmaca”dakı rəqəmlərdən hansının yerlərini dəyişməklə belə düzgün 94- 34 = 60 cavabı almaq olar?***

34- 34 = 60

Cavab: Bunun üçün üstəgələk (pilus) işarəsindəki yuxarıdan aşağıya olan xətt götürülür (pilus işarəsi minus olur) və qarşıdakı 34 rəqəmində olan 3 rəqəminin yuxarı hissəsinə birləşdirilir. Beləliklə həmin rəqəm olar 9. 94-dən 34-nü çıxanda isə 60-a bərabər olar.

94- 34 = 60

☺☻ *Sual 5: Necə etmək olar ki, aşağıdakı 32 + 32 = 60 riyazi hesab "tapmaca"dakı rəqəmlərdən hansının yerlərini dəyişməklə belə düzgün 92- 32 = 60 cavabı almaq olar?*

32 + 32 = 60

Cavab: Bunun üçün üstəgələk (pilus) işarəsindəki yuxarıdan aşağıya olan xətt götürülür (pilus işarəsi minus olur) və qarşıdakı 32 rəqəmində olan 3 rəqəminin yuxarı hissəsinə birləşdirilir. Beləliklə həmin rəqəm olar 9. 92-dən 32-ni çıxanda isə 60-a bərabər olar.

92- 32 = 60

Belə riyazi hesab tapmacaları, insanın mənəvi və elmi bilik zənginliyi artır. Həmin riyazi rəqəmlərdən ibarət "tapmaca"ları, kibrit çöpləri ilə oynamaq daha asan olar.

> *"Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik..."*
>
> **(Bəqərə surəsi, 32)**

Şirk- ən böyük günahdır

Müsəlman olaraq Allahın əmrlərini öyrənib yerinə yetirməklə məsuliyyət daşıdığımız kimi, haram buyurduğu, qadağan etdiyi şeyləri öyrənib onlardan uzaq durmağı da bilməliyik. Çünki öldükdən sonra diriləcəyimiz Axirət günündə hər iki mövzuda da sorğu-suala çəkiləcəyik. Dünyadakı ən böyük günahlardan biri Şirkdir- yəni Allaha şərik qoşmaqdır. Şirk təkcə böyük günah yox, kafirlikdir. (Şiə məzhəbində bu cürə işlər həddindən çoxdur).

Bu təriqətdən olan müsəlmanlar, İmamlar və onların övladları (bunlara Seyid deyilir) olan qəbir yerlərini, kütləvi ziyarətgaha çevirməklə insanları yolundan azdırırlar. Hətta bu ziyarətgahda dəfn olunanlardan dua edib istəklə nəyə isə nail olmağa çalışırlar. Halbuki, Allahdan başqa dua edib heç kimdən istəməzlər. (bax; Lütfi Şəntürk, "İslam dinində böyük günahlar" Ankara-1999).

Naxçıvan Muxtar Respublikası ərazilərində pir yerləri çoxdur. Həmin yerlərdəki qəbirləri saxtakar müsəlmanlar qazanc mənbəyinə çevirmişlər. Belə ki, pir deyilən yerlərə insanlar getməklə, Allahı qoyub və oradakı qəbir sahiblərinə xətir qurban kəsərək və imdad diləyirlər.

<u>Naxçıvan şəhərində</u> Mömünə Xatın məqbərəsi yanında "Mir Yaqub piri", şəhid A.Tarverdiyev küçəsində "Zaviyə məscidi"ndən 100 metr cənubda "Xədicəbəyim piri", Əlixan məhəlləsindəki Əzizbəyov və 20 yanvar küçələrinin birləşdiyi yerdə "Fatiməbəyim piri", Şahab məhəlləsində B.Hüseynov (keçmiş Firdovsi) adına küçədəki şəxsi həyətdə "Süddü nənə" piri", Qoçüstü məhəlləsinin Sabir küçəsində (döngə 6, ev № 8) "Müqəddəs məzarlar" piri", Sarbanlar məhəlləsindəki İ.Səfərli küçəsi 24 № -li evin həyətindəki "Pir Ömər Nəşəvi ziyarətgahı" və sairədir.

"Müqəddəs" sayılan pir yerlərindən rayon ərazilərində də vardır.

<u>Babək rayonu ərazisində</u>, Nehrəm kəndində "Səyyid Əqil piri", Sirab kəndində "Ağac piri", "Səyyid Hüseyn və Səyyid Həsən pirləri", "Səyyid Tağı piri", Tumbul kəndində "Qara daş (Əhməd) piri", Qaraqala kəndində "Şeyx İmran (Şahmərdan) piri", Cəhri kəndində "İsfəndiyar piri", Məzrə kəndində "Ocaqtəpə piri", Didivar kəndində "Səyyid Əhməd piri", Payız kəndində "Səyyid Əli piri", Göynük kəndində "Səyyid Həsən piri", Qurani-kərimdə adı çəkilən "Əshabi-Kəhf piri" və s.

<u>Şahbuz rayonu ərazisində</u>, Kükü kəndində "Xudavəng piri", Keçili kəndində "Hovuz piri", Badamlı kəndində (4 km şimal qərb hissədəki Şada kəndinə gedən yolun kənarında) "Yel piri", Biçənək kəndində (Batabat yaylasında "Fərhad evi")"Şah Abbas piri", və s.

Culfa rayonu ərazisində, Xanəgah kəndində "Şeyx Xorasan piri", Camaldın kəndində (5 km şimalda) "Alməmməd piri", Cuğa kəndində (Araz çayı sahilində) "Gülüstan türbəsi", Ərəfsə kəndində "Ərəfsə piri", Dizə kəndində "İmamzadə piri", Şurud kəndində "Nisəbəyim bulağı" piri" Saltax kəndində "Saltax sərdabəsi" və s.

Kəngərli rayonu ərazisində, Qarabağlar kəndində "Asnı piri", Xok kəndində "Narbənd" piri", Şahtaxtı kəndində "İydəli piri" və s.

Ordubad rayonu ərazisində, Ordubad şəhərində Bəlkə dağının cənub ətəyindəki köhnə qəbiristanlıqda "Malik İbrahim piri", Tivi kəndində "Tivi pirləri", (Tivi kəndindəki pirlər; Qapıcıq piri, Qız-oğlan piri, Qara pir, Bibi Qətəl piri, İmran piri, Beş qardaş piri, Palıd piri, Tağı piri, Sarı qaya piri, Dağdağan piri, Cəviz piri, İmran mülkü piri, Əliəbbas piri, Qara daş piri, Həmzə piri, Navur piri, Anabat piri və s. Nüsnüs kəndində "Qırx kimsə" piri", Üstüpü kəndində "İsfəndiyar piri", Düyülün kəndində "Səyyid Səfi (Səffan) piri", Aşağa Aza kəndində "Şəmsəddin Məhəmməd piri", Dər kəndində "Dər (darvaza) piri", Xanağa (Çapayev) kəndində "Xanağa piri" və s.

Şərur rayonu ərazisində, Xanlıqlar kəndində "Parçı piri", Tənənəm kəndində "Tənənəm piri", Axura kəndində "Qaradaş piri", Axura kəndində (Axura çayının sol sahilində) "Hadı qaib piri", Havuş kəndində (Sıldırım qayalar arasındakı mağarada) "Havuş piri", Şahbulaq (Çağazir) kəndində "Şapur bulağı" piri" və s.

Sədərək rayonu ərazisində, Sədərək qəsəbəsinin şimal-qərbində (Təkrar dağının üstündə ardıc kolları arasında) "Teykar" piri", Sədərək rayonu ərazisində (Ucubiz dağının yamacında) "Ağ atlı oğlan" piri" və s. (bax; F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008).

İnsan heç bir vaxt ümidsizliyə qapılmamalı, səhvlərdən peşman olaraq və Allahdan əfv diləməlidir. Allah da tövbə edənlərin günahlarını bağışlayar. İnşaAllah!

> *"... Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur."*
>
> **(Nisa surəsi, 48)**

Mən bu Dünyanın qonağıyam

Ay gələr batar gedər, durnalar qatar gedər,
Bu Dünya bir güzgüdür, hər gələn baxar gedər.

İnsan bu dünyada anadan olanda onun yaxın-əziz adamları sevinərlər. Lakin onlar bilmirlər ki, özləri də yeni dünyaya gəlmiş uşaq da bu dünyanın qonaqlarıdırlar. Bəli hər bir canlı bu dünyada sanki kiminsə qonağıdır. Əlbəttə bütün canlılar yaradanın sevimli və istəkli qonaqlarıdırlar.

Allah bütün canlılardan insanı fərqli yaratsa da ona bu dünya həyatında başına gələn məşvərətləri öz xüsusi kitabında yazmışdır. Bu kitaba da tale (dəhr) və ya qismət kitabı deyərlər. Həmin kitab isə yaradanın yanında xüsusi bir yerdə Quranda deyildiyi kimi "Lövhi-məhfuz" da saxlanılır.

> *"Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (Lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır. Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, fəxr edən heç bir kəsi sevməz."*
>
> **(Hədid surəsi, 22-23).**

Tale kitabına görə insan bu dünyadan vaxtı çatanda ölüb gedər. Gedən zaman onun cismi Dünyada torpağa çevrilər. Çünki ilk insanlar olmuş Adəmlə Həvva da torpaqdan yaradılmışlar. Cisim torpağa çevrilsə də insanın Ruhu əbədi qalar. Uca Yaradan onu (Ruhu) Quranda adı çəkilən "Bərzəx" aləmində axirətə kimi saxlayar.

Axirətdə Quranda adı çəkilən "Qiyam-qiyamətdə" bütün insanların ruhları Dünyaya qaytarılar və yenidən cisim verilməklə onlar əvvəlki görkəmdə, yəni insan formasında Quranda adı çəkilən "Mizan-tərəzi" deyilən yerə göndərilərlər. Həmin yerə insan axını anadan olduğu kimi çılpaq bədənlə və sel kimi hərəkət edib gedərlər.

Çılpaq bədənli insanların gözləri olsa belə qarşılarındakı, arxa və yanlarındakı özü kimi çılpaq bədənli insanları görsələr də hiss etməzlər. İnsanlar yalnız və yalnız özlərini düşünər, öz-özləri ilə "danışar" və öz hallarına özləri qalarlar.

İnsanlar Quranda adı çəkilən "Məhşər" aləminə gedərkən dünyada yaşadıqları kimi yox, yalnız və yalnız orta yaş (30-40) həddində və sağlam bədənlə hərəkət edəcəklər. Əgər kim isə bu dünyadan uşaq və gənc yaşlarında köçmüşsə, o zaman həmin şəxslər orta yaş həddində Quranda adı çəkilən "Sorğu-sual" meydanına gedəcəklər. Əgər bir şəxs dünyadan köçəndə yaşlı olmuş və ya bədən üzvlərində şikəstlik olmuşsa belə, həmin adamlar da, orta yaş həddində və sağlam bədən əzaları yerində olacaqdır.

İnsanlar "Məhşər" aləminə gedərkən bu dünyadakı yaşadıqları dövrədək bütün elədikləri yaxşı-pis əməlləri də yazılmış dəftər-kitabda əllərinə veriləcəkdir. Yaxşı əməllərə görə insanların sağ əllərinə həmin dəftər-kitablar verilər. Pis əməllərə görə isə sol əllərinə verilər. İnsanın hər iki əllərinə verilmiş dünyadakı əməl dəftər-kitabları ağır olsa belə onları əllərində bərk-bərk tutub və "Mizan-tərəzi" meydanına tələsərlər.

Əməllər həmin meydanda "Tərəzidə çəkildikdən" sonra, hansı əməl dəftər-kitabı ağır gələrsə qarşıdakı iki yoldan birinə Quranda deyildiyi kimi "sürüklənəcəklər". Həmin yolların biri yaxşı əməl sahiblərini Allahın yaratdığı adı Quranda çəkilən "Cənnətlərə" və digəri isə pis əməl sahibləri də adı quranda çəkilən "Cəhənnəmə" tərəfdir.

Cənnətlərə göndərilən yaxşı əməl sahibləri, getdikləri yolda Cəhənnəm sakinlərini gözləri ilə görüb və seyr edərlər. Onlar Cənnət qapılarına çatdıqda yaxşı əməl sahibləri kimi, mələklər tərəfindən xoş üzlə qarşılanarlar. Cəhənnəmə sürüklənən dünyadakı pis əməl sahibləri isə adı quranda çəkilən "Zəbanilər" (Cəhənnəm qoruyucuları) tərəfindən əzab-əziyyətə düçar olarlar...

> *"... Yaxşı əməl sahibləri əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda malını qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirə, dilənçilərə və qulların azad olmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbir edənlərdir. Doğru olanlardır. Müttəqi (Allahdan qorxan) olanlar da onlardır."*
>
> **(Bəqərə surəsi, 177)**

Bu dünyada Allahdan qorxan şəxs hər bir adamla ünsiyyətdə olarkən, Allahın bizə bəxş etdiyi gözəllikləri, dünya həyatının keçəri olmasını, İslam dininin əxlaqını müqəddəs kitablar və seçilmiş peyğəmbərlər haqqında gözəl tərzdə danışaraq dinimizi elmi şəkildə təbliğ etməlidir.

Mömin insan gərəkdir ki, İslam əxlaqı ilə yaşamaqla və onun təbliğatçısı olsun. Şirk sayılan əməllərdən uzaqlaşsın və insanlarla gözəl rəftar etsin. Hər bir şəxs bilməlidir ki, bu Dünya həyatı daimi deyil. İnsan dünyaya gəlməklə sanki Allah qarşısında imtahan verib və əməllərinə görə vaxtı çatanda dünyadan köçür.

Biz hamılıqla bu dünyanın qonaqlarıyıq. Qonaq hər kəsin evində olarkən yəqin ki, ev sahibi ondan razı qalsın deyə, özünü ədəb-ərkanlı aparmalıdır. Bəs belə olan yerdə biz nə üçün bu dünyanın qonaqları ikən "ev sahibi" olan Allahın qarşısında ədəb-ərkanlı olmayaq?

Bunun üçün lazımdır ki ilk əvvəl Yaradanı tanımaq. Onu tanımaq üçün Quran əxlaqını əsas götürməklə əsl iman sahibi olmaq gərəkdir. Allah da yaratdıqlarından yalnız və yalnız bunu istəyər. Uşaq doğulanda valideyn (xüsusilə ana) uşağını hamıdan çox sevib əzizləyər. İstəməz ki, uşağına nə isə pis bir şey olsun. Onu əzizləyərək böyüdüb tərbiyə verər ki, uşaq da, böyüyəndə valideynə pis olmasın.

Əgər bir şəxs valideyninə pis olarsa, şübhəsiz ki, Allahdan həmin övladına qarğışla durar. Bəs belə isə onda nə üçün bütün aləmləri yaradan və bütün canlıları, habelə canlıların "Əşrəfi" sayılan insan, Yaradanını tanımasın? İnsan gərək dünya həyatında naşükür olmasın. İnsan bilməlidir ki, bu fani dünyada heç kim qalmayacaq. İstər şah ol, istər qul ol. Hamı vaxtı çatanda qara torpağa qovuşmalıdır.

İnsan səxavətli və qonaqpərvər olmalıdır. İnsan qarşılıqlı salam və hörmət sahibi olmalıdır. Qurani-kərimin "Nisa" surəsində (ayə 86) Allah deyir; "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya qaytarın..." İnsan bir-biri ilə mübahisə etməməli və heç kəsə hirslənməməlidir. Bu əməllər insanı insanlıqdan çıxararaq vəhşiləşdirir.

Qurani-kərimdə Allah ("Kəhf" surəsi ayə 54) insanın bu pis əxlaqını misal çəkərək; "ən çox mübahisə edən" kimi bildirir. İnsan gərək paxıl olmasın. Paxıllıq və həsəd hər bir mömini hörmətdən salaraq onu lənətə gəlmiş Şeytana yaxınlaşdırar.

Qurani-kərimdə Allah ("Nisa" surəsi ayə 54) möminlərə belə deyir; "Yoxsa onlar Allahın Öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar..." İnsan gərək heç kəsə istehza edərək onu lağa qoymasın. Allah Quranda bu cür insanları pisləmişdir.

Qurani-kərimdə Allah ("Huməzə" surəsi ayə 1) deyir ki; "Qeybət edib tənə vuran hər kəsin vay halına." İnsan dünya həyatında ədalətli və doğru danışan olmalıdır. Belə insanlar Qiyamətdə hər dediyi sözə görə sorğu-suala çəkiləcəklər. Allah Qurani-kərimin "Əhzab" surəsində (ayə 70) belə deyir: "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın."

İnsan yaşadığı bu Dünyada qonaq olduğu kimi yüksək əxlaq sahibi olmalıdır. Dünyadan köçəndə heç olmasa tanıyanlar həmin adama Allahdan rəhmət duası diləsinlər. Bu Dünyada ən yüksək əxlaq sahibi həzrəti Muhəmməd (s) Peyğəmbər olmuşdur. Allah Qurani-kərimin "Qələm" surəsində (ayə 4) belə demişdir: "Doğrudan da sən böyük bir əxlaq sahibisən." Allah dünyadakı mömin bəndələrinə "əsl şan və şöhrəti" Qurandakı əxlaqla qazandırar.

> *"... Və o kəslər ki, Rəbbinin razılığını qazanmaq üçün səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıqla alırlar."*
>
> **(Rəd surəsi, 22)**

Dünya həyatının qonaqları kimlərdir? Əlbəttə bütün canlılarla bərabər ən ağıllı vücud olan insanlardır. Allah insanları digər canlılardan üstün edərək ona ağıl vermişdir. Buna görə də insanlar adı Quranda çəkilən "Əşrəf" sayılırlar. Çox təəssüf ki, istər keçmiş dövrlərdə və istərsə də indiki zamanda insanlar Quran qanunları ilə, yəni Allahın dedikləri yol ilə getməyərək və Cənnətdən qovularaq lənətlənmiş Şeytanın yolu ilə gedirlər.

Bu adamlar əsasən bunlardır: 1) Ateistlər-yəni Allahı inkar edən adamlar. 2) Bütpərəstlər-yəni Şeytanın dostları. 3) Münafiqlər-yəni ikiüzlü və riyakar adamlar. 4) Müttəqilər-yəni Allahdan qorxan möminlər. Ateistlər İngilis Çarlız Darvinin xəyali bir nəzəriyyəsini əllərində silah tutaraq və Dünyada hər şeyin öz-özünə yaranmasını iddia edirlər. Bu adamlar sorğu-sualsız Cəhənnəm əhli olacaqlar.

Bütpərəstlər Dünya və canlılar yaranandan sonra Adəm oğulları tayfasından əmələ gəlmiş insanlardır. Onlar hər şeyin Yaradanı olan Allahı inkar edərək və özlərinin düzəltdikləri heykəl, əşya və daşlara səcdə edib və onları ilahi məbud sayırlar. Bu adamlar da birincilər kimi, Cəhənnəm əhli olacaqlar. Bütpərəstlər haqqında Qurani-kərimdə Allah keçmiş insanlardan dəfələrlə məsəllər çəkmişdir. Lakin bu kimi adamlar Məhşərdə sorğu-sual olunaraq və Cəhənnəmə sürüklənəcəklər.

Üçüncü qisim olan insanlar mömin bəndələr olsalar belə onlar haqqında da Allahın müqəddəs kitablarında dəfələrlə pislənilərək misallar çəkilmişdir. Bu adamlar dindar olsalar belə qəlbən iman sahibləri deyillər. Belə mömin bəndələr ən qorxulu insanlardır. Münafiqlər də Məhşərdə sorğu-suala çəkilərək və Cəhənnəmə sürüklənəcəklər.

Və nəhayət sonuncu insanlar adları Quranda tez-tez çəkilən Müttəqilərdir ki, onlar Dünya həyatında özlərini qonaq bilərək və Allahdan qorxarlar. Belə adamlar faiz göstərişi ilə Adəmdən Xatəmin Ənbiyayadək (ilk peyğəmbərdən sonuncu peyğəmbərədək) çox az qismidirlər. Hətta onlar Qiyamətədək yenə də az miqdarda olacaqlar. İstər kişi və istər sə də qadın (zənən xeylağı) olsun. Fərq eləməz, çünki, belə adamlar 124 min Allahın seçilmiş bəndələri ilə bərabər hər milyardda bir nəfər ola ya olmaya. Bütün bunların sayını isə yalnız Allah bilir.

İslamdan öncə Allah tərəfindən insanlara göndərilmiş müqəddəs qanun kitablar olan "Tövrat" və "İncil" kitablarında kəlamları dəyişməklə mömin bəndələri düz yoldan çəkindirmişlər. Quranda adı çəkilən Musəvilər hələ həzrət Musa (ə) Peyğəmbərin sağlığında bilərəkdən dindən uzaqlaşaraq və bütə sitayiş etmişlər.

Onlar on iki firqəyə bölünməklə 100 il ölüb və yenidən dirilmiş həzrəti Üzeyir (ə) Peyğəmbəri ilahiləşdirərək onu müqəddəs bilmişlər. Yəhudilər indi də səhv yol tutaraq Allahın Peyğəmbərini (ə) müqəddəs bilib və mələkləri isə oğlanlardan ibarət olmasını iddia edirlər. Xaçpərəstlər (İsavilər) isə Allahın atasız doğulmuş həzrəti İsa (ə) Peyğəmbəri müqəddəs bilərək, onu Allahın oğlu kimi və mələkləri isə Allahın qızları olmasını iddia edirlər.

Maraqlıdır ki, müsəlmanlar da cahillik üzündən Allahın Quranından uzaq düşmüşlər. Onlar həzrəti İbrahim (ə) Peyğəmbərin Hənif İslam dinindən çıxmışlar. Belə adamlar çox şeyi müqəddəs bilirlər. İslamda Şiə, Hənəfi, Maliki, Şafii, Hənbəli, Vəhhabi və başqa təriqətlər vardır. Bu insanlar Allahın qoyduğu Quran qanunlarını bir tərəfə qoyub və özlərindən uydurma işlərlə məşğuldurlar.

Dünya həyatındakı insanlar bu dünyanın qonaqlarıdır. İnsan nə qədər gözəl və təmiz olsa belə, Ruhu bədənindən çıxandan sonra onun cismi murdar sayılır. Bir vaxtlar Farslar oda-atəşə inanmış. Qafqaz Azərbaycanləri də oda-atəşə və Günəşə də səcdə etməklə Allahın yolundan çıxmışlar.

Şiə məzhəbində olan hər iki millət adi insanları müqəddəs sayırlar. Halbuki, Quranda dediyi kimi, Allah ilk insanı Yer üzünün qara (murdar) torpağından yaratmışdır. Şiələr Məşhəd şəhərində öldürülmüş İmam Rza (ə) ın və Bağdad yaxınlığında tarixi Kərbibəla müharibəsində şəhid olmuş İmam Hüseyn (ə) ın qəbir yerlərini müqəddəs etmişlər.

Bakının Suraxanı qəsəbəsindəki Hindli tacirlərin 1713-cü ildə gəlib tikdikləri atəşgədə məbədi, müqəddəs yer kimi təbliğ edirlər. Bundan başqa "Ətağa" ləqəbi ilə çağırılan MirMövsüm (Əsl adı Seyidəli 1883-1950) adlı anadangəlmə şikəst bir adamın Bakıdakı məzar yeri müqəddəs bilməklə insanları cahilliyə sövq etmişlər. Məgər İslam dinində insan müqəddəs sayıla bilərmi? Məgər məzar yerləri ibadətgah kimi təbliğ edilə bilərmi ? Əlbəttə bütün bunlar Dünya həyatının necə keçirici olduğunu və özlərinin də bu Dünyada qonaq olduqlarını anlamırlar ?

Müqəddəs yalnız və yalnız tək və rəhmli olan Allahdır ki, hər şeyi yoxdan yaratmışdır. Müqəddəs sayıla bilən Allahın insanlara göndərdiyi kitablardır ki, onları oxumaqla Dünya həyatında qonaq olmağımızı anlayaq. Əsas müqəddəs məkan yeri adı Quranda çəkilən Cənnətdir ki, müttəqi möminlərin orada əbədi qalmaları bildirilir.

Cənnət əhli orada Dünya həyatındakı kimi isti-soyuq bilməzlər, çətinlik görməzlər, yeyib-içdikləri bədənlərində ağrı vermədən əriyib yox olar və hərkəs isə öz istədiyinə asanlıqla nail olar. Cənnət əhli Cəhənnəmdəkiləri sanki bir sehrli pərdə arxasından aydınlıqla görüb və özlərinə təsəlli verərlər. İnşaAllah!

Eşşəyin artırma arpa payını, artırsan çağırar o, öz tayını
Pələng görən it bərkdən uladı, ona yaxınlaşdı quyruq buladı.
Sürünü dağıdan, yeyən canavar, itdən soruşdu ki, sürüdə nə var?
Qatırın işləməkdən töküldü tükü, palanı yırtıldı dağıldı yükü,
Demədilər qatır çox yorulubdur, dedilər atası eşşək olubdur.

(A. Qasım, "Həyata baxış")

"Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik."

(Nəhl surəsi, 97)

Ədəbiyyat

1) *"Qurani-kərim"in mənalı tərcüməsi." (12-ci nəşr) Bakı-2012.*

2) *S. Haşimi, "Peyğəmbərlərin həyatı", (2 cilddə), Bakı-2014.*

3) *L. Şəntürk, "İslam dinində böyük günahlar" Ankara-1999.*

4) *M. Əhməd, "Böyük günahlar" İstanbul-2009.*

5) *M. A. Abbas, "Elmi möcüzələr" (ingiliscə) Vaşinqton-2000.*

6) *N. Gəncəvi, "Sirlər xəzinəsi" "Şərəfnamə" Bakı-1988.*

7) *A. S. Puşkin, "Şerlər, poemalar, povestlər" Bakı-1987.*

8) *H. Yəhya, "Quran möcüzələri" İstanbul-2009.*

9) *H. Yəhya, "Qaranlıq, təhlükə, xurafatçılıq" İstanbul-2015.*

10) *A. Qasım, "Həyata baxış" Bakı-2009.*

11) *A. Yadigar, "Hər şeyin sonu var..." Naxçıvan-2007.*

12) *A. Yadigar, "Dostlar töhfəsi" Naxçıvan-2008.*

13) *H. Razi, "Ömür keçdi..." Bakı-2011.*

14) *F. Xəlilov, "Naxçıvanı öyrənən elmi cəmiyyət" Bakı-2005.*

15) *F. Bağırov, "Ziyarətnamə" (Yol qeydləri) Bursa-1996.*

16) *F. Bağırov, "Nuh yurduna ziyarət" Bakı-2008.*

17) *F. Bağırov, "Tarixin yaddaşı" Bakı-2009.*

18) *F. Bağırov, "Xatırlanan ömür" Naxçıvan-2014.*

19) *Marağalı Əhvədi, "Cami-cəm" Bakı-1970.*

20) *"Min bir gecə" (səkkiz cilddə, 5-ci cild) Bakı-1977.*

21) *İ. A. Krılov, "Seçilmiş təmsillər" Bakı-1988.*

22) *Q. İsmayılov, "Qanlı körpü" (2 cilddə) Bakı-2010.*

23) *"Məktəbdən kənar müəssisələrin əsasnaməsi" Bakı-1994.*

24) *"Dövlət və Din" jurnalı, (Bakı) № 6 2010.*

25) *"Düşünən insan" jurnalı, (Bakı) № 14 2012.*

26) *"Şərq qapısı" qəzeti, (Naxçıvan) № 4 1994; № 232 2011.*

27) *"Nuh yurdu" qəzeti, (Naxçıvan) №5 1996.*

28) *"Muğan-Şirvan" qəzeti, (Sabirabad) 22 noyabr 2013.*

29) *"Şəhriyar" qəzeti, (Bakı) №18 1996.*

FEYRUZ BAĞIROV

Feyruz Abdulla oğlu Bağırov 1946-cı ildə Naxçıvan şəhərində dindar ziyalı ailəsində anadan olmuşdur.

"Fars və Ərəb dilləri kursu"nu bitirən F. Bağırov uzun illərdir ki, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. O, 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək Veteranı fəxri adını almışdır.

Feyruz Bağırov, "Ziyarətnamə" (1996), "Nuh yurdu-Naxçıvan" (1999), "Əzablı günlər" (2006), "Naxçıvanın təbii sərvətləri" (2007), "Nuh yurduna ziyarət" (2008), "Axirət fədaisi" (2009), "Tarixin yaddaşı" (2010), "Dünya həyatı" (2013), "Müsəlmanın maraq dünyası" (2014), "İslam mədəniyyəti" (2015), "Dərman bitkiləri" (2016) və "Yamanlığa yaxşılıq" (2016) adlı kitabların müəllifidir.

Müəllifin veb saytı: www.nuhyurdu.com · E-mail ünvanı: info@nuhyurdu.com



Feyruz Abdulla oğlu Bağırov

1946-cı ildə Naxçıvan şəhərində dindar ziyalı ailəsində anadan olmuşdur.

"Fars və Ərəb dilləri kursu"nu bitirən F. Bağırov uzun illərdir ki, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. O, 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək Veteranı fəxri adını almışdır.

Feyruz Bağırov "Ziyarətnamə" (1996), "Nuh yurdu-Naxçıvan" (1999), "Əzablı günlər" (2006), "Naxçıvanın təbii sərvətləri" (2007), "Nuh yurduna ziyarət" (2008), "Axirət fədaisi" (2009), "Tarixin yaddaşı" (2010), "Dünya həyatı" (2013), "Müsəlmanın maraq dünyası" (2014), "İslam mədəniyyəti" (2015), "Dərman bitkiləri" (2016) və "Yamanlığa yaxşılıq" (2016) adlı kitabların müəllifidir.

Müəllifin veb saytı: **www.nuhyurdu.com**
E-mail ünvanı: **info@nuhyurdu.com**